

# KİNO TERMİNLƏRİNİN

# İZAHLI MÜXTƏSƏR LÜĞƏTİ

Bakı – «Mütərcim» – 2014

Tərcümə və tərtib:

***Şahanə Urfan***
***Şölə Şamıyeva***

Üz qabığını hazırlayan:

***Nicat Əli***

**Kino terminlərinin izahlı müxtəsər lüğəti /** ***Tərc. və tərt.: Şahanə Urfan, Şölə Şamıyeva.*** – Bakı: Mütərcim, 2014. – 116 s.

*Lüğətdə kino sahəsində işlənən terminlər və onların qısa izahları öz əksini tapmışdır. Lüğət 625 sözdən ibarətdir.*

K $\frac{4702060000}{026}$ 204-14

© Şahanə Urfan, Şölə Şamıyeva, 2014

# A

***Abstraktsionizm*** – 1. ümumi anlamda: kino sənətində abstrakt incəsənətin üsullarından istifadə edən istiqamət (“Mexaniki fotodahi” /Jan Qremiyon, 1925; “Kamera rəqs edir”, “Ulduzlar və xətlər” /Norman Mak Laren, 1935,1939; “Güllü qutu” /Lena Lay, 1935; “Tarantella” /Meri Ellen Büt, 1941; “Mavidə kompozisiya”, “Nömrə 1 hərəkətdə kamera” /Oskar Fişinqer, 1935, 1947).
2. dar mənada: 1920-ci ilin əvvəllərində alman kinematoqrafiyasında avanqard istiqamət.

***Absurd komediya*** – absurd yumor üzərində qurulmuş komediya (“Apokalipsis centlmenlərinin liqası” /Stiv Bendelak, 2005).

***Adaptasiya*** – ekranlaşdırmanın nəzəri terminlərindən biri olub, ədəbi əsərin və ya teatrın kinematoqrafın ifadə vasitələrini nəzərə alınmaqla kino və ya teleəsər formasına köçürülməsi.

***Axın*** – kinematoqrafın ifadə vasitələrindən olub, filmin iki kadrının ikiqat ekspozisiya ilə birləşdirilməsini təmin edən montaj keçidi vasitəsi. Bu zaman növbət kadr sanki əvvəlki kadrın içindən işıqlanır. Klassik axın 1-3 saniyə (16-48 kadr) davam edir.

***Ağ fil*** – “Rusiya kinoşünasları və kino tənqidçiləri gildiyası” tərəfindən ildə bir dəfə təqdim edilən kino mükafatı.

***Ailə filmi*** – müxtəlif yaş qruplarını əhatə edən birgə ailə nümayişi üçün nəzərdə tutulmuş janr. Böyüklərin də baxa biləcəyi konfliktsiz, şiddət və erotik səhnələrsiz uşaq filmi.

***Aktyor/aktrisa*** – bədii oyun və ya sənədli film çəkilişi zamanı mütəmadi iştirak edən oyunçu. Ssenaridə təsvir edilmiş personajın obrazının canlandırılmasını həyata keçirən peşəkar. Ancaq heç də bütün filmlərdə peşəkar aktyor seçimi rejissorun estetik proqramına

daxil olmur. Rober Bresson, Pyer Paolo Pazolini, Yos Stellinq öz filmlərində çox vaxt həvəskar aktyorlardan istifadə ediblər.

***Aktyor agenti*** – teatr və kinoda inzibati peşə olub, aktyor karyerasında işgüzar məsələləri həll edir: aktyoru kastinqə yönləndirir, müqavilələrin bağlanmasını təşkil edir.

***Aqressiv montaj*** – öz aralarında uyuşmayan kinematoqrafik planların tez–tez dəyişməsi ilə müşahidə olunan və qavramada psixoloji diskomfort yaradan montaj üsulu.

***Alan Smiti*** – prodüser kinematoqrafının hadisəsi. Hollivudda titrlərdə uydurma rejissor (və ya filmin istehsalında iştirak edən istənilən şəxs) adı. Əgər tirlərdə Alan Smiti adı gedirsə, deməli, bu mütəxəssis prodüserlə ideya-bədii razılıq əsasında öz müəllifliyindən imtina edib. İlk dəfə uydurma "Alan Smiti" adı "Atıcının ölümü" (1969) vesternində istifadə edilib. Bu zaman Robert Totten və Donald Siqel rejissor məsuliyyətindən imtina edərək adlarını titrdə "Alan Smiti" ilə əvəzləyiblər.

***Alleqoriya*** – mücərrəd ideya və anlamların konkret bədii obrazlarla ifadə edilməsi. Alleqorik üslub senzura təzyiqinin olduğu dövrlərdə kinematoqraf üçün xarakterikdir. Alleqorik kino dili öz zirvəsini macar kinosunun ustadı Miloş Yanonun trilogiyasında ("Ümidsiz", 1965; "Qırmızı və ağ", 1967; "Sükut və haray", 1968) əldə edib. Bu filmlərdə kadrların düzülüş qaydası və strukturu zorakılıq və hakimiyyətə alleqoriyadır.

***Ali rejissor və ssenarist kursları*** – rus ali kino məktəbi sistemində müəssisə. 1956–cı ildə Moskvada "Mosfilm"in tərkibində İ.A.Pırevin təşəbbüsü ilə ali rejissor kursları kimi yaradılıb. 1963-cü ildə ikiillik ali ssenari kursları ilə hal-hazırki ad altında birləşdirilib.

***Allüziya*** – kinositatın bir növü; epizod xaricində olub ona əlavə məna qazandıran hər hansı kontekstə işarə və ya istinadı özündə birləşdirən bədii üsul.

1. Adətən allüziya kontekst xarakteri daşıyır və keçmiş kinofilmlərin, ədəbi əsərlərin, bəzən müasir social-siyasi reallığın süjet elementləri və obrazlar sisteminə tipoloji müqayisə məqsədilə istinad edilir. Filmdə kontekst allüziyanın anlaşılması tamaşaçı auditoriyasının müəyyən biliklərə malik olmasını tələb edir. Kinofilmlərdə tez-tez Bibliya süjetlərinə, xristian simvolikası və numerologiyasına əsaslanan Bibliya allüziyalarına təsadüf olunur.
2. Nadir rast gəlinən filmdaxili allüziya zamanı vizual obrazlılığın hər hansı elementi, süjet döngəsi, replika filmin ümumi problematikasına işarə edir.
3. Senzura məhdudlaşdırılması şərtləri daxilində alleqorik allüziya işarə və simvolların mənasını qazanır və film öz daxilində müşahidə edilməyən müəyyən şərti mənalarla yüklənir.

***Andəqraund*** – müəllif kinosunun növlərindən biri: kino sənətində kontr-kulturanın qeyri-leqal və ya cəmiyyət tərəfindən müavimətə rast gələn özünürealizə forması. Məfhum ABŞ-da makkartizm dövründə – fərqli fikirlərin dövlət tərəfindən təqibə məruz qaldığı bir dövrdə (1950-ci illərin əvvəli) meydana çıxıb və 1960-cı illərdən başlayaraq kinematoqrafiyada geniş vüsət almağa başlayıb. Andəqraund filmlər qeyri-rəsmi, azad olduğu və senzuraya qarşı getdiyi üçün adətən kütləvi, meynstrim filmlərinə qarşı qoyulur. Ancaq andəqraund və meynstrimin sərhədləri get-gedə silinir, ilk dövrlərdə andəqraund sayılan nümunələr müəyyən müddətdən sonra məşhurlaşır və kütləviləşir.
Andəqraund filmlər üçün hakim ideologiyaya qarşı durmaq, üslubi və linqvistik məhdudiyyətlərə əhəmiyyət verməmək, cəmiyyət tərəfindən qəbul olunmuş dəyərlərdən, qaydalardan, sosial və bədii ənənələrdən imtina, üsyankarlıq xasdır. Andəqraund filmlər cəmiyyətdəki mövcud siyasi əxlaq, etik oriyentasiya, davranış stereotiplərini inkar edir, gündəlik həyata yeni davranış sxemləri gətirir. Amerika və Avropa kinematoqrafında tipik andəqraund mövzuları seksual inqilab, narkotik, dinsizlik, marginal qrupların problemləri sayılır.

***Animasiya*** – 1. kinosənətin bir növü: hərəkətsiz obyektlərdə yüksək spektrli texnologiya və texniki üsullar vasitəsilə hərəkət illüziyasının yaradılması, həmçinin, hərəkət fazalarının eskizlənməsi və ardıcıl fiksasiyası yolu ilə təsvirin redaktəsi.
2. texniki montaj qüsuru olub hərəkətli kadrların səhv ardıcıllıqla montajı mənasında işlənir. Nəticədə çəkilən obyektin qeyri-normal hərəkət effekti təəssüratı yaradır.

***Anime*** – yapon animasiyası. Yapon milli təsviri ənənələrinə, yapon qravüralarının bədii simvolikası və XX əsrin urbanistik üslubuna söykənir.

***Antiutopiya*** – kinofuturistikanın növü olub, ədəbi antiutopiya ənənələrini – cəmiyyətin dehumanizasiyası və silklərə bölünməsinin, sosial manipulyasiya və texnogen düşüncə tərzinin hakimliyinin tənqidini inkişaf etdirir ("Metropolis" /Fris Lanq, 1927; "Faranheytlə 451 dərəcə" /Fransua Trüffo, 1966; "Braziliya" /Terri Gilyam,1985; "Qattaka" /Ernest Borqnayn, 1997; "Ekvilibrium" /Kurt Uimmer, 2002).

***Antoqonist*** – filmin baş "müsbət" qəhrəmana qarşı duran baş "mənfi" qəhrəmanı.

***Antropoloji kino*** – hər hansı azsaylı xalqların və ya marginal qrupların məişəti və gündəlik həyatından bəhs edən sənədli film janrlarından biri. Antropoloji kinoda:
1. Quruluş kinosunun metodları tətbiq edilmir; 2. Xalq mədəniyyətinin plastika, dinamika, hərəkətlə bağlı elementlərinə vurğu vurulur.

***Art*** – "təmiz incəsənətə məxsus", "estet" mənasını verən sözönü.

***Art-direktor*** – kinoda ssenari eskizləri hazırlayan rəssam dizayner.

***Art-kino*** – geniş anlamlı termin olub, adətən yeni çəkiliş texnikası və ya montajına əsaslanan elə eksperimental kino nümunələrini əhatə edir ki, estetik və nəzəri cəhətdən hazırlıqsız tamaşaçı qavra-

yışını çətinləşdirir (Abel Hansın "Həkim Tübanın dəliliyi" filmi) və ya öz qeyri-adiliyi ilə tamaşaçını cəlb edir (Robert Rodriqez və Frenk Millerin "Günah şəhəri"filmi, 2005).
Art-kino çox vaxt müəllif kinosu, andeqraund və arthausla eyniləşdirilir. Müəyyən mənada art-kinonun sərhədlərinin ekzotik kinematoqrafa qədər genişləndirmək olar. Çünki milli kino məktəbi üçün ənənəvi çəkiliş üsulları və təhkiyə quruluşu metodları xarici tamaşaçılar tərəfindən çox vaxt novatorluq kimi qiymətləndirilir. Məsələn, Avropada art-kino Cənubi-Şərqi Asiya ölkələrinin kinematoqrafı kimi qəbul edilir.

***Art-meynstrim*** – kinomarketinq termini: müəllif və ya art-kinonun sərfəli kino məhsulu kimi təqdimi.

***Arthaus*** – marketinq termini olub, müəllif kinosu, art-kino, retro və elitar kinonu birləşdirir, tamaşaçı auditoriyasının kütləvi olmaması ilə fərqlənir. Bu filmlər mürəkkəb obrazlılığı, qeyri-təhkiyəvi kino dilini mənimsəmiş xüsusi hazırlıqlı tamaşaçılar üçün nəzərdə tutulur. Termin ABŞ-da 1940-cı ilin ikinci yarısında meydana gəlib və bu tipli kinoların göstərilməsi üçün ixtisaslaşmış kinoteatrların adından götürülmüşdür.

***Asinxron*** – filmdə təsvirlə səsin üst-üstə düşməməsini bildirən texniki qüsur.

***Assosiativ montaj*** – paralel montajın növü: birbaşa məntiqi əlaqəsi olmayan, yalnız daxili subyektiv əlaqələr vasitəsilə uyuşan kadrların müqayisəli montajı ("Səkkiz yarım"/ Federiko Fellini, 1963).

***Astagəl film*** – kino estetikası kateqoriyası olub, ilk dəfə 2003-cü ildə Mişel Siment tərəfindən müəllif kinosunun hadisəsizlik və təhkiyəsizlik prinispi üzərində qurulmuş üslubu mənasında işlədilmişdir. Astagəl filmdə təhkiyə forması şüurlu hərəkətsizliklə, çəkiliş manerası isə çox uzun planlara meyillilik ilə xarakterizə edilir. Müasir astagəl filmin ustadları Filip Qarrel, Şantal Akkerman,

Teo Anqelopulos, Abbas Kiarostami, Bela Tarr, Aleksandr Sokurov, Xou Syaosyan, Tsay Minlan, Şarunas Bartas, Pedro Koşta, Lisandro Alonso, Karlos Reyqadas, Qas Van Sant, Albert Serra sayılır.

*ASL* (ing. Avarage Shot Length) – kadrın orta uzunluğu; konkret filmdə montaj keçidlərinin tətbiqinin intensivliyini ifadə etmək üçün lazımi montaj kadrının orta ölçüsü. 1910-1920-ci illərdə lal kinoda 6-7 saniyə, 1930-1940-cı illərdə səsli kinoda 9-10 saniyə təşkil edirdi.

***Ata kinosu (Cinema du papa)*** – Fransua Truffo və Jan Lük Qodar tərəfindən Fransanın, sonra isə Almaniyanın gənc kinematoqraflarına verilmiş ad: 1950-1960-cı illər Avropa kinematoqrafik meynstrim poetikasının obrazlı xarakteristikası. Fransız yeni dalğası və yeni alman kinosu "ata kinosu" kinematoqrafına açıq şəkildə qarşı dururdu. Bu ifadə kino sahəsində nəsillərin dəyişdiyi dövrdə yaranan estetik qarşıdurmanın göstəricisi kimi təyinedici xarakter qazandı.

***Audiovizual sənəd*** – QOST 7.69 95 "Audiovizual sənədlər. Əsas terminlər və təyinlər" təsviri və səsli informasiyadan ibarət sənəd olub, göstərilməsi, səsləndirilməsi müvafiq təchizat tələb edir. Bəzən mətn informasiyasından da ibarət ola bilər. QOST 7.69 95 – Rusiya Federasiyası, Belarusiya, Qazaxıstan, Azərbaycan, Tacikistan və Türkmənistanın dövlət terminoloji standartı olub, Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma Dövlətlərarası Şurası tərəfindən qəbul edilmişdir. Kino sahəsinə dair terminlər QOST-un "Ümumi anlayışlar" və "Kinosənədlər" bölməsinə uyğun olaraq tənzimlənir.

***Audiovizuallaşdırma*** – 1. ədəbi obrazın və ya konsepsiyanın, fəlsəfi ideyanın audiovizual vasitələrlə (xüsusilə, kino dili vasitəsilə) ifadə edilməsi.
2. xüsusi texniki vasitələrin tətbiqi və inkişaf etdirilməsini tələb edən proqramlaşdırılmış audiovizual effektlər.

***Avanqard*** – 1920-ci illər Avropa kinosunda  istiqamət. Şok effekt yaratması və tabu mövzuların azad işlənməsi ilə insanı sarsıdan qeyri-adi forma, məzmun-forma toqquşması. Müəllif kinosundan fərqli olaraq avanqard kino kino sənayesindən kənarda qalır, prokata girmir. Lal filmdə avanqard üsullar Fransa, Almaniya, SSSR, Yaponiyada 1920-ci illərdə, Amerika kinematoqrafiyasında isə 1940-1960-cı illərdə tətbiq edilib. Erkən dövr fransız avanqardının (1924-cü ilə qədər) ən güclü filmi Abel Hansın "Həkim Tübanın dəliliyi" (1915) adlı qısametrajlı eksperimental lal filmi hesab edilir. Sonrakı fransız avanqardı əsas 3 istiqaməti ehtiva edib: impressionizm, sürrealizm və "təmiz kino". 1966-cı ildən avanqardizm Jan Lük Qodarın yaradıcılığında özünü göstərmişdir.

Sovet avanqardizmi Sergey Eyzenşteyn, Vsevolod Pudovkin, Lev Kuleşov, Dziqa Vertov, Leonid Kozinsev, Qriqoriy Trauberq, Aleksandr Dovjenko,  Boris Barnet, Aleksandr Medvedkin kimi nümayəndələrlə təmsil edilir.

Avanqard üsullardan yapon rejissorları da istifadə ediblər: Teynoske Kinuqasa ("Dəlilik səhifəsi", 1926; "Kəsişmə, 1928), Xirosi Tesiqaxara ("Qumluqdakı qadın", 1964). 1940–cı illərdən başlayaraq Amerika kinematoqrafında Mayya Deren ("Günorta şəbəkəsi", 1943), Kennet Enqer ("Feyerverklər", 1947), Sten Brekxec ("Pəncərə, su, uşaq tərpənir, 1959), Endi Uorhol ("Yuxu", 1963; 6 saatlıq bir kəsilməz kadrda yatmış şəxs lentə alınıb; "Empayr", 1964; 8 saatlıq film, 1 kadrda buludlar arasında göydələnin üst hissəsi lentə alınıb) avanqard üsullar tətbiq edib. Bu kinolentlərdə təsvir, hərəkətsiz müşahidəçi tərəfindən alınan vizual təəssürata bərabərdir. Eyni zamanda kinematoqrafın "reallığı sənədləşdirmək" funksiyası tənqidə məruz qalmış və individiumun məzmunsuz təəssüratlarının kifayət etməsi ön plana çəkilmişdir.

***Avantür komediya*** – kinoda komediyanın aparıcı janrlarından biri. Tez-tez kriminal komediyanın üsullarından istifadə edən və qəhrəmanların təhlükəli, qanunazidd hərəkətlərinə əsaslanan janr ("Bu dəlisov, dəlisov, dəlisov, dəlisov dünya" /Stenli Kramer, 1963; "Milyonu necə oğurlamalı" /Uilyam Uayler, 1966).

***Avtobus*** – ABŞ kinematoqrafının termini, psevdosaspens üsulu olub, dəhşətin zərərsiz əlamətlərlə dəf edilməsi anlamına gəlir. İlk dəfə dəhşət atmosferinin uzaqlaşdırılması məqsədilə məhdud büdcəli "Pişik insanlar" trillerində (Jak Turnör, 1942) istifadə olunub: gecə küçədə tənha qızı izləyən panteranın xırıltısı eşidilir, ancaq səs yaxından keçən avtobus motorunun səsinə çevrilir. Avtobusun kinoda tez-tez təkrarlanan növü: əlində iti bıçaq tutan adam obrazı çörəyi kəsir və bıçağı yerinə qoyur.

***Avtoremeyk*** – remeykin xüsusi növü olub, original versiyanı çəkən rejissor tərəfindən filmin yenidən lentə alınmasıdır. Holland rejissoru Qeorq Slöyzer 1988-ci ildə çəkdiyi "Yoxolma" trillerini 1993-cü ildə ABŞ-da çəkir. Avstriya rejissoru Mixael Haneke 1997-ci ildə çəkdiyi "Əyləncəli oyunlar" filmini 2008-ci ildə kadrbakadr ABŞ prokatı üçün çəkir.

***Avropa Kino Akademiyası*** – kino sənayesində çalışan 1850 avropalı mütəxəssisin birləşdiyi beynəlxalq təşkilat. 1858-ci ildə Almaniya, Böyük Britaniya, Fransa, İspaniya, İtaliya, Danimarka kino sənayesinin bazası üzərində yaradılmışdır. Hal-hazırda prezidenti Vim Vendersdir. İki ildən bir Feliks mükafatı təqdim olunur.

## B

***Baxış bucağı*** – ekranda əks olunan və kənarlarındakı işığın istiqaməti insan gözünə əks olunan təsviri minimal rəng və ölçü təhrifi ilə qavramağa imkan verən özünəməxsus rəngli konus.

***Bamper*** – filmin giriş titrlərindən əvvəl göstərilən, kinostudiya və ya kinokompaniyanın loqotipini əks etdirən fon.

***Baş rol*** – personajlar arasında daha əhəmiyyətli və məna kəsb edən rol tipi.

***Bayker filmi*** – yol filmlərinin (road movie) 1950-1970-ci illərdə meydana çıxmış altjanrı olub, baykerlərin (cəmiyyətdən təcrid olunmuş, "səfil" motosiklçilərin) həyat tərzi və düşüncələrini xırda burjua nümayəndələrinin həyat tərzi və düşüncələrinə qarşı aqressiv şəkildə qoyur.

***Bayopik (biopic)*** – bioqrafik film; real tarixi şəxsiyyətlərin həyatından dramatik anların və əfsanələrin ekranlaşdırılması.

***Bensi*** – lal kino dövründə Yaponiyada kinoseansı şərhləri ilə müşayiət edən muzdlu aktyor- təhkiyəçi

***Beynəlxalq Berlin Kino Festivalı*** – Almaniyada hər il keçirilən beynəlxalq kino müsabiqəsi festivalı. Qarşısına qoyduğu əsas məqsəd ayrı-ayrı milli kino məktəblərində ən yeni tendensiyaları əks etdirməkdən ibarətdir. Əsası 1951-ci ildə qoyulub. Festivalın mükafatı müsabiqənin keçirildiyi Berlin şəhərinin heraldik simvolu olan ayının şərəfinə adlandırılıb (müxtəlif nominasiyalarda "Qızıl ayı", "Gümüş ayı", bəzi illərdə "Bürünc ayı" təqdim edilir).

***Beynəlxalq Kann Kino Festivalı –*** müasir kinematoqrafın əsas məqamlarını açan nüfuzlu beynəlxalq kino festivalı. Kann Kino Festivalının əsas məqsədi kino sahəsində dünya, xüsusilə Avropa kinosunun əldə etdiyi nailiyyətlərin nümayişininə nail olmaqdan ibarətdir. Hər il may ayında Fransanın Kann şəhərində keçirilir. Əsas mükafatı "Qızıl palma budağı"dır.

***Beynəlxalq Venesiya Kino Festivalı*** – əsası 1932-ci ildə Benito Mussolini tərəfindən qoyulmuş dünyada ən qədim kino müsabiqəsi. İldə bir dəfə, adətən ilin II yarısında (daha çox avqust-sentyabr aylarında) keçirilir. Baş mükafat "Qızıl şir"dir.

***Bədii direktor*** – kinoda peşə; dizaynın, dekorasiyanın, interyerin, kostyum və qrimin texniki layihələndirilməsi və hazırlanması işləri üzrə qrup rəhbəri.

***Bədii oyun filmi*** – aktyorların iştirakı ilə səhnələşdirilən təhkiyədən ibarət bədii oyun kinosu nümunəsi.

***Bədii oyun kinosu*** – bədii cəhətdən ümumiləşdirilmiş uydurma və ya real hadisə, uydurma və ya şərti personaj barədə təhkiyəni səhnələşdirən kinematoqraf növü.

***Bədii montaj*** – montajın səciyyəvi növlərindən biri. Filmin daxili quruluşunun polifonik elementlərini müəyyənləşdirən və üzə çıxaran montaj. Kinematoqrafik məntiq özünü məhz bədii montajda göstərir. Kadrların məna və sırf kinematoqrafik məntiq yaratmaq cəhətdən müəyyən ardıcıllıqla düzümü olub filmin dinamikasını müəyyən edən əsas amilərədən biri sayılır.

***Bəstəkar*** – film və cizgi filmlərinə xüsusi olaraq musiqi yazan şəxs. Filmin musiqisinin və ya filmdə istifadə olumuş digər bəstəkar musiqilərinin aranjimanının müəllifi. XX əsr kino bəstəkarları arasında daha böyük çəkiyə sahib olanlardan Ennio Morrikone, Nino Rota, Maykl Lourens Naymanın adını çəkmək olar.

***Birbaşa kino*** (***Cinema direct)*** **–** sənədli film çəkilişinin eksperimental forması sayılan janr istiqaməti. Daha öncə “cinema verite” çərçivəsində tətbiq olunsa da, əsasən, 1960-cı illərin sonu 1970-ci illərin əvvəllərində ayrıca istiqamət kimi yayılmışdır. Quruluşsuz improvizasiya kinosu olub müəllif-operatorun hadisələrə qarışmadan lentə köçürməsidir. Lindsey Andersonun, Toni Riçardsonun ilk sənədli lentləri, Robert Drü, Riçard Likok, Yan Truel kimi sənədli film rejissorlarının işləri birbaşa kinoya misaldır.

***Birinci plan*** **–** kinematoqrafik planın bir növü; birinci planda insan qurşağına (belinə) qədər görünür. İnsan fiqurunun kadrın dərinliyində yerləşməsinə görə birinci planı bəzən ön planla eyniləşdirirlər.

***Birsəsli tərcümə*** **–** səsləndirmə termini: filmin bir aktyor tərəfindən səsləndirilməsi.

***Bizarre*** – alternativ janrlı kinoda işlənən bədii prinsip. Personajın davranışında və vizual obrazının parlaqlığında ekstravaqant təbiiliyin sərhədlərini qəsdən aşma. Hadisələrin səbəb-nəticə əlaqələrini saxlaması zəminində xarici dəlilik obrazı ilə seçilir. Bizarre Cənubi-Şərqi Asiya ölkələrinin kinematoqrafında geniş yayılıb (Parla, parla, ulduzcuq" /Vok Min Çun, 1983). Bizar xüsusi effektləri kinokomiks estetikasının parlaq xüsusiyyətlərindəndir ("Maska" /Çak Rassel, 1994).

***B-movie*** – müasir Hollivud təsnifatında 10 milyon dollara qədər büdcəsi olan film. Kino sənəti nöqteyi-nəzərindən baxımlı olmayan, ancaq cəlbedici janrına görə ümumi kütlə tərəfindən qəbul edilən film.

***Blenda*** – kinokameranın obyektivinə bərkidilən və onun konstruktiv hissəsi sayılan artıq (izafi) işıqlandırmanı korreksiya edən cihaz.

***Bləksploteyşn*** – ABŞ kinosunda 1970-ci illərdə meydana gələn və afroamerikan cəmiyyətinin problemləri əsasında çəkilən kino janrı.

***Blokbaster*** – müasir Hollivud təsnifatında büdcəsi 200 milyondan çox olan film (1990-cı illərdə bu məbləğ 100 milyonu əhatə edirdi). Teatral mənşəyi olan marketinq terminidir. Əvvəlcədən tamaşaçılara hesablanmış, yüksək göstəri dərəcəsinə və texnologiyaya sahib olan bu filmlərin çəkilişlərinə külli-miqdarda maddi vəsait qoyulur və prokatda həmin kapitalın bir neçə qatının əldə olunması hesablanır. Kino məhsulun xüsusi növü olan blokbaster filmləri ABŞ kino sənayesində 1975-ci ildən – Stiven Spilberqin "Çənələr" filminin görünməmiş uğurundan sonra kulta çevrilmişdir.

***Boevik*** – kəskin süjetli film janrı. Döyüş sənəti, silahlı toqquşma elementlərinin geniş tətbiqi ilə meydana gələn film. Boevikin klassik sxemi sülh vaxtında şəxsi döyüş fəaliyyətinin qabardılmasından ibarətdir. Çak Norris, Arnold Şvartsneger, Silvester

Stallone, Jan Klod Van Damm, Ceki Çanın iştirakı ilə çəkilmiş filmlər ənənəvi boevik filmlərə misal ola bilər.

***Bollivud*** – daxili bazarın tələbatında cavab verən, öz kinoulduz sisteminə malik olan və Hollivud ştamplarını yerli reallığa uyğunlaşdıran Hindistan kinostudiya sistemi.

***Böyüdülmüş plan*** – kinematoqrafik planın bir növü: orta plan və iri plan arasındakı aralıq planı. Böyüdülmüş planda insan sinədən yuxarı görünür. Bu qəhrəmanların ehtiraslı öpüş səhnəsini göstərən adi plandır.

***Böyütmə*** – kinematoqrafik planın böyüdülmüş hissəyə tərəf rəvan əvəzlənməsi üçün irəliyə manevrlə çəkiliş üsulu. Kinokameranın çəkiliş obyektinə perpendikulyar irəli hərəkəti. Bu zaman kinokameradan müxtəlif uzaq məsafələrdə olan predmetlərin miqyası müxtəlif cür dəyişir. Böyütmə, həmçinin, fokus məsafəsinin böyüdülməsi ilə də əldə edilə bilir, ancaq kinokameradan müxtəlif məsafələrdə uzaqlaşdırlmış predmetlərin miqyası eyni cür dəyişir.

***Britaniya Kino və Telesənət Akademiyası (BAFTA)*** – əsası 1947–ci ildə "Britaniya Kino Akademiyası" kimi qoyulub. Müasir adı 1976–cı ildən verilmişdir. BAFTA film mükafatı hər il təqdim olunur.

***Buffonada*** – mübaliğəli-komik maneralı aktyor oyunu ilə müşayiət olunan komediya növü. Personajların baş verən hadisəyə şişirdilmiş dərəcədə coşğun və gülünc reaksiyasına əsaslanır ("Salam, mən sizin xalanızam" /Viktor Titov, 1975; "Siçan ovu" /Qora Verbinski,1997).

***Butaforiya*** – teatr termini olub, sonradan kinematoqrafa daxil olmuşdur. Həqiqi predmetlərin xarici görünüşünü təqlid edən rekvizit növüdür (qiymətli daşlar, pul dəstəsi, kadrda oğurlanan incəsənət əsəri, aktyor tərəfindən asanlıqla qaldırılan ştanq, asan əyilən dəmir barmaqlıqlar və s.).

***Büdcə*** **–** filmin istehsalı və reklamına ayrılmış pul, icraçı prodüsserin əsas fəaliyyət istiqaməti.

***Bütövekranlı kino*** **–** kinotəsvirin 4:3 ( 1,33:1) formatdan ibarət olduğu film.

## C

***Calaq*** – montaj keçidini hazırlayaraq səhnənin çəkilişini bitirmə üsulu. Ani panoramlaşdırma ilə əldə edilir. Bu panoramlaşdırma zamanı ekspozisiya o qədər qısa olur ki, çəkilən obyekt bulanıq, yayılmış görünür. Bu montaj keçidinin analoqu olaraq qaranlıqlaşdırmadan da istifadə olunur.

***Cinema verite*** **–** improvizasiya edilmiş sənədli filmlərdə çəkiliş üsulu və janrı. Fransız sənədli kino ustası Jan Ruş tərəfindən işlənmiş, 1950-ci illərin sonu 1960-cı illərin əvvəllərində məşhur olmuş müşahidə və təxribat üsullarından istifadə etməklə əl kamerasına çəkiliş forması.

***Cizgi filmi*** – multiplikasiya nümunəsi olub animasiya filminin əsas növlərindəndir. Cansız personaj və obyektlərin şərti hərəkət ardıcıllığının kadrbakadr çəkilmiş təsviri. İlk cizgi filmləri Ceyms Stüart Blektonun "Gülməli sifətlərin yumoristik mərhələləri" (1906), Emil Kolyanın "Fantasmaqoriya və ya kuklanın kabusu" (1908) sayılır.

## Ç

***Çarx*** – mikro-filmin bir forması; müəyyən bir tezisin vizual ifadəsi olub, məntiqi cəhətdən bitkin kino, video və ya teleməhsul.

*Çarpaz montaj* – montajın bir növü; eyni vaxtda müxtəlif yerlərdə baş verən hadisələrin kadrları xronometraj olaraq ən qısa fraqmentlərə bölünür və elə montaj olunur ki, tamaşaçı hər iki hadisənin bir-biriylə olan əlaqəsini qura bilsin. Çarpaz montaj metaforun yaradılması və saspesin əldə olunması vasitələrindən biridir.

*Çex yeni dalğası* – çex (çex-slovak) bədii oyun və sənədli kinematoqrafında 1961-1970-ci illərdə meydana gəlmiş cərəyan. Lirizm və qrotesklə dolu çex yeni dalğası sosial strukturlar tərəfindən məhdudlaşdırılmayan individual şüur və özünüifadəni öz milli kinematoqrafına gətirdi. Çex yeni dalğasına aşağıdakı rejissorlar aiddir: Vera Xitilova ("Tavanda bit dolu torba" 1961-1962; "Başqa bir şey haqqında" 1963), Voytex Yasnı ("İndicə pişik gələcək" 1963), Miloş Forman ("Qara Pyotr" 1963; "Müsabiqə" 1963; "Sarışının məhəbbət sərgüzəştləri" 1965; "Yanğınsöndürənlərin balı" 1967), Evald Şorm ("Tursit" 1961; "Azmış oğulun qayıtması" 1966), Yan Nemes ("Gecə almazları" 1964; "Sevgi əzabkeşləri" 1966), İrji Mensel ("Xüsusi təyinatlı qatar" 1966; "Şıltaq yay" 1967), Yaromil Yireş ("Zarafat" 1968; "Valeriya və bir həftəlik möcüzə") və s.
Çex yeni dalğasının manifesti B.Qrabalın əsəri əsasında İrji Mensel, Vera Xitilova, Yan Nemes, Evald Şorm və Yaromil Yireşin 1965-ci ildə birgə çəkdiyi "Dibdəki mirvarilər" adlı kinotoplu sayılır.

*Çəhrayı neorealizm* – 1950-ci illərdə Avropa, o cümlədən italyan kinematoqrafında italyan neorealizminin üslubi tapıntılarını komediya və məhəbbət melodramlarında istifadə edən epiqonçu istiqamət.

*Çəkiliş* – kinokamera vasitəsilə sabit və ya hərəkətli obyektlərin ani fototəsvirlərinin müəyyən zaman aralığı ilə qeydə alınma prosesi. Çəkilişin növlərini məkana (təbiət, eksteryer, interyer, pavilyon), zamana (səhər, günorta, alaqaranlıq, gecə), kinokameranın hə-

rəkətlilik dərəcəsinə (sabit kamera, ştativdən panorama edən kamera, operator arabasından panoram edən kamera, əl kamerası) görə qruplaşdırırlar.

***Çəkiliş bucağı*** – kinematoqrafın ifadə vasitələrindən biri: kinokameranın çəkilən obyektə nisbətdə yerləşdiyi bucaq. Çəkiliş nöqtəsiylə birgə perspektivin yaradılma üsullarından biri sayılır.

***Çəkiliş kadrı*** – çəkiliş obyektini əks etdirən kadr. Kinokameranın işə salınmasından "stop" komandasına qədər olan fasiləsiz çəkiliş zamanı əldə edilən və kinolentdə ardıcıl gedən kadrlar toplusu.

***Çəkiliş qrupu*** – konkret bir filmin çəkiliş müddətində birgə işləyən inzibati, yaradıcı və texniki mütəxəssislər.

***Çəkiliş meydançası*** – çəkilişlərin aparıldığı və bu çəkilişlərdə iştirak edən texniki heyətin, dekorasiya və kinotəchizatın yerləşdiyi sahə.

***Çəkiliş nöqtəsi*** – kinematoqrafın ifadə vasitələrindən biri olub kameranın çəkilən obyektə nisbətdə dayandığı yer. Çəkiliş bucağı ilə bir yerdə perspektivin yaradılma üsuludur.

***Çoxkameralı çəkiliş*** – səhnənin eyni vaxtda bir neçə kamera ilə müxtəlif rakurs və planlarda çəkilişi üsulu. Bir dublda çəkilişi əsasdır. Oyun kinosunda kütləvi səhnəyə və bahalı xüsusi effektlərə malik quruluşca mürəkkəb səhnənin, sənədli kinoda isə bir dəfə baş verən hadisənin müxtəlif rakurslu çəkilişində istifadə edilir.

***Çoxsəsli tərcümə*** – səsləndirmə termini: filmin tərcüməsinin iki və daha çox aktyor tərəfindən səsləndirilməsi.

# D

***DVD*** (Digital Video Disc) – rəqəmsal videodisk; audiovizual və ya kompüter informasiyasını bir və ya ikitərəfli formada saxlayan optik informasiya daşıyıcısı.

***DVD-rip*** – lisenziyalı DVD-nin pirat DVD-lər şəklində yayılmış və ya internetdə yerləşdirilmiş qeyri-qanuni surəti.

***Daxili monoloq*** **–** kinodramaturgiyada ədəbi priyom; qəhrəmanın digər personajlar tərəfindən eşidilməyən, öz fikirlərini izhar edən kadrarxası səsi. Daxili monoloq qəhrəmanın birbaşa tamaşaçıya müraciətilə də verilə bilər.

***Danimarka erotik melodramı*** – lal kino dövründə Danimarkada kino janrı olub, ən yaxşı milli kino məktəbinin kommersiya cəhətdən uğurlu mövzu istiqaməti sayılıb ("Uçurum" /Peter Urban Qad, 1910; "Balerina" /Auqust Blom, 1911).

***Dedektiv*** **–** ədəbi mənşəli kinematoqrafik janr; kəskin süjetli film. Filmin hadisələri baş vermiş cinayətin günahkarının aydınlaşmasına qədər təhqiqatı ətrafında cərəyan edir. Dedektivin forması çox elastik olduğundan fabula və süjet arasında bərabərliyə gətirib çıxarır. Bu səbəbdən dedektivin çoxlu janr müxtəlifliyi meydana gəlib: sosial dedektiv, psixoloji dedektiv, sosial-psixoloji dedektiv, qara dedektiv, istern-dedektiv, dedektiv triller, erotik dedektiv, mistik dedektiv-triller, sürrealist dedektiv, tarixi dedektiv, parodiya dedektivi, uşaq dedektivi.

***Dedramatikləşdirmə*** – Mikelancelo Antoninonun "Yadlaşma trilogiyası"nda ("Macəra" 1960; "Gecə" 1961; "Günəş tutulması" 1962) daha parlaq əksini tapan yaradıcılıq prinsipi. Dedramatikləş-dirilmiş filmdə xarici fəaliyyət öz təhkiyə anlamını itirir və filmin daxili dramaturgiyası personajların davranışlarında yox, vizual

obrazlar, formalar, faktura, rəng və işığın toqquşmasında üzə çıxır. "İşarənin tarix yaratdığı ikonik sistem"ə (Oleq Zinsov) misal olaraq Cim Carmuşun və Leo Karaksın ilk filmlərini də göstərmək olar.

***Dekorasiya*** – kadrdaxili hərəkət üçün xüsusi olaraq qurulmuş və təmin edilmiş lazımi şərti məkan. Dekorasiyanın tərtibi nəzəriyyəsi teatr sənətinin nüvəsində formalaşmışdır: fəaliyyətin təşkil olunmuş maddi mühiti (məkanı), teatr quruluşunun bədii konsepsiyasının ifadə vasitələrindən olub müstəqil və ya digər komponentlərlə bitmiş bədii obraz yaradılmasında, səhnə dinamikasının müəyyənləşdirilməsində mühüm rol oynayır. Minimal dekorasiya fondan, maksimal dekorasiya fasad maketlərindən, bütöv binalardan və real ölçülü təbiət obyektlərindən ibarətdir. Dekorasiyanın hazırlanması dizayner sənətinin sahələrindəndir.

***Dekorasiya texnoloqu*** – kinoda peşə: dekorasiyanın texniki işləri ilə məşğul olan mütəxəssis.

***Detal*** – kinematoqrafik planın növü. Kiçik predmetin (o cümlədən insan sifətinin hissələrinin) maksimal iri planda kinokadrın ön planında təsviri.

***Dialoq*** – film dramaturgiyasının tərkib hissəsi: film personajları arasında replika mübadiləsi.

***Diktor*** – televiziyada xəbərləri, həmçinin sənədli filmdə informativ xarakterli kadrarxası mətni oxuyaraq təsviri dolğunlaşdıran və ona şərh verən şəxs.

***Dinamik kompozisiya*** – ekran sənətində kadr kompozisiyasının mürəkkəb forması: xüsusi energetikliyə malik kadrdaxili hərəkətli incə mizankadrın trayektor çəkilişi.

***Dinamik kinotəsvir*** – Sergey Eyzenşteyn tərəfindən kinoya gətirilmiş ("İvan Qrozni" 2–ci h. 1946) kadr kompozisiyasının xüsusi düzülü. Kadrın dərinliyi, rəngi, işıqlandırılmasının ideyanın hərəkətini ötürə bilən nisbəti nəzərdə tutulur.

***Dinamik montaj*** – kəsmə montajın növü: kadrın 4-6 saniyə müddəti ilə montajı.

***Distribütor*** – kinostudiya ilə müqaviləyə əsaslanaraq filmin müəyyən şərtlər daxilində kinoteatrlarda və kino şəbəkəsində təbliğat və təşviqatını aparan paytaxt və ya regional prokat kompaniyası.

***Dodaq artikulyasiyası*** – dublyaj apparatının termini: tərcümə olunan filmdə personajın dodaq hərəkətinin forma və amplitudunun original dildə mövcud olan forma və amplitudaya uyğunlaşdırılma sistemi.

***Doqma*** – başında Lars fon Trier və Tomas Vinterberqin durduğu, kinoda hiperrealizmin prinsiplərini manifestləşdirən Avropa rejissorlar qrupunun adı. Qrupun manifestinin adı "Doqma–95" adlanır. Doqmaçı kinematoqrafçıların mövzusunu şəxsiyyətin özünə dəyər verməsi haqda təsəvvürlərin böhranı və refleksiv antiindividualizm təşkil edir. Estetik metodları – müəllif/tamaşaçı iradəsinin və dünyanı dərkinin personajın iradəsi və dərki ilə toqquşması və harmoniyası, "haqlılıq" və tamlıq, mükəmməllik haqda təsəvvürlərin məhdudluğunu aşmaq; hiperrealist çəkiliş manerası ilə – əl kamerası ilə, qısamüddətli rabitəsizliklə çəkiliş, aktyorların kadr çərçivəsindən çıxması, çəkilişin yalnız naturada süni işıqlandırmasız və işıq filtrlərsiz aparılması ilə "ev videosu" effektinin təqlidinə nail olmaq (Lars Fon Trier "Axmaqlar" (1995), "Doqvil" (2001), Tomas Vinterberq "Şənlik" (1998), Seren Kraq Yakobsen "Mifunenin sonuncu nəğməsi" (1999), Kristian Levrinq "Kral sağdır" (2000)).

***Domaket*** – maket çəkiliş növü: kiçildilmiş maketin obyektlərinin təbii ölçülərini saxlamaqla bir kadrda perspektiv yerləşdirilməsi.

***Dram*** – baş verən hadisə və proseslər ərzində qəhrəmanın şəxsi həyatında gedən daxili deqradasiya və ya inkişafı göstərən kino janrı. Dramın kompozisiyasını dinamikləşdirən onun süjetidir. Qəhrəmanların qarşılıqlı əlaqələrinin səviyyəsindən, konflikt və

obrazların tipindən asılı olaraq dramın müxtəlif altjanrları meydana çıxır: tarixi dram, hərbi dram, retrodram, psixoloji dram, sosial-psixoloji dram, kriminal dram, idman dramı, ekzistensial dram, sürrealist dram.

***Dubl*** – daha keyfiyyətli kadrın saxlanması və ya kadrda arzu-olunan, eksperimental dəyişikliklərin edilməsi məqsədilə, çəkilmiş kadrın yenidən təkrar çəkilməsi.

***Dublyaj*** – filmin tərcümə apparatının nəzəri termini; filmin səslənməsi zamanı aktyor danışığının oxşar səs tərəfindən prokata buraxılan ölkə üçün birbaşa fonoqrama əvəzlənməsi.

***Dublyaj adaptasiyası*** – dublyaj apparatının nəzəri terminlərindən biri: replikalar arasında sinxron fonetik uyğunluğun seçilməsi. Dublyajda asinxronizmdən qaçmaq məqsədilə personajın dodağının artikulyasının tərcümə zamanı uyğunlaşdırılması.

***Dublyor*** – kinoda peşə; çətin tryuklar, rəqs nömrələri, idman hərəkətləri zamanı aktyoru əvəz edən kaskadyor, rəqqas, idmançı. Bəzən çılpaq bədən və mürəkkəb qrim tələb olunarkən müəyyən səhnələrdə aktyor/aktrisanı əvəz edir.

## E

***Ekran*** – 1. kinoteatrda baxış bucağı nəzərə alınmaqla yerləşdirilən xüsusi səth. Proyeksiya üsulundan asılı olaraq ekranın texniki xarakteristikası dəyişə bilər.
2. Tamaşaçını kinotəsvirdən ayıran və tamaşaçı gözü ilə qəbul edilən kinoproyeksiya səthi.

***Ekranlaşdırma*** – ədəbiyyat, teatr, rəsm, musiqi sahəsində tamamlanmış bir nümunənin ekranlaşdırılması.

***Ekran mədəniyyəti*** – XX əsr və müasir mədəniyyəti əvvəlki dövrlərdən fərqləndirən, təxəyyülün vizuallaşdırılmasına və multimediyalılığa etibar və praktik münasibət forması. Kino mədəniyyəti, telemədəniyyət, videomədəniyyət və kompüter mədəniyyəti kimi növləri var.

***Ekran sənətləri*** – özünəməxsus xüsusiyyətlərini saxlamaqla ekranda nümayiş olunan kino sənəti, bədii televiziya, kompüter qrafikası və videoart kimi təsviri sənət sahələri.

***Ekspedisiya filmi*** – sənədli kino termini; uzaq, az tədqiq olunmuş məkanlarda çəkilmiş tammetrajlı elmi kütləvi görüntü filmi.

***Eksplikdor*** – lal kino dövründə kinoseans zamanı filmin gedişatını izah edən şəxs.

***Eksploteyşn*** – 1970-ci illərdə ABŞ və İtalyada yaranmış sırf kommersiya məqsədiylə çəkilən film janrı. Bu filmlər, adətən, tamaşaçıların kompleksləri və instinktlərini alovlandıran seksual azğınlıq, zorakılıq və mistika kimi qalmaqallı mövzulara toxunur.

***Ekspozisiya*** – 1. Kadr çəkilişi prosesinin (çəkiliş prosesinin müddəti) texniki xarakteristikası: kinolentə düşən işıq miqdarı.
2. filmin dramaturgiyasında kompozisiya üsulu olub, tamaşaçını daha əvvəlki hadisələr və ya süjetin tarixi konteksti barədə qısaca məlumatlandırır.

***Ekspressionizm*** – ideyasını ekspressionist təsviri sənətdən götürmüş, Birinci Dünya müharibəsindən sonra Avropa, xüsusilə alman kinematoqrafında yayılmış iri ideya-üslubi istiqamət. İnsan həyatını və onun mənəvi aləmini eybəcərləşdirən ictimai ədalətsizliyə, müharibəyə qarşı anarxist-fərdiyyətçi etirazın ifadəsi kimi meydana gəlmişdir. Kinoekspressionizmin əsas yaradıcılıq tapıntılarından biri işıqlandırmadan personajın psixoloji səciyyəsini göstərmək üçün istifadə edilməsidir. Alman ekspressionistlərinin manifesti Robert Vinenin "Həkim Kaliqarinin kabineti" (1919)

filmi sayılır. Bu filmdə bütün dekorasiyalar təhrif olunmuş perspektiv və ölçülərdə absurd tərzdə hazırlanmışdır.

***Eksteryer*** – çəkilişin nəzəri apparatı termini. İnteryerdən təbiətə keçid məkanı. Adətən, bu məkan kadrın dərinliyindən aslı olaraq işığın mənbəyinin dəyişdiyi yer –yarıaçıq qapı qarşısı olur.

***Ekstrasaxlanılma*** – anomal parlaq fon işıqlandırılmasıyla qəhrəmanın xüsusi emosional halını çatdıran çəkiliş üsulu. Bu zaman ön plandakı qəhrəman parlaq işıqla kardın dərinliyindəki digər planlardan təcrid olunur.

***Ekşn*** – klip kinoestetikasında çəkilən boevik, macəra, dedektiv filmi.

***Elektron montaj*** – rəqəmsal kinoda montaj texnikası.

***Elmi fantastika*** – müasir cəmiyyətin həyatının xüsusi texnologiya və ya sosial modelin tətbiqi nəticəsində transformasiyaya uğramasının mümkün nəticələrini, bədii proqnozlaşdırılmasını təsvir edən fantastikanın altjanrı.

***Elmi-kütləvi film*** – elmi biliklərin məişət anlayışları sistemi səviyyəsində obrazlı şəkildə əks olunduğu elmi-sənədli film janrı.

***Epik film*** – qədim dövr tarixi (o cümlədən İncil) süjetləri əsasında çəkilmiş ibrətamiz film olub, hadisə və xarakterləri mürəkkəb quruluş və çoxsaylı personajlar vasitəsilə verir.

***Epik freska*** – müəyyən bir tarixi dövrün sosial-siyasi, iqtisadi, mədəni özəlliklərini irimiqyaslı quruluşda, çoxsaylı personajlar sistemi ilə əks etdirən dramatik və tarixi film növü ("Millətlərin doğuluşu" /Devid Uork Qriffit, 1915; "Napoleon" /Albel Hans, 1927; "Hərb və sülh" /Sergey Bondarçuk, 1968; "Andrey Rublyov" /Andrey Tarkovski, 1966–1969).

***Epizod*** – filmin montaj keçidi ilə tənzimlənən, təhkiyə cəhətdən tam hissəsi. Formal baxımdan epizod, hərəkətin məkan və zaman

vahidliyi, mizan səhnələrdə yerləşdirilmiş dəyişməz aktyor heyəti tələbinə riayət edən bir neçə səhnədən ibarət olur. Məzmun baxımından epizod, filmin ideyasını inkişaf etdirən labüd dramaturji hərəkətdir.

***Erotik film*** – 1. Freyd ideyalarından bəhrələnən ("Pandoranın qutusu" /Corc Vilhelm Pabst, 1929), seksuallığı insanın təbii başlanğıcı kimi tədqiq edən ("Ekstaz" /Qustav Mahata, 1932; "Hisslər imperiyası" /Naqisa Osima, 1976) bədii film janrı. Seksuallığın cəmiyyətdən təcrid olunma və nonkonformizmin bir təzahürü kimi göstərildiyi erotik səhnəli sosial-psixoloji filmlərlə ("Susqunluq"/ İnqmar Berqman 1963, "Parisdə son tanqo"/ Bernardo Bertoluççi 1973) erotik filmləri qarışdırmaq olmaz.
2. Azbüdcəli konflikstiz, əyləncə xarakterli erotik filmlər ("Emmanuel" /Jüst Jaken, 1974)

***Etnik kino*** – 1. iqtisadi cəhətdən inkişaf etmiş və üçüncü dünya ölkələrinin azsaylı yerli xalqlarının kinematoqrafı ("Cəld qaçıcı" /Zaxarias Kunuk, 2001 – kanadalı eskimos rejissor tərəfində çəkilmiş ilk bədii oyun filmi). Eyni zamanda, ABŞ və Avropanın iri şəhərlərində yaşayan milli mühacir cəmiyyətlərinin kinematoqrafı.
2. müəllif kinosunun mövzusu kimi; eqosentrik Avropa (və ya başqa yüksək texnologiyalı məkan) mədəniyyəti ilə ekzotik və ibtidai mədəniyyətlərin maarifləndirici və ya fəlakətə gətirib çıxaran əlaqələri mövzusunda çəkilmiş film. ("Bəyaz sübh" /Filip Kaufman, 1974; "Yəqin allahlar ağlını itirib" /Ceymi Uys, 1980)

## Ə

***Əks perspektiv*** – kadrda klassik xətti perspektivi pozan təsvir düzümü. Əks perspektivin bədii prinsiplərinə əsaslanan çəkiliş orta əsrlər kitab miniatürlərini, uşaq rəsmlərini, ikona çəkilişini xatırladır. Əks perspektivlə çəkiliş zamanı miqyasın təhrifi, obyektlər

arasında proporsiyaların həqiqətə uyğunsuzluğu kadrın dərinliyini ötürə bilmir, ancaq tamaşaçının "mənəvi gözü"nü aktivləşdirərək diqqəti personajların ən kiçik hərəkətlərinə cəmləyir. Karel Zemanın "Baron Münhauzen" (1961) və "Kometada" (1970) filmləri tam əks perspektivlə çəkilmişdir.

***Əl kamerası*** – kinomaterialın "əldən" çəkiliş üsulu. Çəkiliş zamanı kinokameranın obyektivinin hərəkəti bütünlükdə insan bədəninin hərəkətinə uyğunlaşır. Kameranın belə hərəkəti uzun planda ani olaraq rakursu dəyişməyə imkan verir. "Doqma"nın estetik prinsiplərindən biridir.

***Ən uzaq plan*** – kinematoqrafik planın bir növü; bu planda bütünlükdə insan fiquru onu əhatə edən mənzərə fonunda çətinliklə seçilir və özü fonun bir hissəsinə çevrilir.

***Ən uzun plan*** – qəsdən qurulmuş kəsilməz mizan səhnə; xüsusi olaraq uzun çəkiliş kadrı ilə lentə alma. Bütün film bir uzun kadrdan ibarət ola bilər. A.Hiçkokun "Kəndir" 1946, A.Sokurovun "Rus sandığı" 2002 filmlərində istifadə edilsə də, Endi Uorholun avanqard kinotəcrübələrində istifadədə son həddə çatır.

## F

***Fabula*** **–** filmdəki hadisələrin əsası, onurğa sütunu və onlar arasında zahiri əlaqə. Hadisələrin ardıcıllığı, personajların mənəvi keyfiyyətləri və fəaliyyətlərini müəyyən edən sosial və təbii amillər məcmusu.

***Faciə*** **–** insanın daxili ruhi vəziyyəti və duyğular aləminin bəzən geri dönüşü olmayan və hətta qəhrəmanın şəxsiyyətinin məhvinə səbəb olan reallıqla qarşıdurmasını göstərən kinematoqrafik janr ("Kənd keşişinin gündəliyi" /Rober Bressson, 1950; "Körpü" /Bernhard Vikki, 1959; "Milçəklərin hökmdarı" /Piter Bruk, 1963).

***Fanzin*** – ədəbiyyat, musiqi və kinonun dar sahəsinə aid həvəskar materiallarından tərtib olunan az tirajlı jurnal (Məsələn, Fransada nəşr edilən “Trash Times” jurnalı, 1996–2005). 1970–ci illər üçün xarakterik olan fanzin sonradan cəmiyyətin internetləşməsiylə öz dəyərini itirdi.

***Fan-klub*** – tamaşaçı fəaliyyətinin və kino reklamının bir forması olan pərəstişkarların qeyri-formal birliyi.

***Fansab*** – həvəskar kinosevərlər tərəfindən filmin hər hansı bir milli auditoriyada nümayiş etdirilmək məqsədiylə hazırlanan subtitri.

***Fantasmaqoriya*** – 1. müəyyən ideyanı ifadə etmək üçün qeyri-məntiqi hadisələr və əcaib obrazlardan istifadə edən fantastikanın altjanrı.
2. kinoda qəhrəmanın yuxugörməsinin və ya sayaqlamasının təsviri üsulu (“Qotika” /Ken Rassel, 1986; “Ölü beyin” /Adam Saymon, 1990; “Las-Veqasda qorxu və nifrət” /Terri Gilyam, 1998).

***Fantastika kinoda*** – 1. süjet və obrazlar sisteminin fantastik komponentlərə əsaslandığı kinematoqrafik janr. Mistikadan fərqli olaraq fantastika möcüzənin qeyri-dini formalarına əsaslanır. İlk fantastik film Jorj Melyesin “Rezin başlı adam” filmi (1901) hesab olunur.
2. süjet kolliziyasının açılmasında lazımlı, ancaq ikinci dərəcəli rol oynayan janr kinosunun xüsusi komponenti. Müxtəlif janrlı filmlərdə kinofantastika elementlərindən istifadə oluna bilər (Alfred Hiçkokun “Quşlar” trilleri, Devid Kronenberqin “Milçəklər” dəhşət filmi, Jan-Mari Puarenin “Gəlmələr” komediyası və s.).

***Fantastik-macəra filmi*** – macəra filminin bir növü; fantastik macəra filmində fantastikadan macəra süjetinə hərəkət qatmaq üçün istifadə olunur (“Münhauzen” /Cozef fon Baki, 1943; “Ulduz savaşları: yeni ümid” /Corc Lukas, 1977; “Mumiya” /Stiven Sommers, 1999; “Üzüklər hökmdarı” /Piter Cekson, 2002-2003)

***Fars*** – bəsit komik üsullardan istifadə edən yüngül məzmunlu komediya ("Mənim fürerim və ya Adolf Hitler haqqında ən dürüst həqiqət" /Dan Levi, 2006; "Ən yaxşı film" /Kiril Kuzin, 2008). Fars formasında adətən parodiyalar çəkilir.

***Fasilə*** – montaj keçidinin üsulu; səhnələr arasındakı mövcud vaxt kəsiyini vurğulayan, mövsümi peyzaj, peyzajın detalları yaxud digər fəslin simvolundan ibarət (yetişmiş giləmeyvənin salxımı, durna qatarı, üzən buz, damcı, tökülmüş yarpaqlar və s.) görüntü kadrı; və ya hansısa hərəkətin başlanğıcı, davamı və ya sonunu simvollaşdıran ("axıb gedən su", "qatarın gəlib çatması" və s.) alleqorik kadr.

***Feliks*** – Hollivud istehsalı olmayan, ənənəvi Avropa filmlərinin inkişafına verdiyi töhfələrə görə təqdim olunan kinomükafat. 1988-ci ildən başlayaraq hər iki ildən bir 15 nominasiyada Berlində təqdim edilir. Avropa Kino Akademiyasının səsverməsinə əsasən seçilir.

***Fentezi*** – kinematoqrafik janr; bu janrda əsas estetik qayda təsəvvürlərin reallıq üzərində üstünlüyündən ibarətdir. Eyni zamanda, kinoda fantastikanın xüsusi "nağılvari" dünyaya əsaslanan altjanrlarından biridir ("Herkules kabuslar diyarında" /Mario Bava, 1961; "Üzüklərin hökmdarı" kinotrilogiyası /Piter Cekson, 2002–2003).
Janrın banisi Morisa Turnor ("Arzu üzüyü" 1914, "Mavi quş" 1918) hesab edilir. Uşaqlar üçün fentezi ilk növbədə Avropa nağıl folkloruna əsaslandığından onların tipik personajları – cadugarlar, pərilər, əjdahalar və b. sayılır ("Oz ölkəsinin sehrbazları" /Viktor Fleminq, 1939; Herbert Uayz və Devid Karsonun serialı olan "Onuncu krallıq" 1999, Harri Potter haqqında olan romanlar silsiləsinin ekranlaşdırılmış versiyası).
Gənclər və yuxarı yaşlı tamaşaçılar üçün fentezi, əsasən, müasir kütləvi şüur fenomenlərinə əsaslanır, sosial-siyasi allüziyalardan gen-bol istifadə olunur.

***Festival premyerası*** – filmin kino festivalında premyera prosesi.

***Festival direktoru*** – kino festivalları təşkil edən ali inzibati şəxs.

***Film*** – bitmiş kinematoqrafik əsər: bədii, sənədli, elmi-populyar, öyrədici, televiziya, animasiya formasında olub bədii düşüncəyə əsaslanan, kinolent və ya digər daşıyıcıya yazılan, ardıcıl və bir-biri ilə əlaqəli kadrları mövzu cəhətdən vahid tama tabe olan və müvafiq texniki cihazlar vasitəsilə qavranılan  audiovizual məhsul.

***Filmin direktoru*** – film çəkilişi zamanı inzibati işçi: texniki kadrları və personalı bölüşdürən, çəkiliş texnikasının kirayəsini təmin edən, nəqliyyatın təşkili, mütəxəssislər və ştatlı işçilər arasında əmək haqqlarının ödənilməsinə rəhbərlik edən şəxs.

***Filmin dramaturgiyası*** – ssenarinin süjet-obraz konsepsiyası. Ssenarinin anlamı və ardıcıl inkişafı fabula, süjet, kolliziya, konflikt və onların kompozisiyasında ifadə edilir. Film hissələrinin fabuladan süjetə keçid prosesində yerləşdirilməsini, həmçinin təsvir edilən hadisələrin xronologiyası və təsvirlərin ardıcıllığı arasındakı əlaqənin pozulmasının bədii şərtiliyini əsaslandırır. Dramaturgiyanın spesifik formaları özünü müzikl, döyüş filmləri, pornoqrafik filmlərdə göstərir. Bu janrda olan filmlər fabula-süjet dramaturgiyasından daha çox demonstrativ şou dramaturgiyasına uyğun gəlir.

***Filmin kompozisiyası*** – kino poetikasının əsas elementlərindən biri; müvafiq olaraq aşağıdakı kinematoqrafik qaydaları əhatə edir: mizan səhnənin quruluş prinsipi, kinokameranın hərəkətinin dominant görünüşü və çəkiliş kadrının uzunluğu, kombinə edilmiş çəkiliş və rapidin tətbiqi, kinematoqrafik planların əvəzlənməsi və üstünlük təşkil etməsi, xətti və qeyri-xətti montajın, həmçinin bədii montajın müxtəlif növlərinin tətbiqi.

***Filmin nümayişi*** – filmin kinoteatrlarda, televiziyada və digər texniki vasitələrlə kütləvi nümayişi.

***Filmin prokat surəti*** – prokat dövründə kommersiya məqsədilə müntəzəm nümayişi həyata keçirilən və xüsusi olaraq neqativdən köçürülmüş pozitiv film surəti.

***Filmin prokatçısı*** – kino sənayesində peşə; film prokatı sahəsiylə məşğul olan biznesmen.

***Filmin səsləndirilməsi*** – filmi müşayiət edən səsin mərhələli yazılması, lazımsız səslərdən təmizlənməsi, səsin gücünün tənzimlənməsi ilə həyata keçirilən postprodakşn proseslərindən biri.

***Filmin tərcüməsi*** – filmin bütün replikalarının, yazıların, kadrarxası mətnin ədəbi tərcüməsi və səsləndirilməsi. Subtitr, səsləndirmə və ya dublyaj formasında ola bilər. Kinofestivallarda canlı sinxron tərcümə təcrübəsindən istifadə edilir.

***Film-konsert*** – tarixən səsli filmin ilk musiqili kinojanrı ("Caz ifaçısı" /Alan Kroslend, 1927). Daha sonrakı dövlərdə – Stalin repressiyaları dövründə SSRİ-də kinematoqrafın kütləvi-əyləncəli forması olub ideya cəhətdən neytrallığı nümayiş etdirmək üçün istifadə olunurdu.

***Filmmeyker*** – film yaradıcısı; kinoistehsalda filmin əsas yaradıcıları (rejissor, prodüsser, ssenari müəllifi, montajçı) nəzərdə tutulur.

***Filmoqrafiya*** – 1. filmlərin və onların müəyyən hissələrinin hesabat, arayış, reklam və ya başqa məqsədlə təsvirinin metod və prinsiplərini öyrənən elmi biliklər sahəsi. Eyni zamanda filmoqrafik fəaliyyətin məhsullarını da filmoqrafiya adlandırırlar.
Təsvirin tamlığından asılı olaraq filmoqrafik qeydlər özündə aşağıdakı məlumatları birləşdirə bilər: filmin orijinal adı və digər dillərə tərcüməsi, istehsal ili və yeri, çəkilişlərin aparıldığı ölkə, dünya premyerası tarixi, kinostudiyanın adı, məsul şəxslər (rejissor, prodüsser, ssenarist, operator, rəssam, bəstəkar, montajçı, xüsusi effektlər üzrə mütəxəsis və s.), əsas və ikinci dərəcəli rolların aktyorları, ədəbi və ya digər əsası (ekranlaşdırılma və parafrazlar),

janrı və əvvəlki və ya sonrakı filmlərlə əlaqəsi (sikvel, prikvel, remeyk və s.), məlumat-axtarış sistemi (prevyu, sinopsis, teqlayn), xronometraj və senzura ixtisarının mövcudluğu, prokat və rejissor versiyaları arasındakı fərq, büdcə və kassa gəliri, prokat reytinqi, festival və başqa mükafatlar, qiymətləndirmə xarakterli reytinqlər, aparılmış bərpa işləri və ya kolorizasiya, hüquqi sahib, kino mətbuatında və kinoşünaslıq ədəbiyyatında vacib rəylərin siyahısı, filmin yaranması ilə bağlı arxiv materialları barədə məlumat və s.
2. Müəyyən bir şəxsin əsaslı iştirakı ilə həyata keçirilən kino layihələrinin siyahısı.

***Filmologiya*** – filmin qavranma psixologiyası və daxili strukturu arasında əlaqəni tədqiq edən fransız kinoşünaslıq məktəbi nümayəndələrinin öz məktəblərinə verdikləri ad (Film haqqında elm). Nümayəndələri: Jilber Koan Sea, Jan Mitri, Etyen Suryo və b.

***Film-omnibus*** – fransız kinematoqrafçıları tərəfindən yaradılmış, fərqli rejissorların çəkdiyi bir neçə novelladan ibarət eksperimental formalı kinoalmanax. Novellalar hər biri mövzu və süjet baxımından özündən əvvəlki filmin davamı olur ("Fransızlar və sevgi" 1960, "Dörd həqiqət" 1962)

***Film-opera*** – operanın kino pavilyonunda və ya təbiətdə bədii film və ya telefilm şəklində ekranlaşdırılmış forması ("Karmen" /Franko Ceffirelli, 1978).

***Film-operetta*** – özündə dramaturgiyanın teatral təbiətini və istifadə olunmuş musiqinin simfonik xarakterini saxlayan musiqili komediya filmi ("Yarasa" /Yan Frid, 1979).

***Filmoteka*** – 1. sinemateka;
2. kinostudiya məhsullarının arxivi, milli filmlərin dövlət arxivi;
3. kinosənəd və videosənədləri toplayan və oxucuların istifadəsinə təqdim edən kitabxana şöbəsi.

***Film-pritça*** – süjeti təhkiyədən daha dərin olan bədii oyun və ya cizgi filmi. Film-pritçada ümumi problematika sırf fərdi material

əsasında açılır ("Balaca və böyük quşlar" /Pyer Paolo Pazolini, 1966, "Yanğınsöndürənlərin balı" /Miloş Forman, 1967, "Uçan holland" /Yos Stellinq, 1995).

***Film-revyu*** – müasir musiqili teleşouların sələfi olan 1930-cu illərin musiqili film janrı.

***Film-tamaşa*** – özünəməxsus ifadə üsulları, poetikası, estetik problemləri və qanunauyğunluqları olan televiziya və teatr sənətinin sintetik forması. Pyes və ya ədəbi əsərin ekranlaşdırılması. Teatr səhnəsində gedən tamaşanın kameranın azsaylı hərəkət sahəsi, çəkiliş nöqtələrinin və kinematoqrafik planların cüzi dəyişməsi ilə müşayiət olunan çəkilişindən fərqli olaraq, televiziya pavilyonlarındakı çəkilişlərdə məkan məhdudiyyəti olmur.

***Final tvisti*** – filmin sonunda baş verən və bütün əvvəlki hadisələrin mənasını dəyişən qəfil süjet çevrilişi ("Altıncı hiss" / Manoc Nayt Şyamalan, 1999).

***FİPRESCİ*** – (La Federation internationale de la presse cinematographique) kino sahəsində professional tənqidçilərin və jurnalistlərin beynəlxalq təşkilatı olub milli assosiasiyaları və kino tənqidçiləri gildiyalarını, ayrı-ayrı üzvləri birləşdirir. 1930-cu ildə kino tənqidinin yüksək peşəkar standartlarına və milli müxtəlifliyə dəstək məqsədiylə yaradılmışdır. Festivallarda xüsusi hallarda FİPRESCİ Prizs kinomükafatını təqdim edirlər. 2005-ci ildən prezidenti Andrey Plaxovdur.

***Fləşbek*** (yaddaşın aydınlanması, keçmişdən qığılcım) – film dramaturgiyasının kompozisiya üsulu; təhkiyə xronologiyasını pozan, tamaşaçı nöqteyi-nəzərindən filmin qəhrəmanının yaddaşında baş verən və keçmiş hadisənin və ya yuxugörmənin səhnələşdirilməsi.

***Fokus məsafəsi*** – optik sistemin (o cümlədən kinokameranın) əsas fokusundan ona ən yaxın nöqtəyə qədər olan və görüntünün

maksimal dərəcədə keyfiyyətli alınacağı məsafə. Fokusda həm kadr dərinliyinin bütün planları, həm də təkcə bir plan yerləşə bilər.

***Fon*** – personajın arxasına çəkilmiş dekorasiya, animasiyada mənzərəli arxa hissə. Səhnədəki fon statik deyilsə və hərəkət edirsə, panorama adlanır.

***Fonoqram*** – son variantda tam montaj olunmuş və film surəti ilə səs xəttində tirajlanan filmin səs sırası.

***Fonoqram lenti*** – texniki xüsusiyyətlərinə görə səsin optik yazılması üçün nəzərdə tutulmuş kinolent.

***Fotofilm*** – kadrarxası mətn və musiqi ilə müşayiət olunan statik kadrlardan (fotolardan) təşkil olunmuş film. Həvəskar fotolardan təşkil edilmiş fotoalbomların video-perezentasiyası formasında (slayd-şou) geniş istifadə olunur. Fotofilm forması bədii oyun filmində eksperimental səviyyədə istifadə olunur ("Əksik səhifələr" /Cerom Oliver, 2006). Bədii oyun fotofilmində hərəkət kadların dəyişməsi ilə yox, statik obrazların tamaşaçı tərəfindən qavrayışı ilə bağlıdır. Fotofilm, həmçinin, montajsız filmdə müəllif ideyasının şərti bərpası forması kimi də üzə çıxa bilər.

***Fotoqraf*** – kinoda peşə; kastinq zamanı aktyorların foto çəkilişini edən, film üzərində gedən hazırlıq mərhələlərini fotosənədləşdirən, filmin gələcək reklamı üçün fotosüjetlər hazırlayan şəxs.

***Fraqmentar montaj*** – hərəkətlərin xronologiyasının pozulduğu montaj növü; personajın zahirən normal hərəkət amplitudası zamanı ətrafındakı hərəkətsiz obyektlərə nisbətdə anormal sürətlənməsi baş verir ("Son nəfəsdə" /Jan Lük Qodar, 1960).

***Françayz*** (fr. franchise-müavinət) – hüquq sahəsi terminlərindən olub məşhur ssenari ideyasının və ya obrazlar sisteminin sonradan sikvelləri çəkilərək maksimal dərəcədə tamaşaçı cəlb etmək məqsədiylə kino məhsulu kimi kinostudiyalara satılması (bondiana, "Çığırtı", "Betmen", "Mişar" və s.).

***Fransız sinematikası*** – dünya üzrə kinosənədlərin və film arxivlərinin toplandığı nəhəng sinematika. Anri Lanqlua tərəfindən əsası qoyulub, Parisdə yerləşir.

***Fransız yeni dalğası*** – 1950-ci illərin sonu 1960-cı illərin əvvəllərində fransız kinematoqrafında meydana gəlmiş cərəyan. Kinonu sənaye kimi yox, sənət kimi görən bir qrup gənc kinematoqrafçıların "Art" və "Kaye dü sinema" jurnallarında əks etdirdikləri nəzəri görüşləri zəminində ortaya çıxıb. Termin ilk dəfə Fransuaza Jiro tərəfindən 1958-ci ildə "Ekspress" jurnalında Klod Şabrolun "Yaraşıqlı Serj" filmində üslubi minimalizm və dərin psixologizmi xarakterizə etmək məqsədilə işlədilib. Fransız yeni dalğasının nümayəndələri aşağıdakılar sayılır: Klod Şabrol ("Yaraşıqlı Serj" 1958; "Əmioğlular" 1959), Fransua Trüffo ("400 zərbə" 1959; "Cul və Cim" 1961; "İyirmi yaşında sevgi" 1962), Jan-Lük Qodar ("Son nəfəsdə" 1960; "Balaca əsgər" 1963; "Karabiner" 1963; "Nifrət" 1963), Jak Rivett ("Paris bizə məxsusdur" 1960), Erik Romer ("Monsodan olan çörəkçi" 1963). Həm fransız yeni dalğasından bəhrələnmiş, həm də ideya-bədii novatorluq cəhətindən kinematoqrafı zənginləşdirənlərdən Lui Mal ("Sevgililər", 1958; "Zazi metroda", 1960; "Eşafotda lift", 1960; "Şəxsi həyat", 1962), Anyes Varda ("Beşdən yeddiyə qədər Kleo"1962), Alen Reneni ("Hirosima – məhəbbətim mənim", 1959; "Keçən il Marienbeddə", 1961) göstərmək olar.

***Frik–haus*** (başdanxarablar evi) – meqapolisin kiçik marginal subkultura aləminin əks olunduğu art-haus janrı.

***Frontal çəkiliş*** – kinokamera hərəkətinin statikliyinin növü olub kadr kompozisiyasının ön hissədən çəkilişi. Çəkiliş meydançasının sərhədləri daxilində mizankadrın quruluşu zamanı aparılır. Bu zaman elə çəkiliş nöqtəsi seçilir ki, xətti perspektiv, yəni ön plan obyektlərinin ölçüsünə mütənasib perspektiv yaratmaq mümkün olsun.

***Frontproyeksiya*** – kombinə edilmiş çəkiliş növü; aktyorların və rekvizitlərin fonda hərəkət edən təbiət kinotəsviri ilə çəkilişi. Frontproyeksiya metodu təbiəti statik fon kimi təqdim etmək mümkün olmadığında pavilyon çəkilişləri zamanı tətbiq olunur. Məsələn, üstüaçıq avtomobildə gedərək söhbət edən personajların səhnəsi pavilyonda çəkilirsə, avtomobilin "silkələnməsini" mexaniki qurğu vasitəsiylə, "hərəkət" zamanı geridə qalan təbiət mənzərəsini isə əvvəlcədən çəkilmiş kadrlar vasitəsiylə təmin edirlər.

***Futeyc*** (ing. footage) – lentin, filmin, film üçün çəkilmiş kinomaterialın futla uzunluğu, metrajı.

## G

***Gender filmi*** – 1. Dünyanın kişi və qadın kimi qavranması istiqamətinin müqayisə edildiyi və ya qarşı-qarşıya qoyulduğu film ("Cavan qadın" /Leonid Menaker, 1978).
2. Kişi və qadın auditoriyası tərəfindən fərqli anlamlarda qarşılanan film. Qavrayışın cinsi ayrıseçkiliyə uğraması ayrı-ayrı "kişi" və "qadın" IMDB reytinqlərinin yaranmasına və xüsusi altjanrların meydana gəlməsinə səbəb olub.
3. Gender yanaşmasından istifadə edilərək kişi və ya qadın nəzər nöqtəsindən çəkilmiş film.

***Genişformatlı kino*** – standart 35 mm-lik lentə nisbətən iki dəfə geniş kinolentin tətbiqi ilə həyata keçirilən bahalı çəkiliş və nümayiş sistemi. Bu sistem nəhəng ekranda nümayiş zamanı maksimal keyfiyyət əldə etməyə imkan verir.

***Geri montaj*** – film kompozisiyasında xüsusi üsul. Hadisənin final hissəsinin filmin əvvəlinə yerləşdirilməsi ("Əzəldən ölü" /Rudolf Mate, 1950; "Küləyə yazılmış sözlər" /Duqlas Sörk, 1956; "Kriminal mütaliə" /Kventin Tarantino, 1994).

***Geyim üzrə rəssam*** – kinoda peşə; filmin bütün personajları (kütləvi səhnələr də daxil olmaqla) üçün geyim eskizləri hazırlayan və onların hazırlanmasını təmin edən şəxs.

***Gey kinosu*** – kinematoqrafda xüsusi istiqamət olub, homoseksuallığı estetik fenomen kimi tədqiq edir. Ümumi qaydaya əsasən, gey kinosuna homoseksuallıq fenomeninin sosial və psixoloji tərəflərini tədqiq edən, homoseksual problematikaya toxunan filmləri aid edirlər (Derek Carmen "Sebestyan" (1976), "Karavaco" (1986), Jak Jene "Sevgi nəğməsi" (1950)).

***Ginyol*** – süjeti qəhrəmanın frustrasiya halındakı davranışları və təlaşlı motivasiyasına əsaslanan, elmi fantastika və mistikanın elementlərini birləşdirən bədii oyun filmi ("Dəlisov sevgi"/ Karl Froynd, 1935; "Vampirlə müsahibə"/ Nil Cordan, 1994).

***Gizli kamera*** – bədii oyun kinosunda çəkiliş üsulu. Belə çəkiliş zamanı yarısənədlilik effekti kadrdakı şəxsin çəkilişdə iştirak etdiyi barədə xəbərsiz olmasıyla əldə edilir. Küçədən keçənlərin aktyor tərəfindən oynanılan oyununa təbii reaksiyalarını çəkməklə də bu effektə nail olmaq olar ("Birə çuvalı" /Vera Xitilova, 1962; "İlluminasiya" /Kşiştof Zanussi, 1975). Gizli kamera nəzəriyyəsi ilk dəfə Dziqa Vertov tərəfindən "Kinogöz" (1922) manifestində işlənmişdir.

***Görüntü filmi*** – idraki planda çəkilmiş sənədli film növü. Kinooçerk, kinonovella, ekspedisiya filmi. Səssiz kinoda – coğrafi obyektlərin, etnoqrafik və diyarşünaslıq süjetlərinin göstərilməsi. Müasir kinoda turistik səyahətləri əks etdirən, daha çox reklam xarakterli, intonasiyasına görə neytral film.

# H

***Hadisə filmi*** – 1. özündə boevik, detektiv, macəra filmi, avantür komediya, bəzi müharibə dramları və digər dinamik macəra kinoquruluşlarını birləşdirən filmlər.
2. dar mənada: "ekşn" termini ilə sinonim.

***Hazır məhsullar (ready made) animasiyası*** – hazır predmetin məkanda yerdəyişməsi, onlardan hərəkət metaforu qismində istifadəsi. Məsələn Harri Bardinin "Konflikt" (1983) cizgi filmində kibrit çöpləri və kibrit qutuları, "Nigah"da (1987) iplər, "Adajio"da kağız fiqurlar – oriqamilər personaj və dekorasiya rolunu oynayırlar.

***Hermetik dedektiv*** – deketiv fabulanın növlərindən biri olub insanların qapalı məkanda kimin qatil olduğunu müəyyənləşdirmələri əsasında çəkilir ("Şeyla" yaxtasının sonuncu kruizi"/ Herbert Ross, 1973), Aqata Kristinin "On zənci balası" romanının ekran həlləri).

***Heys kodeksi*** – 1930-cu ildə ABŞ-da Kinoprodüsserlər və Kinoprokatçılar Assosiasiyası tərəfindən qəbul edilən və ekranda zorlama və erotika səhnələrinin nümayişini qadağan edən ciddi qanun və etik münasibətlər məcəlləsi. Qanun, assosiasiyanın prezidenti Uilyam Harrison Heysin adını daşıyır.

***Heyvanlar haqqında film*** – sənədli və bədii oyun filmi janrı olub vəhşi və ya ev heyvanlarının davranışlarının xüsusiyyətlərini və məntiqini göstərən film ("Heyvanlar-gözəl insanlardır" /Ceyms Uys, 1974; "Qara qulaq Ağ Bim" /Stanislav Rostoskov, 1977; "Ayı", "İki qardaş" /Jan Jak Anno, 1988, 2004).

***Hərbi dram*** – hərbi material daxilində ümumbəşəri problemlər və humanist ideyalar əks olunan film ("Qərb cəbhəsində yenilik

yoxdur/ Lüis Maylstoun, 1930; "Şöhrət yoları"/ Stenli Kubrik, 1957; "Qırmızı mələk" /Yasudzo Masumura, 1966).

***Hərbi film (batal film)*** – 1. personajların xarakterlərinin bilavasitə döyüş meydanında, hərbi əməliyyatlarda, partizan hərəkatında açılması ilə müşayiət olunan tarixi filmin növü.
2. Rusiyada, ənənəvi olaraq, Böyük Vətən Müharibəsi zamanı Avropada sovet hərbçiləri tərəfindən zəbt olunmuş ərazilərdə baş vermiş hadisələri əks etdirən istənilən filmi hərbi film adlandırırlar.

***Hərəkət oxu*** – mizan səhnənin məkan elementi olub kadr dərinliyi ilə tamaşaçının müşahidə nöqtəsi arasındakı təsəvvür olunan sərhəddi bildirir. Məsələn, iki personajın dialoqu zamanı bu sərhəd bir personaj xəttindən digərinə doğru keçirilir. Müxtəlif planlı səhnələrin çəkilişi zamanı kinokamera istənilən çəkiliş nöqtəsində yerləşdirilə bilər, bu şərtlə ki, hərəkət oxu bir tərəfdə qalsın. Hərəkət oxunun müxtəlif tərəflərindən çəkilmiş planların montajı zamanı tamaşaçı səhnədə əlavə personajın – müşahidəçinin mövcudluğu qənaətinə gələcək. Həmçinin, gizli montaj sayəsində kinomakeranın hərəkət oxuna keçməsi nəticəsində epizod daxilində zaman-məkan əlaqəsinin pozulması effektinə nail olmaq olar ("Şərq dəhlizi" /Valentin Vinoqradov, 1966).

***Həvəskar kino*** – kinematoqrafda müstəqil istiqamət olub, art-kinonun əsas formalarındandır. Həvəskar kino aşağıdakı əlamətlərə görə xarakterizə edilir:

- az büdcəli olması;
- ifadə vasitələrinin seçimində minimalizm;
- senzuraya tabe olmaması;
- qeyri-kommersiya xarakterli və dövlət nəzarətində olmayan kanallar tərəfindən yayılması.

***Hidrotip lent*** – filmin nüsxələrini (əsasən prokat nüsxələrini) aşınmaya və işığadavamlı etmək məqsədilə istifadə olunan kinolent.

***Hiperrealizm*** – 1990-cı illərin müəllif filmlərində minimalist üsluba əsaslanan istiqamət.

***Holdbək*** – kinoteatr prokatından daha çox gəlir götürülməsi məqsədilə kinoteatr premyerası və DVD relizi arasında qoyulmuş müddət.

***Hollivud*** – ABŞ-da kino sənayesi və kino irsinin ümumi məcmusu. Kaliforniya ştatının Los-Anceles şəhərində yerləşərək eyniadlı dağlıq rayonun adını daşıyır, ən böyük kinostudiyaları əhatə edir.

## X

***Xətti montaj*** – təsvir edilən hadisələrdə xronoloji ardıcıllığa riayət edən və fərqli nöqtələrdən çəkilmiş kadrın eyni vaxtda montajı. Xətti montaj daha çox televiziyada canlı yayım zamanı hadisənin bir neçə kamera ilə birgə çəkilişində tətbiq olunur.

***Xətti montaj rejissoru*** – televiziyada peşə; canlı yayımda müxtəlif kameralardan çəkiliş zamanı görüntünün yayım ardıcıllığını təyin edən rejissor.

***Xətti perspektiv*** – kinematoqrafın ifadə vasitələrindən biri; çəkiliş obyektlərinin qarşılıqlı şəkildə elə yerləşdirilməsidir ki, həmin andakı işıqlandırma və çəkiliş nöqtəsi tamaşaçıya ekranda obyektlərin ölçüsünü, formasını və onların obyektivdən uzaqlıq məsafəsini, düz ekranda kadrın dərinliyini maksimal dəqiqliklə görməyə imkan versin. İnsan gözünü asanlıqla aldatmaq mümkün olduğuna görə süni perspektivi perspektiv kombinasiyası metodu vasitəsiylə də yaratmaq olur.

***Xoşbəxt sonluq (happy end)*** – kolliziyası müsbət personajların xeyrinə həll olunan şablon film süjeti açılışı. Optimist həll kütləvi

kinonun əsas səciyyəvi cəhətlərindən olub kinoprokatçıların marketinq strategiyasına daxildir.

***Xronometraj*** – filmin əvvəlcədən nəzərdə tutulmuş davamiyyət müddəti. Bu müddəti nəzərə alaraq rejissor hər bir ayrı səhnənin müddətini də müəyyənləşdirir. Termin həm də hazır filmin davamiyyət müddəti mənasında işlədilir.

***Xüsusi effektlər*** – kinoda vizual ifadəliliyin əsas vasitəsi, kinematoqrafın ifadə üsüllarından biri. Real həyatda təbii yollarla əldə olunması mümkün olmayan işıqlandırmanı, hərəkətləri, əşyaları ekranda göstərmək üçün vasitə. Mexaniki və kompüter vasitəsilə yaradıla bilər. Xüsusi effektlər təxəyyül məhsulu olan interyer, maşın, mexanizm, təbiəti (qeyri-adi heyvanlar və qulyabanılar da daxil olmaqla) və s. göstərmək üçün istifadə olunur. Xüsusi effektlər üzrə ilk mütəxəssis Linvud Dann (Linwood Dunn1904-1998) hesab edilir.

***Xüsusi effektlər üzrə mütəxəssis*** – xüsusi effektlərin tətbiqi üzrə ideyaları və texnologiyaları hazırlayan şəxs.

## I

***IMAX (Image Maximum)*** **–** 3D formatda kino göstərisi üçün IMAX korperasiyasına (Kanada) məxsus texnologiya; yüksək səs və təsvir keyfiyyətinə və “real mövcudolma effektinə” malik üsullar kompleksi. Kompleksə unikal çökək formalı nəhəng ekran, güclü kinoproyektor, ayrıca səs yazılmış və formatı böyüdülmüş kinolent, polyarizə edilmiş qütbləşdirilmiş şüşəli eynək daxildir.

***IMDb (Internet Movie Database)*** **–** internet film bazası olub interaktiv filmoqrafiya nümunəsi sayılır. Kinematoqraf məlumat bazasında ən böyük pulsuz ictimai internet–resurs hesab edilir və

layihə 1990-cı ildən həvəskarlar tərəfindən daimi olaraq davam etdirilir.

## İ

***İcraçı prodüsser*** – prodüsser qrupunun rəhbəri, film üzərində işi bazar dəyərləndirməsi nöqteyi-nəzərindən yönləndirən, maliyyələşmənin mənbəyini və nizamını müəyyənləşdirən, büdcəyə uyğun olaraq xərclərə nəzarət edən şəxs.

***İdeya müəllifi*** – ssenari ideyası hüquqlarının qeydə alınmış və ya alınmamış sahibi. İdeyanın kommersiya məhsuluna çevrilməsi haqda qanunvericilikdən əvvəl ideya müəllifliyi kinoda müstəqil peşə sayılmır və fəaliyyətin müstəqil növü hesab edilmirdi.

***İdman dramı*** – kinoda altjanr; süjeti qəhrəmanın peşəkar idman həyatına atılmasından sonra həyatında baş verən ruhi və sosial dəyişikliklər üzərində qurulan dram növü ("Çempion" /Mark Robson, 1949; "Vəhşi buğa" /Martin Skorseze, 1980).

***İkiqat ekspozisiya*** – Jorj Melyesin ixtirası. İki kadrın qarşılıqlı işıqlandırma effektini əldə etməyə imkan verən kombinə edilmiş çəkiliş və montaj keçidi üsulu. Bu zaman ikinci kadr birinci kadrın yazıldığı kinolentə çəkilir.

***İkinci plan (orta plan)*** – 1. kinokameranın baxış bucağında ön plandan bir qədər aralıda yerləşən obyekt.
2. kadrda obraz və obyektin əlavə anlamı, metaforik mənası.

***İkinci rejissor*** – ssenari üzrə çəkiliş qrafikinə nəzarət edən, sutkanın müəyyən vaxtlarında müxtəlif dekorasiyalar və təbiət çəkilişlərinin qrafikini planlaşdıran, xüsusi effekt mütəxəssisləri, kaskadyorlar, kütləvi səhnələrin iştirakçılarının çəkliş meydanında iştirakını təmin edən şəxs.

***İlkin komiklik*** – statik kinokamerayla çəkilmiş sadə sirk nömrələri və estrada buffonadalarından ibarət ilk ekran komediyası növü ("İsladılmış suvarıcı" /Lümyer qardaşları, 1895).

***İlkin nümayiş*** – professionalların fikrinə təsir etmək və adi tamaşaçıların fikrini öyrənmək üçün rəsmi premyeradan əvvəl hazır filmin nümayişi.

***İmpressionizm*** – 1920-ci illər fransız kinematoqrafiyasına ciddi təsir göstərən və kinematoqrafda fransız avanqardının bir hissəsinə çevrilən ideya-üslubi istiqamət (Jan Renuar "Su qızı",1925; "Balaca kibrit satıcısı",1928; Jan Epşteyn "Eşerlər evinin süqutu", 1928; Alberto Kavalkanti "Ancaq vaxt", 1926; Dülak "927–ci plastinka", 1927; "Mövzu və variasiyalar", 1928; "Arabesk", 1929).
1920-1930-cu illər fransız avanqardı fransız impressionistlərinin ənənələrinin davamçısı kimi meydana çıxdı. Bu səbəbdən kino tarixində impressionizm "birinci avanqard" termini ilə də ifadə edilir. Məhz Lui Dellükün rəhbərliyi ilə kinoimpressionistlər teatr və ədəbiyyat nümunələrini kor-koranə təkrarlayan kommersiya kinematoqrafına qarşı ilk üsyan qaldırmışlar. "Birinci avanqard" Jermen Dülak, Abel Hans, Marsel Lerbye, Jan Epşteyn kimi rejissorların fəaliyyətini əhatə edir. Rus kinoşünası Kiril Razloqov "birinci avanqard"dan (impressionizmdən) "ikinci avanqarda" (avanqarda) keçidi belə ifadə edir: "Birinci fransız avanqardı kinoavanqard tarixinin çoxdan klassikaya çevrilmiş bir hissəsidir. Kinematoqraf o zaman avanqard sayıldı ki, o artıq öz bədii kamilliyinə çatdı, montaj, kadr və təsvirdən istifadə etməklə əhvalat danışmağı öyrəndi". İmpressionistlər hesab edirdilər ki, kinematoqraf tamaşaçı ilə öz dilində danışmalı və bu zaman yalnız ona məxsus ifadə vasitələri məcmusundan istifadə etməlidir. "Birinci avanqard" ideyalarının davamçıları – Jermen Dülak, Alberto Kavalkanti, Jan Renuar süjetə qarşı çıxmır, hər bir filmin dəqiq, aydın ifadə olunmuş mövzuya malik olması fikrini irəli sürürdülər.

***İntellektual komediya*** – intellektual yumora əsaslanan komediya. Kinorejissorluqda intellektual komediyanın ustaları Frenk Robert Heymer, Aleksandr Makkendrik, Vudi Alen, Qeorgiy Daneliya sayılır.

***İntertitr*** – titrin növlərindən olub ayrı-ayrı kadrlar arasında verilən aralıq titrləri. Filmin quruluşunda izahedici mətn olub əlavə şərh və qəhrəmanların replikalarının mətnlərini əhatə edir. Lal kinematoqrafın əsas xüsusiyyətlərindəndir. Müasir kinoda növbəti səhnədə baş verəcək hadisələrin vaxtı və məkanını aydınlaşdıran yazılar, filmin ayrı-ayrı hissələrinin epiqrafları və "filmin sonu" kimi yekun titrlərin verilməsi hallarında rast gəlinir.

***İnteryer*** – çəkiliş apparatının nəzəri terminlərindəndir. Təbii işıqlandırılmaya malik və çəkiliş üçün xüsusi təchizata ehtiyacı olmayan qapalı məkan tipli çəkiliş meydançası növü.

***İri plan*** – kinematoqrafik planın növü. İri planda insanın siması kadrı bütünlüklə tutur.

***İstehsal aperturası*** – texniki kino termini olub, kadr sahəsinin ətrafları ilə birgə formatı aşmasını bildirir. Kadrın formata daxil olan mərkəzi hissəsi təmiz apertura adlanır.

***İstehsal mərhələləri*** – filmin kinostudiyada istehsalının əsas mərhələləri: ssenari, hazırlıq, çəkiliş və montaj.

***İstehsalat dramı*** – sovet kinosunda dramın bir növü olub, kollektiv istehsalat fəaliyyəti zamanı baş verən konfliktlərdən bəhs edir. Konfliktsizlik nəzəriyyəsi sosrealizmin aparıcı postulatlarından birinə çevrildikdən sonra sözügedən janr daxilində "ən yaxşı-yaxşı" qarşıdurması çərçivəsində süni kolliziyalar yaradılmağa başlandı ("İrəli, zaman" /Sofiya Milkina, Mixail Şveyser 1965; "Ən isti ay" /Yuliy Karasik 1974).

***İstern*** – vestern janrını təqlid edən Şərqi Avropa filmləri.

***İşıqlandırma*** – kinoda işıq quruluşu kinematoqrafın ifadə vasitələrindən biridir. Pavilyon çəkilişlərində təsvir olunan obyektin ayrı-ayrı hissələrini işıqlandırmaq və ya qaranlıqlaşdırmaq yolu ilə plastikasının formalaşmasında, tamaşaçı diqqətinin kadrın lazımi məqamına cəmlənməsində, sutkanın vaxtının ifadə edilməsində işıqlandırmadan geniş istifadə olunur. Yalnız təbii (günəş) işığın istifadəsi rejissorun estetik proqramının bir hissəsi ola bilər.

***İşıq mərkəzi*** – kadrın daha parlaq işıqlandırma ilə seçilən hissəsi. İşıq mərkəzi, adətən, çəkiliş zamanı tamaşaçının diqqətini daha vacib detala çəkmək üçün istifadə edilir.

***İşıq üzrə mühəndis*** – kinoda peşə; işıqlandırma cihazlarının optimal quraşdırılmasına və işə hazır olmasına cavabdeh şəxs.

***İştirak effekti*** – 1. kinotəsvirin tamaşaçını ekrana cəlb edərək vizual olaraq qavranması. Bu zaman tamaşaçıda film hadislərində, daha doğrusu çəkiliş meydançasında, aktyorlar və dekorasiyalar arasında şəxsən iştirak etdiyi təəssüratı yaranır.
2. vizual vasitələrin (kadr kompozisiyası), xüsusi səs effektləri (kadrarxası gülüş və alqış səsləri), televiziya interaktivliyi ilə (studiaya zəng) köməyi ilə tamaşaçıda psixoloji olaraq televiziya verilişində iştirak etdiyi effektinin yaradılması.

***İtalopolitika*** – süni jarqon termini. 1970-ci illərdə italyan kriminal filmlərində və sosial dramlarında parlaq siyasi rəngin olması bu terminin ortaya çıxmasına səbəb oldu (Damiano Damiani “İstintaq bitdi – unudun” (1970), “Polis komissarının respublika prokuroruna etirafı” (1970), Elio Petri “Şübhə altında olmayan vətəndaşın işi ilə bağlı istintaq” (1971), “İşçi sinif cənnətə gedir” (1971), “Todo Modo” (1976).

## J

***Janr*** – müəyyən funksiyaya və daxili quruluşun sabit qaydalarına malik olan kinematoqrafik forma olub müəyyən tip mövzuda dramatik şərtiliyin dərəcəsini tənzimləyir. Kinematoqrafik formaların plastikliyi kinematoqrafın janr sisteminin inkişafının təminatçısıdır.

## K

***Kadr*** – 1. obyektin hərəkətinin fasiləsizliyini əks etdirən tam çəkiliş fraqmenti. Çəkiliş obyektinə münasibətdə çəkiliş kadrı, filmin hazır strukturuna münasibətdə isə montaj kadrı adlanır. Vahid çəkiliş kadrı çarpaz montaj zamanı bir neçə montaj kadrında bölümə bilər. Kadrın nisbi xronometrajı plan adlanır (uyğun olaraq: qısa plan, uzun plan, əlavə uzun plan). Kadrların kombinə edilmiş çəkilişi zamanı çəkiliş kadrı və montaj kadrı qarşılıqlı əlaqəyə daxil olur və bu zaman montaj kadrı kombinə edilmiş kadr adlanır.
2. filmin ən kiçik ölçü vahidi; çəkiliş zamanı kinolentdə ani foto; proyeksiya zamanı ekran çərçivəsi ilə məhdudlanmış vahid təsvir; kinokameranın obyektivinə tuş gələn görünən sahənin təsvirinin düz səthli görünüşü.
Saniyədə 24 kadra baxış tamaşaçıda stroboskopik effekt yaradır. Bu zaman tamaşaçı müşahidə edilən diskret obyekti vahid tam kimi qavrayır.

***Kadrarxası*** – 1. çəkiliş üsulu olub hər hansı erotik və ya qəddar səhnənin dolayı yolla filmə daxil edilməsidir. Həmçinin, əsas hadisələrin çəkiliş meydanından kənarda baş verməsi zamanı səhnədə həmin hadisələrin səs və ya kölgələr vasitəsilə təsviri effekti yaratmaqdan ötrü hadisə yerinin ətrafının çəkilişi.

2. danışan şəxsin təsviri olmayan təhkiyəli vizual sıra fonunda təhkiyəçinin monoloqu və ya personajların dialoqu. Məcazi mənada filmin kontekstinin diqqətindən kənarda saxlanılmış və açılmamış məna qatı.

***Kadrarxası səs*** – müəllif mətnini oxuyan, filmdəki hadisələrə və tarixi-mədəni fona şərh verən təhkiyəçi; sənədli filmdə diktor.

***Kadrarxası tərcümə*** – filmin original fonoqramı ilə eyni vaxtda səslənən əlavə fonoqram. Bu zaman həm aktyor, həm də tərcüməçinin səsi eşidilməlidir.

***Kadr çoxaldılması*** – hərəkəti dayandırılmış obyektin nümayişi üçün tətbiq olunan montaj üsulu: bir neçə oxşar kadın montajı. Bu üsul ilk dəfə Rene Kler tərəfindən "Paris yatdı və ya görünməz şüa" (1924) filmində istifadə olunub. Adətən, görüntüsünə daha çox vaxt tələb olunan titrlər və intertitrlər üçün istifadə edilir.

***Kadr dərinliyi*** – kadr kompozisiyasının komponenti. Foto və kino sənətində kadrın düzxətli perspektiv qaydası ilə təşkili prinsipi olub insan gözü tərəfindən üçölçülü şəkildə qəbuluna imkan verir. Kadrdaxili məkanın plana (ön, ikinci/orta, uzaq) bölünməsi əldə edilir ki, bunların nisbəti uzaq obyektlərin miqyaslarının müəyyənləşdirilməsində və onların balaca və yastı halda yox, uzaq və həcmli formada qəbuluna yardımçı olur.

***Kadr kompozisiyası*** – kinematoqrafın ifadə vasitələrindən biri. Kadr daxilində materialın təşkili prinsipi olub kadrın filmin, epizodun, konkret səhnənin ideyası nöqteyi-nəzərindən ümumi tələblərə uyğun düzümü anlamını verir. Kadr kompozisiyası bir qayda olaraq kinematoqrafın ifadə vasitələri və mizan kadrın kompleks tərtibatı yolu ilə qurulur.

***Kadrdaxili animasiya*** – kinematoqrafın ifadə üsullarından biri olub kadrdaxili montaja əsaslanan bədii oyun kinosu texnikası ("Tom Tambın gizli macəraları" /Deyv Bortvik, 1993).

***Kadrdaxili çəkiliş*** – animasiyada, eləcə də bədii və sənədli kinoda istifadə edilən çəkiliş metodu (xüsusilə, xüsusi effektlərin verilməsi zamanı); standart kadr tezliyinə uyğun hərəkət amplitudasının əldə edilməsi məqsədilə hərəkətsiz obyektlərin vəziyyətini yerləşdiyi məkanda yüngülcə dəyişməklə ardıcıl çəkilişi. Kadrdaxili çəkiliş üsulu ilə çəkilən ilk cizgi filmi Edvin Porterin "Yumşaq ayı" (1906) filmi sayılır.

***Kadrdaxili hərəkət*** – kinematoqrafın əsas ifadə vasitə-lərindən biri. Obyektlərin kadr sərhəddinə və kadr dərinliyi planına nisbətdə yerləşdirilməsi, həmçinin kinematoqrafik planların bir-birini rəvan əvəzetməsi. Kadrdaxili hərəkət üzü köçürülən obyektlərin kinokameraya nisbətdə yerləşdirilməsi və ya kinokameranın üzü köçürülən obyektlərə nisbətdə yerləşdirilməsi yolu ilə əldə edilir. Bu iki hərəkət biryerdə tətbiq olunarkən dinamik kompozisiya yaranır.

***Kadrdaxili montaj*** – çəkiliş zamanı işlək kinokameranın hərəkəti ilə çəkiliş nöqtəsi, rakursu və planının dəyişdirilməsi. Belə montaj üsulu kadrda zaman-məkan fasiləsizliyini saxlamağa imkan verir. Kadrdaxili montaj konsepsiyası 1940-1950-ci illərdə Orson Uellesin "Vətəndaş Keyn" (1941), Uilyam Uaylerin "Balaca tülkücüklər" (1941) filmlərində işlənmiş və Andre Bazenin tədqiqatlarında nəzəri cəhətdən əsaslandırılmışdır.

***Kadrdaxili plan*** – kadrın dərinliyinin işarələyicisi olub təsvir olunan obyektin çəkiliş nöqtəsindən uzaqlıq dərəcəsini bildirir. Adəti üzrə, ön, ikinci, orta və uzaq kadrdaxili plan növlərinə ayrılır.

***Kadrlararası montaj*** – tamaşaçının zaman-məkan reallığı haqqında təsəvvürlərini pozan yavaşıdılmış tezlikli kadrların və ya fərqli çəkiliş nöqtələrindən çəkilmiş təsvirlərin montajı.

***Kadrların ardıcıllığı*** – montaj ardıcıllığı anlayışı olub planların və təsvirin detallarının dəyişməsinin xronoloji məntiqiliyi.

***Kadrların tezliyi*** – çəkiliş və nümayiş zamanı kadların dəyişmə tezliyi; eyni zamanda çəkiliş sürəti ilə də ölçülür. Peşəkar lent kinosunda kadrın tezlik standartı 1 saniyədə 24 kadrdır.

***Kadrlaşdırma*** – filmin təhkiyə və başqa strukturlarında mizankadrın çəkiliş texnikası və məkanının ifadə vasitələrini nəzərə almaqla operator tərəfindən mizankadrın qurulması. Kadrlaşdırma prosesi zamanı obyektlərin çəkilişi üçün elə optimal rakurs və plan seçilir ki, tamaşaçının diqqəti təsvirin daha vacib detallarında cəmlənsin və kinokameranın baxış sahəsi artıq detallarla tutulmasın.

***Kamera draması*** – 1. dram filminin növü; dərin münaqişələrin iki-üç baş qəhrəmanın münasibətində inkişaf və həll edildiyi, ictimai ziddiyyət və əyləncə tələb etməyən film ("Pişik" /Pyer Qranye Deffer, 1971; "Sirius"/ Frantikşek Vlaçil, 1974).
2. "Kammerşpile" – 1920-1930-cu illər alman kinosunda janr-üslubi istiqamət ("Dağıntılar" /Lupu Pik, 1921).

***Kaleydoskopik montaj*** – klip montajının növlərindən olub, montaj frazalarının düzümündən imtina ilə xarakterizə olunur. Bu montaj tipinə vizual və səs obrazlarının qarışıqlığı və kakofoniyası xasdır.

***Kaskadyor*** – texniki və idman hazırlığına malik, zəruri vəziyyətlərdə aktyoru çətin tryuklarda əvəz edən mütəxəssis.

***Kastinq*** – müsabiqə xarakteri daşıyaraq ssenariya uyğun aktyor və aktrisaların seçilməsi. Kinosınaqlardan fərqli olaraq kastinqdə aktyorun hansısa tipaja uyğun gəlməsindən əlavə aşağıdakı şərtlərə də fikir verilir: aktyorun iş nüfuzu, bağladığı müqavilələrin sayı, cəmiyyətdə tanınma dərəcəsi və s.

***Kaşe*** – Jorj Melyesin ixtirası olub obyektivin və ya kinokameranın kadr pəncərəsinin səthi qarşısında quraşdırılan çərçivə-dayaq. Əsasən kaşeləşdirilmiş çəkilişlər zamanı istifadə olunur və bu zaman tamaşaçı üçün kadrın ekrana yerləşməyən hissəsi (genişekranlı filmin sağ və ya sol kənarı) qabardılır.

***"Kaye dü sinema" ("Les Cahiers du cinema")*** – 1951-ci ildə Andre Bazen, Jak Doniol Valkroz və Jozef-Mari lo Düka tərəfindən əsası qoyulmuş məşhur fransız kino jurnalı. Baş redaktor Erik Romer olduqdan sonra (1958-1963) kinoşünaslığa böyük təsir göstərib. Fransız yeni dalğası nümayəndələrinin manifestləri və nəzəri bəyanatları üçün əsas meydan olmuşdur.

***Kəsim*** – 1. hazır filmdən müəyyən fraqmentin xaric edilməsini bildirən qabaqlayıcı senzura termini.
2. hazır filmə düşməyən hər hansı korlanmış və ya artıq dubl. Həmin dubl ya sonda özünüironiya məqsədilə final titrlərdə göstərilir və ya dop şəklində rejissor və prodüsser tərəfindən ayrıca əlavə material kimi yayılır. Doplar çəkiliş zamanı kəsilmiş variantlardan, alternativ səhnələrdən, film çəkilişi barədə filmdən və s. ibarət olur.

***Kəsmə montaj*** – qısa planların montajı olub lentin ayrı-ayrı kiçik parçalarının birləşdirilməsi. Ayrı-ayrı kadrların uzunluğuna görə dinamik montaj və klip montajı olaraq iki növə ayrılır.

***Kinematoqrafiya (kinematoqraf)*** – kino nümunələrinin meydana gəlməsi üçün özünəməxsus tarixi və nəzəri fəaliyyətə malik olan sahə. İncəsənətin bir sahəsi kimi öz janrları, üslubları və ifadə vasitələrinə malikdir. Kinoşünaslar və kino tənqidçiləri tərəfindən tədqiq edilir. İqtisadiyyatın bir sahəsi kimi kinematoqraf nəhəng kino sənayesi üzərində formalaşır.

***Kinematoqrafiya sənəti və elmi akademiyası*** – ABŞ kino sənayesi sahəsində nüfuzlu ictimai təşkilat. 6000-dən çox üzvü var. Əsası 1927-ci ildə qoyulub, öz kinoarxivi (150000 filmdən çox) və kitabxanası var. Hər il gizli səsvermə nəticəsində ən yaxşı film seçilir və Amerika kino sənətinin əsas sahələrində əldə edilən naliyyətlərə görə "Oscar" kino mükafatı verilir.

***Kinematoqrafik plan*** – kinematoqrafın ifadə vasitələrindən biri. Ekranda insanın göstərilməsi zamanı tətbiq edilən, kadrdakı təsvirin

miqyasının təsvirin öz ölçüsünə nisbəti. Kinematoqrafik planın əsas növləri ümumi plan, orta plan və iri plandır. Daha kiçik detallara vardıqca aşağıdakı planlar da ortaya çıxır: çox uzaq plan, ümumi, orta, birinci, genişləndirilmiş, iri, detal plan. Həmçinin aralıq planlar da mövcuddur: orta uzaq plan, yarıorta plan.

***Kinematoqrafın ifadə vasitələri*** – filmdə ideya və obrazları ifadə etmək üçün texniki üsul, çəkiliş və montaj texnikası məcmusu. Əsas kinematoqrafik ifadə vasitələri aşağıdakılardır: kinematoqrafik plan (uzaq plan, detal, uzun plan, iri plan, ümumi plan, yarıorta plan, orta plan, böyüdülmüş plan), montaj, çəkiliş nöqtəsi, kameranın hərəkəti. Kinematoqrafik ifadə vasitələri ilk dəfə kompleks şəkildə Devid Uork Qriffitin filmlərində ("Millətlərin doğuluşu" 1915; "Dözümsüzlük" 1916; "Sındırılmış pöhrələr" 1919) tətbiq olunub.

***Kino*** – (yunancadan kineo – hərəkət edirəm) 1. proyeksiya səthinə mərhələli şəkildə həkk olunan hərəkət fasiləsizliyinin, əsasən, stroboskopik effekt metoduna əsaslanan kompleksi. Adətən oyun (bədii oyun), qeyri-oyun (sənədli) və eksperimental kino növlərinə bölünür;
2. kinematoqrafın qısaldılmış sinonimi kimi işlədilir;
3. adi danışıq dilində kinoteatr və film mənalarında işlədilir.

***Kino estetikası*** – kinematoqrafda kommunikativ və bədii mənaların ötürülməsi üsullarını öyrənən elmi biliklər sahəsi. Müasir dövrdə kino estetikasına əsas təsir göstərən amillərdən biri rəqəmsal texnologiyanın geniş tətbiqidir.

***Kino jurnalı*** – kinojurnalistika, kino tənqidi, kinoşünaslıq sahəsində materialların dərc olunduğu professional, elmi-kütləvi və ya kütləvi reklam mahiyyəti daşıyan dövrü jurnal.

***Kino məktəbi*** – kinematoqrafda öz nəzəriyyəsi və praktikasına malik böyük ideya-üslubi istiqamət. Əsasən milli xarakter daşıyır. Kinematoqraf tarixində "Doqma- 95", "Zaqreb animasiya məktəbi",

“Fransız yeni dalğası”, “Çex yeni dalğası”, “Montaj kinosu” kimi məktəblər mövcud olmuşdur.

***Kino mühəndisi*** – lent kinematoqrafında kinocihazların və kino-foto materialların istehsalı texnologiyasının layihələndirilməsi və alqoritmləşdirilməsi sahəsində mütəxəssis.

***Kino semiotikası*** – kinematoqrafı süni dil və vizual işarə sisteminin bir növü kimi öyrənən elm sahəsi. Yığcam ifadə etsək, kinosemiotika kinoda işarələr haqqında elmdir. Müxtəlif vaxtlarda kinosemiotika ilə Sergey Eyzenşteyn, Kristian Mets, Yuriy Lotman məşğul olmuşlar. Semiotik nöqteyi-nəzərdən kino əsəri müəllif tərəfindən məntiqi və emosional informasiya ilə yüklənmiş işarələr sistemidir. Andrey Tarkovski daim kinosemiotikaya qarşı çıxmış və kinematoqrafın öz dili olmadığı, yalnız digər incəsənət sahələrinin dilindən istifadə edərək məna qazandığı fikrini irəli sürmüşdür.

***Kino sənayesi*** – qanunvericilik və normativ aktlarla tənzimlənən kinofilm istehsalı; milli və dünya iqtisadiyyatının bir sahəsi olmaqla bir sıra infrastruktura malikdir:

- iqtisadi fəaliyyət subyektlərinə (kinostudiya, kino təşkilatları);
- sənaye ənənələri və standartları;
- kadr hazırlığı sistemi;
- elmi-tədqiqat bazası;
- istehsalçı-monopolistlər;
- maliyyə bazarı;

Kino istehsalının əsas mərkəzləri Hollivud və Bollivud sayılır.

***Kino sənədi*** – 1.kino vasitələri ilə yaradılmış audiovizual mahiyyət daşıyan və hər hansı maddi daşıyıcıda (kinolent, optik disk, komputerin hard diski) saxlanan sənəd.
2. kino nümunəsinin film surəti, videokaset, DVD disk formasında tirajlanmış hər hansı bir nüsxəsi.

***Kino sənəti*** – 1. özünəməxsus ifadə vasitələrinə malik olub ədəbiyyat, rəssamlıq, musiqi, rəqs, memarlıq, aktyor ustalığı sahələrinin sintezindən yaranan incəsənət növü. Hələ 1911-ci ildə "Yeddi incəsənət növü haqqında manifest"də kinosintezin nəzəriyyəçisi Riççotto Kanudo kinosənətinin memarlıq, musiqi, rəssamlıq, heykəltaraşlıq, poeziya və rəqslə eynihüquqlu olduğunu irəli sürmüşdür. Kino sənətinin aşağıdakı əsas növləri var: animasiya, sənədli film, bədii oyun filmi.
2. cəmiyyətdə öz infrastrukturuna (kino tənqidi, kinoşünaslıq, kino festivalları) malik olan yaradıcılıq fəaliyyəti sahəsi.

***Kino tarixçisi*** – kino sənəti və kino istehsalatının tarixi nöqteyi-nəzərindən qarşılıqlı əlaqələrini öyrənən, kino sənətinin tarixi məqamlarını tədqiq edən kinoşünas.

***Kino tarixi*** – kinematoqrafın bütün sahələrinin inkişaf tarixi və problemləri ilə məşğul olan elmi sistem.

***Kino tənqidçisi*** – yeni kino nümunələrinin dəyərləndirilməsi sahəsində ixtisaslaşmış mütəxəssis. Kino tənqidçisinin əsas vəzifəsi təkcə kino nümunəsini təhlil etmək yox, ideya-bədii yenilik və quruluş orijinallığını, tamaşaçı gözləntilərini nə dərəcədə doğrultduğunu göstərməkdir.

***Kinoda montaj planı*** – ilkin rejissor ssenarisi əsasında, kadrların montaj olunacağı ardıcıllığı əks etdirən, çəkiliş dövrünün məcmusu nəticəsində tərtib olunmuş yoxlama postprodakşn (istehsalsonrası) sənədi. Bu zaman çəkiliş zamanı rejissor ssenarisindən yayınmalar, hər kadra aid konkret mətn, səs-küy və musiqi nəzərə alınır. Montaj planı, həmçinin, ssenarisiz film çəkilişləri zamanı (məsələn, hadisəli sənədli kino) detallaşdırılmış rejissor ssenarisi kimi də tərtib oluna bilər.

***Kinoda müəllif hüququ*** – Kino sahəsində intellektual və yaradıcılıq fəaliyyətinin istifadə və yayılma haqqını özündə saxlayan, qanunvericiliklə tənzim olunan hüquq. Bu hüquq

müəlliflik adının saxlanmasına və plagiyatdan mühafizəyə imkan verir. Kinoda ilk rəsmi hüquq müdafiəsi hadisəsi ABŞ Ali Məhkəməsinin 1907-ci ildə çıxardığı qərar sayılır. “Lyu Uollesin vərəsələri Frenk Ouks Pouz və Sidni Olkotta qarşı” məhkəmə işində “Ben Qur” filminin ssenarisinin Lyu Uollesin eyniadlı romanından plagiyat olduğu iddiası qaldırılır və iddia sübuta yetirilərək təsdiqini tapır.

***Kinoda reklam*** – 1. filmin reklam yerləşdirilmə yeri kimi istifadə edilməsi: a) filmə aidiyyatı olmayan kadrların filmə montaj edilməsi; b) kinoseansın və telenümayişin əvvəlində filmdən öncəki reklam vaxtının satılması;
2. kinofilmin reklam kompaniyasının özünəməxsus üsulu -dop, kinoplakat, afişa, prevyu, teqlayn, tizer, treyler, feyk-treyler.

***Kinoda reytinq*** – 1. kinoda reklamın bir növü; tamaşaçılar arasında məşhur olan filmlərin mütəmadi olaraq yenilənən siyahısı.
2. telereklam yerləşdirmə bazarında televerilişin, filmin, nümayişin mövqeyi.

***Kinoda tryuklar*** – 1. kinoda akrobatik nömrələr, travma təhlükəsi olan hərəkətlər. Peşəkar səviyyədə kaskadyorlar tərəfindən icra olunur.
2. “uydurma”, “hiyləgərlik” anlamında; kombinə edilmiş çəkiliş yolu ilə alınan və tryuk kinosunun əsasında duran xüsusi effektlər.

***Kinoda üslub*** – film formasının qurulmasında yanaşmaların vahidliyi.

***Kinoekspedisiya*** – natura və pavilyon çəkilişlərinin aparılması üçün çəkiliş qrupunun kino təchizatı ilə birgə kinostudiyadan kənara çıxmasının təşkilati-texniki forması.

***Kinofestival*** – qitələrarası, beynəlxalq, milli, regional statuslara malik olub kino sənəti nümunələrinin yaradıcılıq müsabiqəsi. Hal-hazırda dünyada ən nüfuzlu kino festivalları Beynəlxalq Kann Kino Festivalı, Beynəlxalq Berlin Kino Festivalı, Beynəlxalq Venesiya

Kino Festivalı, London Kino Festivalı, Torontoda keçirilən Beynəlxalq festival, Beynəlxalq Moskva Kinofestivalı. Adətən ildə bir dəfə, bəzən ildə 2 dəfə keçirilir.

***Kinofilm*** – nümayiş üçün nəzərdə tutulmuş kinematoqraf nümunəsi. Adətən bu ad altında tammetrajlı filmlər nəzərdə tutulur.

***Kinofuturistika*** – kinoda futurologiyanın sosial-siyasi və estetik ideyalarının ötürücüsü olan janr-üslubi kompleks. Futuristik filmlər Yer kürəsinin və bəşəriyyətin gələcək taleyini, həmçinin "alternativ" gələcəyi əks etdirir.

***Kinogeniya*** – ilk dəfə impressionist rejissor Lüi Del Lük tərəfindən "Fotogeniya" (1921) kitabında işlənən kino-televiziya termini; fotogeniya termini altında aktyorun xarici görünüşünün obrazyaratmada rolu önə çəkilməsi anlaşılır.

***Kinogöz*** – kinoda bədii təfəkkürü inkar edən, sənətin əsas məqsədini həqiqətin sənədləşdirilməsində görən nəzəriyyə. 1919-cu ildə Dziqa Vertov, həyat yoldaşı Yelizaveta Svilov və bir neçə gənc rejissor "Kinogöz" qrupunda birləşdilər. 1922-1923-cü illərdə başda Dziqa Vertov olmaqla "kinogöz"çülər öz manifestlərini elan edirlər. Bu nəzəriyyənin əsas tərəfdarları D.Vertovun "Kinoapparatlı adam" sənədli filmi üzərində işləyənlər idi.
Kinogöz nəzəriyyəsi xronika-sənədli kinematoqrafda və montaj nəzəriyyəsində çoxsaylı eksperimentləri ilə seçilirdi. "Kinogöz=kinokamera obyektivi" şüarı ilə çıxış edən "kinogöz"çülər kameranın həyatı insan gözündən daha yaxşı görüdüyünü iddia edirdilər. Onların kino qarşısında qoyduqları əsas tələblər aşağıdakılar idi:

– yüksəkhissiyyatlı kinolent
– yüngül əl kamerası
– yüngül işıqlandırma cihazları
– yüksək cəldliyə malik kinooperator komandası
– cəld hərəkətetmə vasitələri

“Kinogöz” nəzəriyyəsinə əsaslanan filmlərdə aktyorlar, rekvizitlər, pavilyon çəkilişləri, dekorasiyaların işlənməsinə qadağa qoyulurdu.

***Kinoxəta*** – hazır filmdə müşahidə olunan ssenari, operator və ya montaj qüsuru: kadrda mikrofon və ya artıq kölgə, aktyorun bir dublda iki fərqli qrimdə montajı və s.

***Kinoxronika*** – reportaj və kinojurnalın bir forması olub sənədli kino janrıdır. Cəmiyyət, müəyyən qurumlar, dövlət üçün aktual və mühüm olan hadisələrin və proseslərin əbədiləşdirilməsi məqsədilə çəkilmiş və ya montaj olunmuş kinotəsvir.

***Kinojurnal*** – 1. adi danışıq dilində kino barədə virtual və ya çap şəklində jurnal.
2. kino janrı. Qısametrajlı sənədli və oyun kinosu janrı. Həmçinin, 10-15 dəqiqəlik oxşar üslubda və vahid başlıq altında çəkilmiş əyləncəli, maarifləndirici, təbliğati süjetə malik kino seriyası. Janrın klassiklərindən yumoristik “Yeralaş” uşaq kinojurnalı, satirik “Fitil” kinojurnalını göstərmək olar.

***Kinokamera*** – kino cihazı növü. Görmə sisteminə malik obyektivdən, ötürücü mexanizmdən, obtüratordan, lentuzadan (atlama) mexanizmindən ibarət olan kinolent çəkilişi aparatı.

***Kinokameranın hərəkəti*** – kinoçəkiliş aparatının çəkilən obyektə və ya məkanın koordinat sisteminə nisbətdə yerləşdirilməsi yolu ilə kadrdaxili hərəkətin yaranması və ya transformasiyası üsullarının məcmusu. Kinokameranın hərəkəti təsviri və dramatik növlərə bölünür. Təsviri kinokamera hərəkəti hərəkətsiz müşahidəçi baxışına uyğun gəlir. Dramatik kinokamera hərəkəti hərəkətli müşahidəçi baxışına uyğun gəlir və personajlararası münasibəti nizamlayır.

***Kinokameranın görmə sahəsi*** – obyektiv qarşısındakı real məkanın kinokamera obyektivinin görmə dərəcəsi ilə məhdudlaşdırılmış hündürlüyü, eni və dərinliyi.

***Kinoqiraət*** – film nümayişi zamanı bədii-ifadəli deklamasiya mətni. Estrada və kinematoqrafın sərhəddində dayanan erkən lal film kinematoqrafı dövründə filmin səsləndirilməsi və şərhinin xüsusi üsullarından olub. Lal kinematoqrafik nümunələrin səsləndirilməsinin sadə və ibtidai vasitələrindən sayılıb və kinodeklamator vasitəsilə səsləndirilib.

***Kinoqurğu*** – kinolentin tamaşaçı qarşısında proyeksiyası üçün stasionar və ya hərəkətli texniki avadanlıq kompleksi.

***Kinolent*** – kinoproyektorun və ya kinokameranın lentdartan mexanizmilə kontakt yaratmaqdan ötrü bir və ya hər iki tərəfi perforasiyaya malik işığa həssas qatla örtülmüş, təsvirin fotokimyəvi yazılışı üçün istifadə olunan rulon halında material. Səsli, rəngli və ağ-qara təsvirlərin optik yazılmasına imkan verir. Aşağıdakı ölçülərdə olur: 8mm (həvəskar kino), 16 mm (prokat üçün nəzərdə tutulmuş film surətləri, televiziya çəkilişi və videoçəkiliş), 35 mm (standart format, anamorf genişformatlı çəkilişlər), 70 mm (genişformatlı çəkilişlər).

***Kinomexanik*** – kinonun quruluşuna xidmət edən kino avadanlığı və kinoteatrla işləyən şəxs.

***Kinonovella*** – 1. kino janrı. Adi həyat ritmini pozan qeyri-adi hadisəli süjetə malik qısametrajlı film. Bir filmin müstəqil hissəsi sayılan və mövzu cəhətdən bitkin film.
2. nəzəri əsasları Sergey Eyzenşteyn tərəfindən işlənmiş ədəbi ssenari növü. Gələcək filmin gələcək tamaşaçılara danışılması formasında öz əksini tapan kiçik həcmli ssenari yazılışı forması.

***Kinopovest*** – filmin fabulasının bir və ya bir neçə insan həyatının tarixi və sosial hadisələr fonunda cərəyan etməsindən ibarət janr.

***Kinosalnamə*** – müəyyən vaxt ərzində dəyişikliyə məruz qalan ümumi personajların və ya mənzərənin (eyni küçə, teatr, ekosistem və s.) mütəmadi çəkilərək montaj edilmiş kadrlarından ibarət sənədli film janrı.

***Kinoseans*** – filmin pulsuz və ya birdəfəlik ödənişlə kineteatr, kino-klub və ya baxış zallarında nümayişi.

***Kinositat*** – film dramaturgiyasının elementi. Bir filmdə digər filmin, digər incəsənət növlərinin, tarixi kontekstin obraz və süjet istiqamətlərinin işlənməsi. Xüsusi sitat (açıq, birbaşa asılılıq), parafraz (bədii cəhətdən iflasa uğramış asılılıq), allüziya (tipoloji müqayisə) və reminisensiya (dolayı asılılıq) kimi növləri var.

***Kinostudiya*** – kino sənayesinin əsas istehsal məkanı. Öz kadrları və maddi-texniki bazasına malik kino istehsalı üzrə ixtisaslaşmış müəssisə. Kinostudiya film istehsalının bütün mərhələlərini və ya hər hansı bir mərhələsini həyata keçirə bilər.

***Kinoşünas*** – sənətşünaslıq peşəsi. Filmləri kino sənəti nümunəsi kimi peşəkarlıq nöqteyi-nəzərindən xarakterizə edən, reallığın kinematoqrafik əksinin tarixi və bədii qanunayğunluğunu tədqiq edən mütəxəssis-analitik.

***Kinoteatr*** – kinoprokat sahəsində ixtisaslaşmış müəssisə. Binaya, kinoseansların keçirilməsi üçün daimi avadanlığa (kassa, qarderob, ekranlı tamaşaçı zalı) malik məkan.

***Kinotoplu (kinoalmanax, kinoantologiya)*** – seçilmiş mövzu əsasında ("11 sentyabr" 2002; "Hər kəsin öz kinosu" 2007) və ya bir rejissor tərəfindən çəkilmiş və bir tammetrajlı filmdə birləşmiş qısametrajlı filmlər toplusu ("Yerdə gecə" /Cim Carmuş, 1991; "Buket"/ Frantişek Antonina Brabes, 2000).
Həmçinin kinomanifest və kinomüsabiqə forması ("20 yaşda sevgi" – Fransua Trüffo, Renso Rosselini, Sintaro İsixara, Marsel Ofüls, Anje Vayda; "Dünyanın ən gözəl oğruları" – Jan-Lük Qodar, Klod Şabrol, Udo Qreqoretti, Xiromitsu Xorikava, Roman Polanski; "RoQoPaQ" – Roberto Rosselini, Jan-Lük Qodar, Pyer Paolo Pazolini, Uqo Qreqoretti ).

***Klip*** – özünəməxsus vizuallığa malik olub xüsusi qavrama tipi formalaşdıran asossiativ mikrofilm janrı. Adətən, musiqi-mahnı

ideyasının klip montajı texnikası vasitəsilə vizuallaşdırılması kimi nəzərdə tutulur.

***Klip kinoestetikası*** – filmin vizual sırasında obrazların fasiləsiz dövr etməsi. Klipin dağınıq, fraqmentar, qismən reallıq kimi xüsusiyyətləri bütün elementləri vahid tamda sintez etməyə çalışan insanın iştirakını çıxdaş edir (“Delikateslər” /Jan Pyer Jene və Mark Karo, 1990; “Qaç, Lola, qaç” /Tom Tıkver, 1998).

***Klip montajı*** – quraşdırma montajın ekspressiv növlərindəndir. Daha çox televiziya və estrada nümunələrində istifadə olunub, kinoda aşağıdakı müxtəlif vizual effektlər əldə etməkdən ötrü istifadə edilir:

- qəddar səhnəni ani, ötəri göstərməkdən ötrü;
- musiqili klip ritmini stilizə edərək yüngüllük təəssüratı, mürəkkəb quruluşlu səhnələrdə eynizamanlı hərəkət təəssüratı yaratmaqdan ötrü;
- ziddiyyətli təsvirləri (məsələn iri planda gözəl və çirkin sima) bir yerdə göstərərək daxili eyniyyət və qarşılıqlı çevrilmə təəssüratı yaratmaqdan ötrü.

***Kollaj*** – montaj keçidi məqamlarının qəsdən aydın göstərilməsilə müşayiət edilən, texnoloji cəhətdən müxtəlif növlü təsvirlərin montajı.

***Kolliziya*** – şəxsiyyətlərarası və ictimai münasibətlər sistemində əks qüvvələrin, maraqların, istəklərin toqquşması. Adətən, konfliktin yaranmasına səbəb olur.

***Kolluqda royal*** – adətən ssenari müəllifinin çarəsizliyindən xəbər verən, filmin dramaturgiyasının fabula elementinin obrazlı adı. Kolliziyanın və konfliktin birdən-birə filmə daxil edilmiş, heç bir məsələylə əlaqəsi olmayan obraz tərəfindən həll olunmasını ifadə edən istehzalı ədəbi, teatral termin. Belə ki, ekşn janrlı filmdə qaçan qəhrəmanlar mütləq yolda sahibsiz, benzinlə dolu yarış maşınına

rast gəlir, sabun operalarında qəhrəmanların çoxdandı gözlənilən nigahı qızın 50 seriya əvvəl ayrıldığı sevgilisinin gəlişiylə pozulur.

***Koloristik həll*** – dramaturji obraz və rejissor ideyasının daha parlaq ifadəsi üçün materialın rəssam və ya operator tərəfindən təsviri-rəng düzümünün həyata keçirilməsi.

***Kolorizasiya (rəngləmə)*** – kadrların müəyyən texnologiya ilə rənglənməsi vasitəsilə ağ-qara kinofilmə rəng qammaları əlavə etməklə ortaya çıxan düzəliş növü. İlk rəngli film Ferdinand Zekkanın “Məsihin həyatı və ehtirasları” (1905) filmi sayılır. Kolorizasiya ABŞ-da kinostudiyaların marketinq proqramlarına daxil olaraq tarixi-mədəni fonddakı filmlərin satışının artırılmasına yönəlib. Rusiyada ilk böyük kolorizasiya işi Sergey Eyzenşteynin “Potyomkin zirehli gəmisi” (1925) filmində Rusiya bayrağının qırmızıya rənglənməsi olub. Azərbaycan kinematoqrafında “Arşın mal alan filmi” 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə rənglənərək nümayişə buraxıldı.

***Kombinə edilmiş çəkiliş*** – 1. geniş mənada: real həyatda nə məkan, nə də zaman cəhətdən uyuşmayan və ya fərqli miqyaslara malik olan müxtəlif obyekt təsvirlərinin bir ortamda, proporsional miqyasla formalaşdırılmasını həyata keçirən xüsusi vizual effekt növü.
2. dar mənada: bir aktyorun kadrda iki rolu eyni vaxtda oynamasına imkan verən xüsusi çəkiliş effekti növü.

***Komediya*** – müxtəlif üsullar və formalarla tamaşaçıda komik effekt yaradan kino janrı; komedik effekt yaratmaqdan ötrü adətən teatrlar üsullardan (qrotesk, replika və s.) istifadə edilir. İlk kinokomediya Maks Linderin “Ailə həyatının çətinlikləri”, “Maks – tanqo professoru” (1912) hesab edilir. 1920-ci ildən başlayaraq Çarli Çaplin, Baster Kiton, Harold Lloyd kimi komediya ustaları meydana gəlməyə başladı.

***Komiks*** – 1. dar mənada: animasiya və bədii oyun kinosu janrı. Komiks (şəkillərdə hekayə) əsasında çəkilmiş film. Müasir komiks janrı özündə boevik və fantastikanın elementlərini birləşdirir.

2. geniş mənada: komiksə xas olan özünəməxsus mədəniyyət və üslubu əks etdirən kino nümunəsi ("Barbarella" /Roje Vadim 1968; "Yuxulu oyuq" /Tim Börtn 1999).

***Kompilyasiya (tərtib)*** – digər filmlərin fraqmentlərindən ibarət olan icmal xarakterli film

***Konflikt*** – fəaliyyət subyektlərinin cərəyan edən kolliziya gedişatında birbaşa və ya dolayı yolla toqquşması.

***Konstruktiv montaj*** – bədii montaj apparatının elementi. Montaj frazalarının tamaşaçının kinofilmi psixoloji qavraması nöqteyi-nəzərindən redaktəsi. Bu zaman montaj kadrlarının elə uzunluq və əvəzlənməsini götürürlər ki, tamaşaçı onların məzmununu anlasın və zaman-məkan fasiləsizliyinin təhrifini düzgün qiymətləndirsin.

***Konvensional üsul*** – qeyri-düzxətli təhkiyədə konstruktiv montaj üsulu (axın, tutqunlaşma və s), montaj keçidlərinin semiotik işarələnməsi. Bu üsul tamaşaçıya kino qəhrəmanının subyektiv vəziyyətləri (ayıqlıq və yuxu, reallıq və kabus, reallıq və xəyal, müasirlik və yaddaş) arasında sərhəddi görməyə imkan verir. Konvensional üsuldan ilk olaraq imtina edənlər arasında İnqmar Berqmanın adı çəkilir ("Çiyələk talası", 1957). Konvensional üsuldan tam imtinanın nəticəsini Federiko Fellininin "Səkkiz yarım" (1963) şedevrində görmək olar. Filmdə reallıq və yuxuda baş verən hadisələr, fantaziya və xatirələr arasında heç bir sərhəd yoxdur. Məhz bunun sayəsində ekranda ilk dəfə olaraq individual insan düşüncəsinin, şüur axınının tarixi göründü.

***Korporativ kino*** – sənədli film janrı. Hər hansı müəssisənin, layihənin fəaliyyəti barədə təqdimat və ya yubiley xarakterli film. Korporativ kino, adətən, sosial reklam, arxiv xronikası xarakterli olur.

***Kostyumçu*** – çəkiliş prosesində kostyumların istifadəsinə, onların personajlar və kütləvi səhnə iştirakçıları arasında paylanmasına nəzarət edən, geyim rəssamının göstərişlərini həyata keçirən peşə sahibi.

***Kriminal film*** – kriminal aləm nümayəndələrinin başına gələn hadisə və əhvalatlardan bəhs edən bədii oyun filmi janrı ("İkinci nəfəs"/ Jan-Pyer Melvil 1966; "Kriminal mütaliə"/ Kventin Tarantino, 1994).

***Kugen qanunu*** – 1930-cu ildə ABŞ-da uşaq-aktyorlara qonorar ödənilməsini tənzimləyən qanunverici akt. Qanunun adı 1921-ci ildə Çarli Çaplinin "Balaca" filmində eyniadlı rolu oynayan Ceki Kugenin soyadından götürülüb.

***Kuleşov effekti*** – 1910-cu illərin sonlarında Lev Kuleşov tərəfindən kəşf edilmiş, montaj quruluşunun tamaşaçılar tərəfindən qavrama xüsusiyyəti. Növbəti kadrın məzmunu öncəki kadrdan asılı olaraq şərh olunan iki kadr arasında semantik əlaqə uyuşması.

***Kuliminasiya*** – təhkiyədə ən yüksək gərginlik nöqtəsi. Konfliktin ifşa və ya həlli məqamı.

***Kult film*** – 1. geniş mənada: bir və ya bir neçə nəsil üçün ictimai şüur faktı olub ideya və estetik aləmdə aktual inqilabi dəyişikliklər məcmuəsini əks etdirən film ("Son nəfəsdə"/ Jan-Lük Qodar, 1959).

2. dar mənada: müəyyən ideya-estetik görüşlərə malik sosial qrup və ya insanlar tərəfindən qeyri-şərtsiz qəbul edilən film.

***Kütləvi kino*** – kütləvi mədəniyyətin tələbatına uyğun olan məhsul istehsal edən kinematoqraf sahəsi. Digər adı "popkorn-kino"dur.

***Kütləvi səhnə*** – kinoda quruluş fəaliyyəti növü. Çox sayda insanların (parad, döyüş, bayram və s. səhnələrdə) kollektiv fəaliyyətini və ya hər hansı hadisəyə kollektiv münasibətini əks etdirən səhnə. Kütləvi səhnə iştirakçıları individual rola malik olmayıb

rollu aktyorların ətrafındakı məkanın insanla doldurulmasında iştirak edirlər.

## Q

***Qanqster filmi*** – ABŞ-da yaranmış film janrı (Devid Uork Qriffiti "Donuz xiyabanının muşketyorları" 1912). Qanster filmləri əsasən mütəşəkkil cinayətkarlıq aləminin daxili sosial və psixoloji ziddiyyətləri üzərində qurulur. Janrın klassikləri "Balaca Sezar" (Mervin Leroy 1931), "Xalq düşməni" (Uilyam Uelman 1932), "Çapıqsifət" (Hovard Hoks 1933) sayılır. Yaponiyada qanqster filmlərinin alternativi yakudza-eyqa adlanır.

***Qapalı baxış*** – film sənayesi nümayəndələri üçün rəsmi premyeradan əvvəl təşkil olunan nümayiş. Əsasən, kinotənqidçilər, jurnalistlər, prokat təşkilatı nümayəndələri və ictimai rəyin formalaşmasına təsir göstərən şəxslər dəvət olunur.

***Qaranlıqdan çəkiliş*** – tutqunlaşmanın bir növü kadrın qaranlığından tədricən üzə çıxan təsvir; filmin və ya səhnənin başlanğıcını, yaxud da subyektiv kamera ilə çəkiliş zamanı qəhrəmanın huşunun özünə gəlməsini göstərmək üçün istifadə olunan ənənəvi üsul.

***Qara dalğa*** – yuqoslav kinematoqrafında kinoda sosial realizmə qarşı çıxan axın.

***Qara komediya*** – tabulaşmış şəxsi-intim (ölüm, ağrı, fiziki eybəcərlik və əlillik, dəlilik, cinsi əxlaqsızlıq) və sosial-siyasi (din və dini inanclar, millətçilik, milli və irqi ayrıseçkilik) mövzularda "qara yumor"dan istifadə olunan komediya növü ("Parisi yeyən avtomobillər" /Piter Uir, 1974; "Addamslar ailəsi" /Barri Zonnenfeld, 1991; "Delikateslər" /Mark Karo və Jan Pyer Jene, 1991).

***Qeyri-xətti montaj*** – xronoloji etibarlılığı və ardıcıllığı pozmaqla şərti kinematoqrafik zaman və məkanda təhkiyə formalaşmasına imkan verən motaj növü. Texniki cəhətdən çəkiliş kadrlarının montaj fazalarına qədər ixtisarı.

***Qeyri-xətti təhkiyə*** – 1. kinotəhkiyənin dramaturji cəhətdən mürəkkəb forması. İnsanın ənənəvi (ardıcıl, xətti) təhkiyəyə uyğun fəaliyyətinin strukturunu yox, xatirələrinin və personajların sərbəst birliyinin strukturunu əks etdirir (“Keçən il Marienbeddə”/ Alen Rene 1961; “Səkkiz yarım” /Federiko Fellini, 1963). Qeyri-düzxətti təhkiyədə bəzən konvensional üsullardan istifadə edilmir.
2. təhkiyənin kompozisiya təşkilatlanması yolu olub retrospektivlərdən və yığma kinonovellalardan istifadə yolu ilə yaranır.

***Qələm-kamera*** – ilk dəfə fransız rejissoru və ssenaristi Aleksandr Astrük tərəfindən 1948-ci ildə “Qələm-kamera: yeni avanqardın doğulması” essesində işlədilən sənətşünaslıq termini. Bu esse müəllif kinosu nəzəriyyəsinin fransız yeni dalğa kinematoqrafçıları tərəfindən işlənməsində, həmçinin rejissor və operatorların individual kinematoqrafik dilinin inkişafında ideya katalizator rolu oynayıb. Qələm-kameraya həmçinin, yeni bədii ifadə vasitələri axtarışında olan indvidual çəkiliş üslubu kimi də baxmaq olar.

***Qəzəbli gənclər*** – 1959-1968-ci illər Böyük Britaniya bədii kinematoqrafında aparıcı axınlarından biri olub sənədli kinodan gələn “azad kino” nümayəndələri tərəfindən yaradılmışdır. Qəzəbli gənclər təbii həyat şəraitində mənsub olduğu təbəqədən asılı olmayaraq şəxsiyyətin mahiyyətini araşdırırıdılar. Bu ad 1956-cı ildə Toni Riçardsonun tərəfindən səhnələşdirilən, 1958-ci ildə isə ekranlaşdırılan Con Osbornun “Qəzəblə geri bax” pyesindəki sitatdan götürülmüşdür. Axının nümayəndələri: Toni Riçardson, Cek Kleyton, Karel Reyş, Con Şlezinqer, Lindsey Anderson.

***Qısa plan*** – cəmi bir neçə metr kinolentə sığan qısa çəkiliş kadrı.

***Qısametrajlı film*** – qısa xronometraja malik (adətən 30-45 dəqiqə) bitmiş bədii oyun və ya sənədli film nümunəsi.

***Qorxu filmi*** – tamaşaçının kəskin hisslərə tələbatını qorxu və dəhşət vasitəsilə ödəyən kinojanr. Qorxu filmlərində film dramaturgiyasının aşağıdakı üsullarından istifadə olunur: avtobus, reaktiv kadr, saspens və pornoqrafik realizm.

***Qotik üslub*** – idealist dünyagörüşü, gündəlik məişət çərçivəsindən çıxan hadisələrin dərkinə cəhd edən üslubi istiqamət. Orta əsrlər qotik arxitektonikasının ("görmə konstruksiyası") formanın demateriallaşdırılması, rasionallıqdan məhrum edilməsi kimi estetik xüsusiyyətlərini istifadə edir. Üslubun xarici əlamətləri – ağ-qara kinoda süni quraşdırma işıqlandırma, rəngli kinoda disharmonik rəng palitrası, hissi gərginliyin simvolika vasitəsilə verilməsi – kinoda incə sirliliyin, özünəqapalılığın, depressiv əhval-ruhiyyə atmosferinin təsviri üçün istifadə edilir ("Turistlər üçün tələ" /Devid Şmoller, 1979; "Adamslar ailəsi"/ Barri Zonnenfeld, 1991).

***Qrayndhaus*** – 1. Amerikada bir seansa iki B-movie seriyasından film göstərən kinoteatr.
2. kinematoqrafda janr-kompozisiya forması. Adı Kventin Tarantino və Robert Rodrigezin eyniadlı layihəsindən götürülüb. İki rejissorun eyni kino üslubu çərçivəsində çəkilmiş və yaradıcı rəqabət dueti olub, eyni vaxtda nümayiş edilən filmi. Daha geniş anlamda vahid çarpaz süjetə malik olub iki fərqli janra aid edilən filmin dramaturgiyasını bildirir ("Qürubdan dan yerinə qədər" /Robert Rodrigez, 1996; "Paraqraf 78" /Mixail Xleborodov, 2007).

***Qrim*** – xüsusi effektlər: xarici görünüşü dəyişdirən əşya və predmetlərin (makiyaj, tatuaj, qoyulma bığ, saqqal, süni caynaqlar, çapıqlar və s.) məcmusu vasitəsilə aktyordan obraz yaradılması, həmçinin obraza uyğun üz və bədən üçün xüsusi hazırlanmış maskalar.

***Qrotesk*** – 1. gözəllik və eybəcərliyin, tragik və komikliyin uyğunlaşdırma və toqquşdurulması yolu ilə ortaya çıxan komediya üsulu.
2. film-pritçanın əsas üsullarından olan üslubi rəng. Qroteskin tətbiqinin nəticəsi hərfi qiymətləndirmə və yozuma əsaslanmır, ziddiyyətlərin artmasına gətirib çıxarır. Qrotesk manevrində Anjey Munkun “Çəpgöz xoşbəxtlik” (1959), Yoss Stellinqin “Elkerlik” (1975), “İllüziyaçı” (1983), “Uçan holland” (1995) filmləri çəkilib.

***Qurbağa perspektivi*** – kinematoqrafın ifadə vasitələrindəndir. Xüsusi çəkiliş nöqtəsi olub kameranın obyektə münasibətdə ən aşağı vəziyyətdə yerləşdirilməsidir. Bu zaman aşağıdan yuxarıya doğru çəkiliş obyektin perspektiv ölçülərini təhrif edir ki, bu da nəhənglik effekti yaradır.

***Quruluşçu rejissor*** – kinoda peşə; film istehsalının bütün – həm bədii, həm də texniki proseslərinə nəzarət edən rejissor. Bu, həm müəllif filmində, həm də prodüsser filmində professional rejissorluq modelidir. Sadəcə, müəllif filmində rejissor öz ideya-bədii konsepsiyasına, prodüsser filmində isə maliyyə məsələlərini həll edən prodüsserin sifarişinə tabedir.

***Quruluşçu rəssam*** – kinoda peşə; rejissorun bədii ideyalarını vizuallaşdıran şəxs. İrihəcmli işlərdə quruluşçu rəssamın rəhbərliyi ilə müxtəlif peşə sahibləri – geyim üzrə rəssam, qrim üzrə rəssam, rekvizit üzrə rəssam, təbiət obyektləri üzrə rəssam, kombinə edilmiş çəkilişlər rəssamı və s. birgə iş görür.

## L

***Lal kino*** – 1. səsli kinonun yaranmasına qədər (1920-ci illərin sonları 1930-cu illərin əvvəlləri) kino sənətinin ilkin inkişaf mərhələsi. Həmçinin, şərtiliyin özünəməxsus növünə, xüsusi ifadə

vasitələrinə – dramatikləşdirmə funksiyalı montaj, pantomima elementlərindən istifadə edən xüsusi teatral maneralı aktyor oyununa, teatr quruluşuna malik olan və ədəbi əsaslardan asılı olan kino sənəti növü.
2. kinoya səsin gəlməsinə qədər film çəkilişi texnikası və ya bu texnikaya əsaslanaraq çəkilmiş repertuar. Ancaq personajlar tərəfindən səsləndirilən replikaların mövcud olmaması heç də filmin lal film olduğuna dəlalət etmir. Bəzi poetik və ya avanqard filmlərdə personajların özünəməxsus lallığı, qeyri-verbal ünsiyyəti bədii ideyanın bir hissəsi ola bilər ki, bu filmlərdə ya ümumiyyətlə sözə ehtiyac olmur, ya da sözlər ifadəli pantomima ilə əvəz olunurlar (Jan Jene "Sevgi nəğməsi", 1950; "İllüziyaçı" /Yos Stellinq 1984). 1980–ci illərdən başlayaraq lal kino çəkiliş texnikası və üslubi vasitələri kütləvi avanqard və müəllif kinosunun ifadə vasitələri arsenalına daxil olur ("Sonuncu atış bunkeri" /Jan Pyer Jene və Mark Karo, 1981; "Həkim Plonk" /Rolf de Heer, 2007). 2010–cu ildə isə meynstrim kinosunda da lal kino üslubunu tətbiq etməyə cəhd edilir ("Artist" /Mişel Hazanaviçus).

***Lent kinematoqrafı*** – mövcudluğu və texnologiyası birbaşa kinolentlə bağlı olan klassik kinematoqraf.

***Libasdəyişmə*** – cinsi maksimum dərəcədə dəqiq təqlid edən rol növü. İki formada təzahür edir: 1. Adətən komik səciyyə daşıyaraq personajın məcburən, çıxılmaz vəziyyətdə canlandırılması ("Cazda yalnız qızlardır"/ Billi Uaylder, 1959; "Salam, mən sizin xalanızam"/ Viktor Titov, 1975; "Tutsi"/ Sidni Pollak, 1982); 2. Aktyorun rolunu yaradıcılıq nöqteyi-nəzərindən canlandırması (Georgi Millerin ifasında Baba Yaqa, Oleq Tabakovun "Görüşənədək, Meri Poppins!" filmində rolu; "Mən orda yoxam" filmində Keyt Blanşet Bob Dilan obrazında və s.).

***Lisenziyalı buraxılış*** – filmin lisenziya əsasında tirajlanması. Lisenziyalı buraxılış qarşısında yüksək təsvir və səs keyfiyyəti tələbi qoyulur.

***Lokallaşdırma*** – kino sənayesində postprodakşn forması. Xarici kinoməhsulun yerli bazarın, dilin, mədəniyyətin tələblərinə uyğunlaşdırılması. Məsələn, kadrdakı reklam plakatlarındakı, lövhələrdəki yazıların subtitrlər vasitəsilə yox, birbaşa kadrda montajı yolu ilə tərcüməsini misal göstərmək olar.

***Lollivud*** – Pakistan kino sənayesini özündə birləşdirən məkan; Pəncab vilayətinin paytaxtı.

***London Kino Festivalı*** – 1957-ci ildə Britaniya Kino İnstitutu tərəfindən əsası qoyulan kino festivalı. Hər il oktyabr-noyabr aylarında təşkil edilir.

***Lumiqraf*** – Oskar Fişinqer tərəfindən 1957-ci ildə ixtira olunan kino cihazı növü. Animasiyalarda işıq effektlərinin verilməsi üçün işlədilir.

## M

***Macəra filmi*** – hadisə filmi, kəskinsüjetli film, bəzən ekşn janrı: qəhrəmanların xarakterlərinin onların qərarverici davranışları və kritik vəziyyətlər zamanı bəlli olduğu film növü. Boevikdən və hərbi filmdən fərqli olaraq, macəra filmində qəhrəman çox vaxt təbiət qüvvələri (o cümlədən mistik qüvvələr) ilə qarşıdurmada təsvir edilir və düşdüyü çətin vəziyyətdən çıxmaq üçün qeyri-adi yollar axtarılır. Bu janr üçün kəskin gərginlik səciyyəvidir ("Zorro"/ Duçço Tessari, 1974; "İndiana Cons: itirilmiş mücrünün axtarışında"/ Stiven Spilberq 1981).

***Mak-Qaffin*** – filmin dramaturgiyasında özünəməxsus element olub süjetin quruluş üsuludur. Mahiyyəti tamaşaçıya qaranlıq qalan sənəd və ya əşya olub kolliziyanın açılmasına xidmət edir. Mak-Qaffinə misal olaraq Kventin Tarantinonun "Kriminal mütaliə"

filmində qanqsterlərin təqib etdiyi və içindəkinin tamaşaçıya məchul qaldığı qara çemodanı göstərmək olar.

***Maket çəkiliş*** – memarlıq qurğularını və komplekslərini, iriölçülü mexanizm və müxtəlif obyektləri ekranda əvəz etmək üçün onların kiçildilmiş modellərinin, miqyaslaşdırılmış maketlərinin çəkilişi.

***Materialın temporitmik təşkili*** – "tamaşaçı kinosu" üçün əsas olan təhkiyə hərəkətinin sürəti və ritmi, obrazlar sistemi və səs sırası ilə kadrların əvəzlənməsinin həmahəngliliyi.

***Mavi ekran*** – çəkiliş üçün xüsusi mavi və ya göy monoxromatik fon və ya ekran. 1992-ci idən başalayaraq "yaşıl ekran" termini də istifadə edilir.

***Melodram*** – qəhrəmanın daxili aləminin qəribə, ancaq məişət xarakterli süjet peripetiyaları yolu ilə açıldığı bədii oyun janrı ("Küləklə sovrulmuşlar" /Viktor Fleminq, 1939; "Kasablanka" /Maykl Körtis, 1942; "Kişi və qadın" /Klod Leluş, 1966).

***Metafora*** – bir obyekt və ya obrazın xüsusiyyətinin, hərəkətinin təbiətcə fərqli digər bənzər obyektə və ya obraza köçürülməsi.

***Meynstrim*** – kino sənəti və kino istehsalının məhsulu olub müəyyən novator ideyalara malik, keyfiyyətli rejissor işi, aktyor tərkibində ulduzların çoxluğu, böyük büdcəsi ilə seçilən film. Tədqiqatçılar meynstrimi pafos, sentimentalizm, təhkiyəlilik və s. kimi cəhətlərlə xarakterizə edirlər.

***Məhkəmə dramı*** – dramın altjanrı; məhkəmə prosesinin və araşdırmalarının dramatik kolliziyaların əsas fabulası kimi istifadə olunduğu dram növü ("Adəmin qabırğası" /Corc Kyukor, 1950; "12 qəzəbli kişi" /Sidli Lyumet, 1957).

***Məsafəlilik prinsipi*** – müəllif filmində rejissorluğun ideya-estetik quruluşu olub teatr dramaturgiyasında Bertold Brext tərəfindən işlənmiş "təcrid edilmə/yadlaşma effekti"nin kinematoqrafik ekvivalenti. Tamaşaçının emosional və estetik cəhətdən ekranda baş

verən hadisələrin bütün aspektlərindən uzaqlaşması zamanı miqyasın, hər bir xırda aspektin yenidən dəyərləndirilməsi baş verir, ön plana ümumi və əbədi olan çıxır, xüsusi və ani olan isə əhəmiyyətsizliklər içində aradan çıxır.

***Mikrafon*** – səsin yazılması üçün istifadə edilən kino avadanlığı növü. Kino və televiziyada səsin pavilyon və ya naturada keyfiyyətli yazılmasını təmin edən cihaz.

***Mikrafon-kapsul*** – səsin çəkiliş zamanı birbaşa yazılmasını təmin edən mikrafon növü. Aktyorun baş üzərində yerləşdirilməsi üçün uzun ştativli mikrafondan ibarətdir.

***Mikro-film*** – 30 saniyədən bir neçə dəqiqəyə qədər davam edən bitmiş kino nümunəsi. Əsas növləri klip və rolik sayılır.

***Mikrorealizm*** – 1970-ci illər kinematoqrafında üslubi dominant. Bəzədilməmiş, köhnə interyerlərin dekorasiya qismində, "natural qəhrəmanlar"ın (qrimsiz sifət, yağlı saçlar, qulluq edilməmiş dırnaqlar) aktyor qismində əlavə işıqlandırma mənbələrindən istifadə olunmamaqla çəkilişi.

***Mistika*** – adi insanın möcüzəvi dini fenomenlərə münasibətini əks etdirən janr istiqaməti; şüuraltı arxetiplər, ölülərin ruhu haqda ilkin arxetip təsəvvürlərin yer aldığı mistik filmlər daha çox fantastika və dəhşət janrında çəkilir ("Rozmarinin uşağı" /Roman Polanski, 1968; "Omen"/ Riçard Donner, 1976; "Müqəddəs qan" /Aleksandr Xodorovski, 1989; "Zəng"/ Hideo Nakata, 1998).

***Mizan səhnə*** – mizan kadrların rejissor tərəfindən qurulmuş təhkiyə və ideya-məna ardıcıllığı. Mizan səhnənin ilk ustası və nəzəriyyəçisi Sergey Eyzenşteyn hesab edilir.

***Mizan səhnə nəzəriyyəsi*** – fransız kinoşünası Andre Bazen (1918-1958) tərəfindən sovet kino avanqardındakı montaj nəzəriyəsinə qarşı yaradılmış konsepsiya. Kinoda mizansəhnələrin qurulmasının metod və prinsiplərini hazırlayarkən Andre Bazen

mizan səhnəyə müxtəlif məna yükləri verməkdən ötrü üstünlüyü layihələşdirmədən əvvəl montaj frazalarına verirdi.

***Mizankadr*** – bədii oyun kinosunun ümumi xüsusiyyətlərindən olub kadrda aktyorların bir-birilərinə, işıq mənbəyinə, dekorasiyaya, rekvizitlərə, uyğun olaraq kadr dərinliyinə və kinokameranın hərəkətinə nisbətdə rejissor tərəfindən qurulan hərəkəti. Sergey Eyzenşteyn mizankadrı “kadrda quruluş” adlandırıb. Mizankadrlar montaj zamanı mizan səhnəni formlaşdırır. Mizankadrdan imtina bəzən rejissorun estetik proqramının bir hissəsi olur.

***Montaj*** – çəkiliş və səs materialının strukturlaşdırılması. İlk filmlər bir kadrda çəkilirdi. İlk dəfə montajdan 1902-ci ildə amerikalı kinematoqrafçı Edvin Porter “Amerikalı yanğınsöndürənin həyatı” filmində və fransız rejissoru Jorj Melyes kino-fentezilərində istifadə edib. Kinematoqrafın ifadə vasitələrindən olub müxtəlif növləri var: assosiativ montaj, montajsız film, varioekran, vertikal montaj, kadrdaxili montaj, yerdəyişmə montajı, dinamik montaj, distansiyalı montaj, tutqunlaşdırma, kaleydoskopik montaj, klip montajı, kollaj, konstruktiv montaj, xətti montaj, kadrlararası montaj, qeyri-xətti montaj, parallel montaj, çarpaz montaj, quraşdırma montaj, texniki montaj, fraqmentar montaj.

***Montaj fazası*** – montaj üçün seçilmiş kinolent parçalarından ibarət olan ardıcıl kadrlar məcmusu.

***Montaj filmi*** – sənədli, bəzən isə bədii oyun kinosunun janr-texniki növü. Yeni məna və ya səsləndirmə verməkdən ötrü əvvəlki illərin filmlərinin fraqmentlərindən montaj olunmuş film (“Adi faşizm” /Mixail Romm, 1965; “Bu siqareti çəkmə” /Kennet Enqer, 2000).

***Montaj frazası*** – montaj kadrlarının elə ardıcıllığıdır ki, kadrüstü metatəhkiyəyə, yəni əlavə mənanın sintezinə gətirib çıxarır. Təsvirdə birbaşa verilməyən bu metatəhkiyə və ya əlavə anlam ayrıca götürülmüş istənilən kadrın məna ardıcıllığının mexaniki

düzümü (bax: Kuleşov effekti), ya da təsvirlərin toqquşması və müqayisəsi nəticəsində meydana çıxır.

***Montaj kadrı*** – filmin ən kiçik dinamik vahidi. Dubl sırasından seçilmiş bütöv bir fraqment.

***Montaj keçidi*** – çəkiliş prosesi zamanı və ya sonradan montaj yapışdırılması zamanı  filmin ayrı-ayrı epizodlarının birləşdirilməsi. Montaj keçidinin aşağıdakı üsulları var: sıxışdırma, yerdəyişmə, ikili ekspozisiya, tutqunlaşma, yerləşdirmə, axın, fasilə, calaq. Montaj keçdi zamanı tamaşaçı üçün bir kinematoqrafik plandan digərinə keçərkən plan miqyasına əsaslanan montajı qavramaq daha rahatdır.

***Montaj kinosu*** – ilk milli rus kino məktəbi. 1920-ci illər sovet kinematoqrafında avanqard. Quraşdırma montaj və montaj nəzəriyyəsində faktın bədii deformasiyaya uğraması metodlarının işlənməsi sahəsində yenilikçi eksperimentlərlə seçilən avanqard məktəb. Bu məktəbin ən görkəmli nümayəndələri Lev Kuleşov, Sergey Eyzenşteyn, Vsevolod Pudovkin, Dziqa Vertov olub. Montaj kinosuna sənədli faktın yüksək dərəcədə subyekvitləşdirilməsi və şüurlu təhrifi xasdır. Esfiri Şubun filmlərində montaj nəticəsində filmin mənası tamamilə əksinə anlaşılır.

***Montaj nəzəriyyəsi*** – 1920-ci illərdə sovet montaj kinosu klassikləri (Lev Kuleşov, Sergey Eyzenşteyn, Vsevolod Pudovkin, Dziqa Vertov) tərəfindən hazırlanmış konsepsiya. Bu konsepsiya kadrların montaj nöqteyi-nəzərindən uyuşmasını kino sənətinin yaradılmasında əsas prinsip kimi götürür. Andre Bazen montaj nəzəriyyəsinə qarşı mizan səhnə nəzəriyyəsini yaratmışdır.

***Montaj pultu*** – filmin videomontajı və videonəzarəti üçün lazımi avadanlıqla təchiz olunmuş kinotəchizat kompleksi.

***Montaj rejissoru*** – kinoda peşə; əsas montaj həllərini layihələşdirən və görüntünün bütünlükdə tərtibini həyata keçirən mütəxəssis.

***Montaj stolu*** – kinolent fraqmentlərinin ardıcıllığını saxlamaq, yapışdırma və proyeksiyasını həyata keçirməkdən ötrü xüsusi mebel və texniki cihazlarla təchiz olunmuş montajçının iş yeri.

***Montaj vərəqi*** – filmin “texniki pasportu” olub prokatda film surətinin oxunması üçün filmin və fonoqramın xırdalığına qədər kadr ardıcıllığı ilə təsviri.

***Montaj yapışdırılması*** – texniki montajın nəticəsi olub çəkiliş materialı olan kinolent hissələrinin uclarının yapışdırılması. Montaj keçidinin mexaniki növlərindən biri sayılır.

***Montajçı*** – filmin montajı işlə məşğul olan şəxs. Çəkilmiş materialı işarələyir və indeksləşdirir, rejissor ssenarisinə uyğun olaraq filmin ilk montaj variantını yaradır, filmin qaralama və son yığımını həyata keçirir, montaj vərəqini tərtib edir.

***Moskva Beynəlxalq Kino Festivalı*** – əsası 1935-ci ildə Moskvada qoyulmuş, 1997-ci ildən ildə bir dəfə iyunun axırlarında keçirilən müsabiqə kinofestivalı. Əsas mükafatı Müqəddəs Georgiy heykəlidir.

***Multiplikasiya*** – animasiyanın ənənəvi növlərindən olub özündə cizgi animasiyası, kukla animasiyası, kompüter animasiyası üsulları və toxunma animasiya, kollaj animasiya metodları ilə yaranan cizgi filmlərini birləşdirir.

***Musiqi leytmotivi*** – xüsusi olaraq müəyyən film və ya filmlər seriyası üçün yazılmış musiqi. Filmin açar səhnələrində səslənərək kadrdakı məqamın aurasını yaradan kinematoqrafik ifadə vasitələrindən biri.

***Musiqili film*** – personajın lirik əhval ruhiyyəsinin təkcə musiqili fon yox, rəqs-mahnı nömrələri vasitəsilə ötürüldüyü kino janrı. Göstərilən rəqs-mahnı nömrələri film kontekstində dramaturji əhəmiyyət daşıyır (“Qusar balladası” /Eldar Ryazanov, 1962; “Oxuyan qadın”/ Aleksandr Orlov, 1978). Musiqili filmin əsas

xarakterik cəhəti musiqi nömrələrinin estrada xarakterli olub tamaşaçıya yox, film personajlarına ünvanlanması, bəzən musiqili dialoqların istifadəsidir.

***Müəllif kinosu*** – 1. original rejissor ideyası ilə prokat və senzuranın müdaxiləsi olmadan çəkilmiş, ssenarinin ədəbi əsaslardan asılı olmadığı rejissor-sənətkar filmi. Bu anlamda termin ilk dəfə 1950-ci illərdə Andre Bazen və Fransua Trüffo tərəfindən "Kaye dü sinema" ("Cahier du Cinema") jurnalının səhifələrindən kinoşünaslıq praktikasına gətirilib. Belə ki, rejissorlar "müəllif" və "sənətçi" (craftsman) qrupuna bölünən zaman birinci qrupa Rober Bresson, Jak Viqo, Saşa Qitri, Jan Kokto, Marsel Panyol, Jan Renuar, Jak Tati, ikinci qrupa Jülyen Düvivye, Marsel Karne, Rene Kleman, Anri-Jorj Kluzo, Klod Otan-Lara daxil edilirdilər. Xarici rejissorların sırasında Hovard Houks, Cozef Mankieviç, Orson Uells, Con Ford, Alfred Hiçkok, Uilyam Uayler, Badd Bettiker, Otto Premincer, Nikolas Rey, Duqlas Sek, Semuel Fuller, Dziqa Vertov, Aleksandr Dovjenko, Sergey Eyzenşteyn, Roberto Rosselini, Vittorio de Sika, Kendzi Midzoquti, Yasudziro Odzu, Karl Teodor Dreyer, Fris Lanq, Fridrix Vilhelm Murnau, İnqmar Berqman, Luis Bunüel "müəllif", Con Hyüston, Xuan Antonio Bardem, Akira Kurosava, Devid Linç "sənətçi" kateqoriyasına aid edilirdilər. Fransızların nəzəri təsnifatını 1962-ci ildə amerikan kino tənqidçisi Endrü Serris "Amerikada müəllif kinosunun nəzəriyyəsi" adlı işi ilə dəstəklədi.

Müəllif kinosunda quruluşçu rejissor çox vaxt öz üzərinə ssenarist, operator, montajçının da funksiyalarını götürür. Məsələn, İştvaan Qaal "Axında" (1964) filmində ssenarist, operator, montajçı kimi, Lui Mal "Zazi metroda", "Lakomb Lüsyen" filmlərində rejissor, operator, prodüsser kimi də iştirak edir. Pedro Almodovar, Lars Fon Trier filmlərini öz ssenariləri əsasında çəkməyə üstünlük verir.

2. daha geniş anlamda: kinomenecment siyasətinə zidd antihollivud kinosu. Kino – kino sənayesinin məhsuluna qarşı qoyulmuş kino sənəti aktı kimi (yüksək mədəniyyət, yüksək sənət sözünün sinonimi kimi).

***Müəllif proqramı*** – gələcək filmin sinopsisi və müvafiq surətdə qeydiyyatdan keçirilmiş ssenari ideyası.

***Müzikl*** – Brodvey şouları və Avropa vodevilləri əsasında formalaşan, materialın təşkilatlanmasının xüsusi temp-ritmik xüsusiyyətlərinə malik olan musiqili film janrı. Müziklin kuliminasiyası, adətən, parlaq estrada mahnı-rəqs nömrələri formasında özünü göstərir (“Oz ölkəsinin sehrbazı” /Viktor Fleminq, 1939; “Amerikalı Parisdə”/ Vinsent Minnelli, 1951; “Kabare”/ Bob Foss, 1972).

## N

***Natura*** – dekorasiya və yenidən layihələndirməyə ehtiyacı olmayan, öz təbiiliyi ilə dəyərləndirilən pavilyonxarici təbiət və ya şəhər obyektlərindən ibarət çəkiliş fonu. Natura çəkilişləri açıq səma altında, meşə massivində, mağarada və ya su altında təbii işıqlandırma şərtləri altında aparılır.

***Neqativ*** – ekspozisiya nəticəsində alınmış, kinolentdə tünd şəkildə əks olunan təsvir. Ağ-qara lentə çəkilmiş obyektin sahələri tündləşdikcə neqativdə daha açıq rəngdə əks olunacaq, rəngli kinolentdə çəkilmiş obyektin hər bir sahəsi isə real rəngin əlavə spektri rəngində görünəcək (sarı rəng göy, mavi rəng qırmızı kimi və s.). Neqativ, kinokameranın obyektivinə tuş gələn təsvirdən pozitivdəki təsvirə keçid arasındakı aralıq texniki mərhələ sayılır. Bəzən, kinematoqrafın ifadə vasitələrindən biri kimi istifadə olunur: məsələn, “gözlərdə qaralma” montaj frazasını bildirmək üçün; Fridrix Vilhelm Murnaunun “Nosferatu, dəhşətin simfoniyası” (1922) filmində irreallığı ifadə etmək məqsədilə işlədilib.

***Neonuar*** – klassik nuar obrazları və mövzularının müasir reallığa və ya şərti gələcəyə köçürülməsi ilə müşahidə olunan və 1960-cı

illərin sonlarında Amerika, Avropa, Asiya kinematoqrafında yenidən meydana çıxan istiqamət (“Son nəfəsdə”/ Jan-Lük Qodar, 1960; “Pianoçunu güllələyin”/ Fransua Trüffo, 1960; “Çin məhəlləsi”/ Roman Polanski, 1974).

***Neorealizm*** – 1940-cı ilin II yarısı və 1950-ci illərin əvvəllərində italyan kinematoqrafında aparıcı istiqamət olub və bütün sonrakı Avropa kinematoqrafının inkişafına böyük təsiri müşahidə edilib. İtalyan kinosunda neorealizmin Roberto Rosselinininin “Roma açıq şəhərdir” filmi ilə başladığı, Cüzeppe de Santisin “Roma, 11 saat” filmi ilə sona çatdığı güman edilir.

Neorealizm üçün təhkiyəlilik, faciəvi rənglərin melodramatikliyi, adi şəhər sakinləri və kəndlilərin həyatından götürülmüş süjetlər, pavilyon çəkilişlərindən və kinoulduzlardan imtina, janr və montajın şərtiliyinin maksimum azaldılması xasdır. Neorealizmin ən yaxşı nümunələri kimi Vittorio de Sikanın “Velosiped oğruları”(1948), “Umberto D”(1951), Lukino Viskontinin “Ən gözəl” (1951), Mario Moniçellinin “Polislər və oğrular” (1951) filmlərini göstərmək olar.

***Nömrələmə lövhəsi*** – hərəkətli üst tutacaqlı lövhə formalı sadə qurğu. Lövhədə filmin məlumatları və dubl yazılır, tutcağın şaqqıltısı ilə vizual və səs sırasının sinxron olaraq üst-üstə düşməsi qeyd olunur.

***Nuar*** – İkinci dünya müharibəsi və müharibədən sonrakı iqtisadi böhran (1941-1958) dövründə Amerika və Avropa kinematoqrafında meydana gəlmiş janr-üslubi istiqamət. Nuarın əsas təsir mənbələri – alman ekspressionizmi, fransız poetik realizmi, amerikan qəddar qara dedektivi və qanqster filmləri və postindustrial cəmiyyətə xas sosial əlaqələrin itməsi hissiyyatı olub. Nuar istiqamətinin istinad nöqtələri olan Con Hyüstonun “Malta şahini” (1941), Orson Uellesin “Vətəndaş Keyn” (1941) filmləri hələ tam nuar filmlər olmasa da janrın kanonlarının müəyyənləşməsində böyük rol oynayıblar.

Nuarın ən inkişaf etmiş dövründə – 1940-cı ilin ikinci yarısında dramaturji və üslubi xüsusiyyətləri aşağıdakılar sayıla bilər:

- tənəzzül, çıxılmazlıq, fatalizm, həyasız laqeydlik və qarşılıqlı yadlaşma atmosferi;
- 1920-1940-cı illər şəhər mənzərəsinin üslubi dominantlığı və metaforik ağ-qara qammanı saxlamaqdan ötrü rəngli film çəkilişindən imtina, sifət və fiqurların qəsdən tündləşdirilməsi;
- təhkiyə mərkəzinə mənən qeyri-kamil eqoist qəhrəmanın qoyulması, öz antaqonistindən az fərqlənən daxili monoloqa malik olması;
- fəaliyyətin subyektivizmi, dedektiv intriqanın məntiqsizliyi və ikinci planlılığı;
- sosial cəhətdən uğursuz mühit;
- cəmiyyətin pis vərdişlərinin "femme fatale" (tale qadını) obrazında şəxsiləşdirilməsi.

Janrın nümunələrindən: "Şüşə açar" /Stüart Heysler, 1942, "İkiqat sığorta" /Billi Uaylder, 1944, "İkiqat həyat" /Corc Kyükor, 1947, "Şanxaydan olan ledi", "Şərin möhürü" /Orson Uelles, 1947, 1958, "Qətl" /Stenli Kubrik, 1956.

## O

***Obtürator*** – kinokamera və kinoproyektor strukturunun elementi. Kadrların növbələşməsi zamanı işıq kütləsinin ritmik örtülməsini təmin edən fırlanan damper.

***Operator*** – film çəkilişini kinolentə və ya videoya köçürən, kinoçəkiliş texnikasının təsviri imkanlarını mükəmməl bilən, lazım gəldikdə yeni çəkiliş üsulu tətbiq edən mütəxəssis. Operator ustalığının əsası ekranda daha ifadəli kompozisiya, işıq, rakurs

həllinə nail olmaqdan və ssenarinin ideya və mövzusunu tam və dərinliyi ilə çatdırmaqdan ibarətdir.

***Operator arabası*** – kino avadanlığı növü olub kameranın vertikal və horizontal şəkildə bərabər səviyyədə və tərpənməz vəziyyətdə yerləşdirilməsi üçün lazımi cihazların məcmusu.

***Orta plan*** – 1. kinematoqrafik planın bir növü; orta planda insan təxminən bütünlükdə (dizlərinə qədər) kadrın dərinliyində ön planda görünür.
2. ikinci plan.

***Orta uzaq plan*** – kinematoqrafik planın aralıq növü. Orta uzaq planda insan bədəni bütünlükdə kadrın dərinliyində ikinci planda görünür.

## Ö

***Ölü göz effekti*** – operator işinin ekstremal təcrübəsi zamanı meydana çəkiliş üsulu. Kameranın ölən operatorun zəifləmiş əlindən düşməsinə baxmayaraq, sınmadığı, hadisələri çəkməyə davam etdiyi zaman tamaşaçının keçirdiyi emosional hisslər.

***Ön plan*** – kadr dərinliyinin işarələyicisi, kinokameranın görüntü sahəsində olan, onun yaxınlığında yerləşən obyektlər. Tamaşaçının diqqətini ikinci plana çəkmək üçün çəkiliş zamanı ön planda kəskinlik aradan götürülür.

***Öyrədici film*** – elmi-kütləvi sənədli filmin bir janrı. Orta və ya ali məktəbdə öyrənilən bir mövzu əsasında çəkilmiş elmi-populyar film və ya müəyyən idman, kulinariya, texniki-peşə və ya başqa bir sahənin metodikasını mərhələlərlə və açıq-aydın göstərən kütləvi-populyar film.

# P

***Palp*** – ingilisdilli jurnalistikada kinojanrın adının əvvəlində işlədilən və "ikincidərəcəli", "aşağı keyfiyyətli" mənasını verən əlavə.

***Palp-komediya*** – ABŞ-da 1950-ci illərdə məşhur olmuş kiç komediyası. Janrın ustası Frenk Teşlin sayılır ("Rəssamlar və modellər", 1955; "Bu qız başqa cür bacarmır", 1956).

***Pamflet (film–pamflet)*** – müasir cəmiyyətin sosial quruluşunun qüsurlarını ifşa etməyə yönəlmiş kəskin satirik film ("Şənlik və qonaqlar haqqında" /Yan Nemes, 1966; "İşçi sinfi cənnətə gedir"/ Elio Petri, 1971).

***Panorama*** – animasiyada hərəkət edən fon.

***Panoramalaşdırmaq*** – travellinq və trayektor çəkilişlə yanaşı hərəkətdə çəkiliş üsulu. Bu, ştativə bərkidilmiş kameranın üfüqi və ya şaquli istiqamətdə fırladılaraq hərəkətsiz müşahidəçinin başını döndərməsi və gözlərini yuxarı qaldırması effektinin yaradılmasıdır. Panoramalaşdırma – hərəkət edən çəkiliş obyektinin kamera tərəfindən müşayiəti-izlənməsidir.

***Panskanlaşdırma*** – genişekranlı görüntünün televiziya ekranı uzunluğunda və ya kompyuter monitoru hündürlüyündə miqyaslaşdırılması və eyni zamanda sağ və sol kənarlarının kəsilməsi.

***Paparazzi*** – birbaşa kino (cinema direct) çəkiliş formasında işləyən, müəyyən incəsənət və ya elmi problemin həllinə yönümlü deyil, şəxsi həyata müdaxilə edən, geniş tamaşaçı kütləsi olan kino formasından istifadə edən kinojurnalist, müəllif-operator. Bu termin gündəlik həyata Federiko Fellininin "Şirin həyat" filminin obrazı jurnalist Paparazionun adından daxil olub.

***Parafraz*** – kinositatın bir növü. Geniş məşhurluq qazanmış bədii priyom olub, köhnə bir kinofilmin süjetinin, səhnə və/və ya obrazlar sisteminin elementlərinin yenidən işlənilməsi. Parafraz filmin daxili quruluşunu, üslubunu və məntiqi ardıcıllığını saxlamaqla onu hansısa məşhur filmin konkestinə yönəltməyə, tamaşaçının diqqətini konseptual, estetik, siyasi və ya başqa bir oxşarlığa, yaxud əksinə, həmin kinoməhsulun əvvəlkindən fərqinə yönəltməyə imkan yaradır. Eyni zamanda ənənələrin ötürülməsini, hər hansı bir kino məktəbə və ya istiqamətə mənsubluğu nümayiş etdirməyə şərait yaradır. Məsələn, Yan Nemesin "Gecənin almazları" (1964) filmində yatan şəxsin üzündə gəzən qarışqalar Luis Benuelin "Əndəlus köpəyi" (1927) filmindəki yaradan çıxan qarışqaların qorxunc obrazına istinaddır. Lens Mancianın "Altısimli samuray" (1998), Yefim Hamburqun "Çəkməli it" (1981) filmləri bütünlükdə parafraz sayıla bilər.

***Parakinematoqraf*** – kino sənətinin periferik və marijinal təbəqəsini ifadə edən kinoşünaslıq termini.
1. 1960-cı illərdə parakinematoqraf termini; rejissor-rəssam Ken Ceykobsla əlaqədar olaraq qeyri-adi kinotexnikayla, plyonkasız və kamerasız yaradılan avanqard nümunəni ifadə etmək üçün işlədilirdi.
2. 1995-ci ildə Cefferi Skons termini cəmiyyət tərəfindən qəbul edilməyən və ya hədsiz keyfiyyətsiz həvəskar kino və eksplotasiya nümunələri, xüsusilə snaff mənasında işlətməyə başladı.

***Paralel montaj*** – müxtəlif vaxtlarda və müxtəlif yerlərdə baş verən hərəkət kadrlarının daha kiçik xronometraja malik fraqmentlərə bölünərək tamaşaçının bu hərəkətlərin bir-birilə olan məntiqi əlaqəsini qura biləcəyi şəkildə birləşdirilən montaj növü. Paralel montaj allüziya və metaforların yaradılması üsullarından biridir. İlk dəfə bu üsul bütün detalları ilə Devid Uork Qriffitin "Dözümsüzlük" (1916) filmində işlənilib.

***Parodiya*** – hansısa bir filmin və ya film janrı qrupunun materialları əsasında şişirdilərək məzhəkə janrı ştampı və süni süjet gedişi ilə müşayiət olunan komediya. İlk parodiya amerikalı rejisor Edvin Stanton Porterin öz filmi olan "Böyük qatar soyğunu"nu parodiya etdiyi "Kiçik qatar soyğunu" qısametrajlı filmi sayılır. Filmin ayrıca bir səhnəsi də parodiya ola bilər.

***Pastijçi*** – teatr-kino peşəsi; parik, qoyma bığ və saqqalları hazırlayan şəxs.

***Pastiş*** – ədəbiyyatda ikinci dərəcəli əsər olub original əsərin üslubu, tematikası, personajlar sistemini saxlamaq şərtilə yenidən işlənib yazılması və ya süjetinin davam etdirilməsidir. Parodiyadan fərqli olaraq pastiş ideya-estetik yenidəndərkə yol vermədən əsərin originalındakı bütün xüsusiyyətləri saxlayır. Pastişin "qızıl əsr"i 80-ci illərə – dövrün təbliğat olunan və marketinqə əsaslanan meta-üslubu olan dəbli postmodern mərhələsinə təsadüf edir. Pastiş "janr təmizliyi"ni Ken Rasselin "Qotika", "Salomeya", Devid Linçin "Qum təpələri", "Tvin Piks" filmlərində qoruyur. Bu filmlərdə sadələşdirilmiş, demək olar ki, popsalaşdırlmış romantik və prerafaelitik (viktorian dövrü, akademik ənənələrin şərtiliyinə və klassik obrazların kor-koranə təqlidinə qarşı çıxan XIX əsr istiqaməti) estetika qəlibləri komiks, triller və yüksək texnologiyalı blokbaster elementləri ilə bir ortamda təqdim olunurlar.
Pastişin aradan çıxması onun əsas iki əlamətinin tükənməsi ilə bağlıdır: 1. 90-cı illərin emblematik və kult filmlərində ("Kriminal qiraət", "Ölü" və s.) individual ifadələr artıq sitatlarla verilmir, əksinə, şərti də olsa aydın seçilən müəllif səsi zonaları gözə çarpır; 2. Pastişin "vizit kartı" olan bərabərçilik dəyərinin tələbləri superhitlər, reytinq cədvəlləri və dövründə anaxronizm kimi görünür.

***Pavilyon*** – kinostudiyada ayrı-ayrı səhnələrin çəkilməsi üçün interyeri və təbiəti imitasiya edən xüsusi təchiz olunmuş məkan.

***Peplum*** – İncil və ya antik dövr hadisələri əsasında ilkin xristianlıq dövründə baş verən, qəhrəmanlıq və/və ya faciəvi süjetli film. İlk vaxtlarda italyan kinojanrı olsa da ("Pompeyin son günləri" /Mario Kazerini, 1913; "Kabiriya" /Covani Pastrone), sonradan tipik Hollivud kinojanrına çevrildi və 1950-ci illərin sonlarında rəngli genişekranlı filmlərə keçidlə daha da məşhurlaşdı. Hollivudda yüksəkbüdcəli, nəhəng epik-dramatik və batal ssenarili kino əsərlərini də peplum adlandırırlar ("Ben Qur" /Uilyam Uayler, 1959; "Spartak" /Stenli Kubrik, 1960; "Kleopatra" /Cozef Leo Mankeviç, 1963; "300 spartalı" / Rudolf Mate, 1962).

***Personaj*** – filmdə baş verən hadislərin antropomorf subyekti. Hadisələrin baş verməsi üçün lazımi iradə və məntiqə malik insan, heyvan (əsl və ya nağılvari heyvan obrazı), şeytani varlıq (ruh, zombi, vampir, yadplanetli) və ya "canlanmış" mexanizm, əşya.

***Perspektiv*** – məkani obyektin ölçüsünün kiçildilmiş, təbiətdə müşahidə edilən rəng çalarlarının və formasının dəyişdirilmiş şəkildə təsviri texnikası. Perspektiv effekti uzaqlaşan obyektin ölçüsünün daha kiçik, rənginin isə yaxın məsafədə müşahidə ediləndən daha az parlaq olmasında özünü biruzə verir. Bundan əlavə, əslində paralel olan xətlər şəkildə perspektivdə bir nöqtədə birləşirlərmiş kimi görünür (məsələn, perspektivdə birləşən dəmir yol relsləri).

***Perspektivlərin uyğunlaşdırılması metodu*** – kombinə edilmiş çəkiliş metodu; perspektiv uyğunlaşdırma zamanı kadrda real perspektiv effektinə nail olmağa imkan verən maket çəkilişi. Perspektiv uyğunlaşdırması optik oxda müxtəlif ölçülü obyektlərin yerləşdiyi zaman yaranan vizual effektdir. Məsələn, dağlarda çəkiliş zamanı qayanı ön planda kinokameranın obyektivi önündə bərkidilmiş balaca bir daş və ya qaya şəkli göstərə bilər. Yaxud da əksinə, canlı insan qaya maketinin yanında nəhəng kimi görünə bilər. Perspektivlərin uyğunlaşdırılması metodu animasiyada və

bədii oyun kinosunda dekorasiyaların hazırlanmasında geniş istifadə olunur.

***Piksilləşdirmə*** – bədii oyun kinosunda kadrdaxili animasiya metodu. Canlı aktyor hərəkətlərinin yazısının montajı. Bu zaman kadrlar eyniformalı ardıcıllıqla silinir və nəticədə hərəkət şərti, diskret, multipikasiya şəklində görünür.

***Piktoqrafiya*** – kombinə edilmiş çəkiliş metodu; termin Abel Hans tərəfindən real məkan illüziyası yaratmaq üçün kinokamera və çəkilən obyekt arasında yerləşdirilən balaca rənglənmiş maketlərdən istifadə metodunu ifadə etmək üçün yaradılmışdır. A.Hans piktoqrafdan 1938-ci ildə bəhs edir, 1940-cı ildə isə fəaliyyət prinsipinə görə oxşar sistemi Henri Mahe simplifilm adıyla hazırlayır.

***Pink-dram*** – ingilisdilli kinotənqiddə intim səhnələr, zorakılıq, emosional davranışlardan geniş istifadə olunan yapon dramı və melodramı mənasını ifadə edir.

***Piplmetr*** – televiziya sahəsində sosial araşdırma avadanlığının bir növü. Telebaxışın intensivliyinin müəyyənləşdirilməsi məqsədilə telereytinqi ölçən elektron alət.

***Pirat*** – videopiratlıqla məşğul olan, kontrafakt videoməhsulları – filmlərin pirat nüsxələri və pirat surətlərini hazırlayan və yayan şəxslər.

***Pirat nüsxə*** – satış məqsədilə filmin pirat surətinin qeyri-qanuni buraxılışı.

***Pirat surət*** – pirat nüsxəni yaymaqdan ötrü hüquqi şəxsdən icazə almadan qeyri-peşəkar şəkildə köçürülmüş film surəti.

***Pirotexnik*** – kinoda peşə; pirotexniki xüsusi effektlərə (duman, alov, atəş, partlayış), onların kinokamerada görüntüsünə və çəkiliş qrupu üçün təhlükəsizliyinə cavabdeh olan mütəxəssis.

***Pitçinq*** – kino istehsalına investisiya cəlb etmək forması. Film layihələrinin xüsusi olaraq prodüsserlər üçün təşkil edilmiş təqdimatı.

***Pley-list*** – prokat termini; filmin nümayişinin və reklam çarxlarının ardıcıllığını və seanslarının sayını qanuniləşdirən sənəd.

***Poetika*** – kino əsərinin daxili bədii forması; eyni zamanda bu formanın üzə çıxarılması, aydınlaşdırılması metodlarını tədqiq edən elm sahəsi. Məsələn, İnqmar Berqmanın filmlərinə "sosial laqeydlik" poetikası xasdır.

***Poetik kino*** – 1. kino əsəri quruluşunun bədii prinsipləri, kino forması. Əsas xüsusiyyətləri: kino dilinin lirikliyi, romantiklik, simvolzim, metaforluluq, kadrın canlılığı, antiverballıq və assosiativ montaj, formal elementlərin məna elementləri üzərində üstünlüyü. Poetik kino üçün qəhrəmanın kadra daxil olmazdan əvvəl və sonra kinokameranın peyzajın eyni vəziyyətini göstərdiyi kadrlaşdırması xasdır. Ssenari sənətinin və rejissorluğun bu istiqaməti A.Tarkovski ("faktiki konkretlik"dən uzaq olduğuna görə) və Kşiştof Eji Zanussi tərəfindən tənqid olunmuşdur.
Poetik kino zaman-zaman kino dilində müxtəlif anlamlarda işlənmişdir:

- 1920-ci illərin sonu Sovet kinosunda istiqamət olub həddindən artıq simvolikliyi və dramaturji dayanıqlığı süjetin lirik haşiyələrinə yükləməsi ilə seçilir (Aleksandr Dovjenkonun "Zveniqor" (1928), "Torpaq" (1930) filmləri).
- 1920-cu illər fransız kino istiqaməti "poetik realizm"in sinonimi.
- 1950-ci illər Avropa kinematoqrafında ifadə vasitələrindən istifadəyə görə birbaşa kinoya (Cinema verite) oxşayan, amma ekzistensial səslənməsi və sosial problemlərə az maraq göstərən müəllif subyektivliyinə görə seçilən

istiqamət (Alber Lamorisin “Ağ yal: vəhşi at” (1953), “Qırmızı şar” (1956) filmləri).

- 1960-cı illərdə sovet kinematoqrafında lirik istiqamət (“Mən, nənə, İliko və İllarion” /Tenqiz Abuladze, 1962; “Moskva ilə addımlayıram” /Georgiy Daneliya, 1963; “Unudulmuş əcdadların kölgələri” /Sergey Paracanov, 1964; “Yarpaq tökümü” /Otar İoseliani, 1966).
- 1970-ci illərdə poetik kinonun ümumi prinsiplərini xalq ruhunda çəkilmiş kino əsərlərdə inkişaf etdirən ukrayna kino məktəbi (“Daş xaç” /Leonid Osıki, 1968; “Qara ləkəli ağ quş” /Yuriy İlyenko, 1971).
- Müasir müəllif kinosunun istiqamətlərindən biri.

2. müasir videopoeziyanın adlarından biri.

***Poetik realizm*** – 1930-cu illərdə fransız kinematoqrafında şərti olaraq fərqləndirilən istiqamət, xüsusi üslub. İlk olaraq özünü məişət süjetini adilik çərçivəsindən çıxaran poetik obrazlılıqda göstərmişdi (Jan Viqonun “Davranışa görə sıfır” (1933) və “Atalanta” (1934) filmləri). Ancaq 1930-cu illərin ikinci yarısında ekzistensializm, məyusluq və əzab, üsyankarlıq mövzusu, pavilyon çəkilişlərində ağrılı və fantastik işıq oyunları ideyalarının gətirilməsi ilə xarakterizə olunur (“Gün başlanır” /Marsel Karne, 1939); bu mənada poetik realizm nuarın ilk sələflərindəndir.

***Poliekran*** – varioekranla yanaşı texniki montaj priyomu olub bir ekranda eyni və fərqli formatlı bir neçə oxşar və ya fərqli təsvirlərin yerləşdirilməsi (“Cavanlıq” /Yan Kadar və Elmar Klos, 1960). Həmçinin, çarpaz montajın xüsusi forması sayılır. Məsələn, Mayk Fiqqisin “Taym kod” (2000) filminin hər kadrı 4 ayrı təsvirdən ibarətdir.

Avqust Blomun “Ağ qulların alveri” (1910) filmində üç hissəyə ayrılmış kard poliekranın ilk tətbiqi sayılır. Ayrı-ayrı çəkilmiş kadrların müxtəlif ekranlarda eyni vaxtda əks olunması poliekranın texniki variantı hesab edilir (Abel Hansın “Napoleon” (1927) filminin son səhnələri): bu variant poligörüntü adlanır.

***Poligörüntü*** – poliekranın texniki növü. Ayrı-ayrı kadrlarının eyni zamanda iki və daha artıq ekranda nümayiş etdirilməsi üçün bir neçə kinolentə çəkilən film.

***Polis dramı*** – kriminal dramın bir növü olan kino altjanrı. Cinayətkar və detektivin (və ya iki müxtəlif əqidəli detektivin) qarşıdurması.

***Popkorn-kino*** – baxımlı, quruluşu çətin olan, lakin bədii cəhətdən zəif, qəlibləşmiş, tamaşaçısı yeniyetmələrdən ibarət olan kütlə filmlərinin təyini üçün istifadə edilən ifadə.

***Pornoqrafik film*** – parakinematoqrafın vacib janrlarından biri; xüsusi dramaturgiyası olan, pornoqrafik səhnələrin nümayişini vurğulayan və ya bütünlükdə belə səhnələrdən ibarət olan erotik film. Təsvirin açıqlığı baxımından iki növə ayrılır: softkor-porno (pornoqrafiyanın yüngül manerlı təsviri) və hardkor-porno (həddindən artıq açıq, çılpaq təsvir).

***Poster*** – kinoda reklamın bir növü. İriformatlı kinoplakat, filmin reklam afişası.

***Postmodernizm*** – 1970-1990-cı illərdə ABŞ və Avropa kinematoqrafında bir axın. Postmodernizm totalitar sistemlərin əvəzinə kütləvi və açıq demokratik düşüncə forması təklif edir. Kinorejissorluqda postmodernizmin nümayəndələri Pedro Almodovar, Devid Linç, Piter Qrinuey, Kventin Tarantino sayılırlar. Bu rejissorların filmlərində çoxsaylı kinositatlar filmi formalaşdıran elementə çevrilir; personajların əxlaqı dəyişkəndir; üslubilik, parodiya, "ali" və "aşağı" janr və üslubların bərabərləşməsi, kanonların nüfuzdan düşməsi, ironik mədəni təzahür üstünlük təşkil edir.

***Postnuar*** – 1980-ci illərdə ABŞ kinematoqrafında əyləncəli istiqamət. Kriminal film, triller və ya mistik triller janrlarının kəsişməsində olan nuarın bəzi ideya-üslubi ənənələrini davam etdirən bədii-oyun filmləri ("Mələk ürəyi" /Alan Parker, 1987; "Əsas

instinkt” /Paul Verxuven, 1992; “Ölümcül sehirləmək” /Martin Kempbell, 1994).

***Postprodakşn*** – filmin istehsal mərhələsi; ABŞ kino sənayesində çəkilişlər bitdikdən sonra film üzərində iş aparılan dövr. Bu mərhələdə montaj planı əsasında kinolentin skan edilməsi, montaj, rəng korreksiyası, səsləndirmə, vizual və səs efektləri, titrların hazırlanması və s. həyata keçirilə bilər.

***Pozitiv*** – çəkiliş zamanı deyil, neqativ kinolentdən kontakt və ya optik çap zamanı əldə olunmuş təsvirli kinolent. Bu zaman kinolentdə qaralmanın qatılığı, çəkilmiş obyekt tərəfindən əks olunan işığının miqdarı ilə tərs mütənasib olur; yəni işıqlı yenidən işıqlı, qaranlıq isə qaranlıq görünür.

***Praksinoskop*** – Emil Reyno tərəfindən (1985) cizgi filmləri çəkmək üçün kəşf olunan apparat. Ancaq Emil Reynonun texnologiyası Lumyer qardaşlarının kəşfi ilə rəqabətə tab gətirə bilmədi.

***Premyera*** – kinoməhsulun, filmin kinoteatrda rəsmi, ictimai və təntənəli surətdə nümayişi.

***Prevyu*** – kinoda kommersiya reklamının bir növü; 1. gələcəkdə çəkiləcək və ya artıq çəkilmiş filmin kadrlarından ibarət tanışlıq və reklam xarakterli çarx; treyler.
2. süjetin detallarını açmayan, spoyler sayılmayan film anonsu. Reklam və ya informasiya xarakterli ola bilər.

***Prikvel*** – köməkçi süjet-kompozisiya termini. Daha əvvəl çəkilmiş uğurlu bir filmin davamı olaraq çəkilir. Lakin sikveldən fərqli olaraq prikveldə əvvəlki filmdə baş vermiş hadisələrdən öncəsi göstərilir (Riçard Lesterin “Buç və Sandens” (1979) filmi Corc Roy Hillin “Buç Kessidi və Sandens Kid” (1969) filminin prikvelidir).

***Prodüsser*** – kino sənayesində peşə. Film istehsalı zamanı kinokompaniyanın maraqlarını qoruyaraq istehsalın bütün

mərhələlərini mailiyyə cəhətdən idarə edən şəxs. Prodüsserlik peşəsi öz növbəsində bir neçə ixtisaslaşma üzrə ayrılır: assosiativ prodüsser, baş prodüsser, icraçı prodüsser, koordinasiya prodüsseri, soprodüsser.

***Prodüsser kinematoqrafı*** – kino sənayesi anlayışlarından olub kino istehsalının mailiyyə sahəsi kimi xarakterizə olunan sistemi.

***Prokat*** – kinoprokat; kinoteatrlarda premyera prosesini keçdikdən sonra filmin rəsmi icazəli, kommersiya məqsədli yerli və beynəlxalq nümayişi.

***Prokat reytinqi*** – 1. senzuranın tələblərinə uyğun olaraq filmin mövqeyi.
2. Amerika kino assosiasiyası tərəfindən 1921-ci ildə irəli sürülmüş (Heys kodeksi) və bugünədək riayət edilən təsnifat. Bu təsnifat müəyyən yaş həddinə çatmamış şəxsləri psixoloji travmalardan qorumaq məqsədilə tətbiq edilir.

***Protaqonist*** – filmdə antaqonistə qarşı qoyulan "müsbət" baş obraz.

***Proyeksiya*** – film kadrlarının ekranda müəyyən sürətlə və tamaşaçı gözü üçün rahat şəkildə ardıcıl nümayişi. Bu zaman fasiləsiz hərəkətlə yanaşı, təsvirləri aydın fərqləndirmə illüziyası yaranır.

***Proyeksiyaların uyğunlaşdırılması metodu*** – kombinə edilmiş çəkiliş üsulu; əvvəlcədən çəkilmiş, eynimiqyaslı bir neçə təsvirin bir ekrana eyni vaxtda proyeksiyası yolu ilə birləşdirilməsi.

***Psevdosənədli film*** – sənədli forma altında falsifikasiya, mistifikasiya və bədii təxəyyülün gizləndiyi kino və telefilm janrı ("Süqut" /Piter Qrinuey, 1980; "Zeliq" /Vudi Allen, 1983).

***Psevdosənədli üslub*** – real kinonun estetik dominantı olub "sənədliliyi", həqiqiliyi, bəzəksizliyi vurğulayan, dublsuz çəkiliş, xətti montaj və digər üsullardan istifadə edən üslub.

***Psixodelik film*** – 1. irreallığın sıx emosional yaşantılarını stimullaşdırmaq məqsədilə tamaşaçını meditativ düşüncə halına gətirən xüsusi kino janrı forması. Tamaşaçı yuxugörmə üçün xarakterik olan vizual-hissi obrazların ardıcıl nümayişi və hiss orqanlarının informasiya qavramasının fiziki məhdudluğu sayəsində (insan üçün saniyədə 30-60 bit) xüsusi texniki hipnozçu vasitələrlə şüurun dəyişik halına düşür. Abstrakt kino, sürrealizm və klip montajı məhz bu üsulla çəkilir (amerikalı rejissor Kennet Enqarın yaradıcılığı; "Müqəddəs dağ" /Alexandro Xodorovski, 1973; "Şüşə ürək" /Varner Hersoq, 1976).
2. kollaj kinosunda kinomaterialın verilməsinin özünəməxsus forması ("Qırmızı rəngin layihəçisi" /Andrey İ., 1993).

***Psixoloji dram*** – qəhrəmanın daxili aləminin emosional, mənəvi və intellektual fəaliyyətinin incə məqamlarını dərindən təhlil edən altjanr ("Kənd keşişinin gündəliyi" / Rober Bresson, 1950; "Kül və almaz" /Ance Vayda, 1958; "Bebi Ceynə nə olub?" /Robert Oldriç, 1962).

***Psixoloji triller*** – digər personajlarla ünsiyyəti zamanı qəhrəmanın ətrafdakılardan aqresiya gözləməklə və hərəkətlərində mətnaltı gizli təhdidedici təhlükələr axtarmaqla gözlənilməz reaksiyaları zəminində gərgin yaşantılar yaradan triller (Alfred Hiçkokun filmləri).

# R

***Rakord*** (fr. raccord-yapışdırma, bərkitmə) – kinolentin əvvəlində və ya sonunda texniki məqsədlər (tağalağa bərkitmə, işarələmə) üçün istifadə olunan, filmin hazır variantına daxil edilməyən fraqment. Eyni filmin metrajı müxtəlif kataloqlarda rakordun hesaba alınıb-alınmamasına görə fərqli ola bilər.

***Rakurs*** – kinematoqrafın ifadə vasitələrindən olub operator sənətinin üsullarından sayılır: çəkiliş zamanı aşağıdan və yuxarıdan çəkilən obyekt perspektivin qısaldılmış vertikalı boyunca qeyd edildiyi zaman optik oxun maililiyi.

***Rapid*** – kadrdakı hərəkətin təbii sürətinin süni olaraq yavaşladılması. Adətən sənədli filmdə təbiət mikroprosesləri çəkilişi zamanı tətbiq olunur. Bədii oyun kinosunda həddindən artıq sürətli proseslərin (avtomobillərin toqquşması, əşyaların uçması və ya düşməsi və s.) detallaşdırılması üçün, həmçinin, kuliminasiya səhnələrinin bədii ifadəliliyini gücləndirmək üçün istifadə edilir ("Andrey Rublyov" /A.Tarkovski, 1966; Artur Pennin "Bonni və Klayd" (1967) filmində qəhrəmanların ölüm səhnəsi və s.).

***Rəngləmə*** – filmin surətində təsvirlərin qara və ya boz sahələrinin qızıl və platin qarışığı ilə rənglənməsi. İkirəngli təsvir effekti almaqdan ötrü rəngləməni tonlaşdırma ilə qarışdırmaq olar.

***Reaktiv kadr*** – baş vermiş şokedici hadisəni göstərmək əvəzinə bu hadisəyə reaksiya verən personajın iri planda göstərilməsi. İlk dəfə "Xarici müxbir" (1940) filmində Alfred Hiçkok tərəfindən saspensin yaradılması üsullardan biri kimi istifadə edilmişdir.

***Real kino*** – müasir kinematoqrafda psevdosənədli üslubla sosial-kəskin problematikanın birləşməsinə əsaslanan janr-üslub istiqaməti, ("Cənab Lazareskunun ölümü" /Kristi Pui, 2005; "Yeddi görünməz adam" /Şarunas Bartas, 2005; "4ay, 3həftə, 2 gün" /Kristian Muncu, 2007).

***Redaktor*** – kinoda peşə; kinoməhsulun ədəbi redaktəsini, adaptasiyasını və bütün mətnlərin (filmin tərcüməsi və titrlər da daxil olmaqla) korrektəsini həyata keçirən şəxs.

***Rejissor*** – kinoda peşə; kino əsərinin müəllifi və ya bədii rəhbəri. Təhkiyə strukturunun təsviriliyinə nail olmaq və vahid ritmə tabe olmanı həyata keçirmək məqsədilə məhsulun bədii və quruluş aspektlərinə nəzarət edən şəxs.

***Rejissorluq*** – rejissor fəaliyyəti və rejissor sənəti; film kompozisiyasının dramaturgiya, üslub və şəxsi müəllif konsepsiyasına uyğunlaşdırılması.

***Rejissor köməkçisi*** – kinoda peşə; çəkiliş meydançasında rejissor, operator, aktyor, kaskadyor və başqa qruplar arasında "dispetçer" rolunu oynayan texniki mütəxəssis.

***Rejissor ssenarisi*** – ssenarinin rejissor tərəfindən işlənilmiş istehsalat versiyası. Filmin epizodlarının ekranda təsviri və xüsusiyyətləri barədə qeydlərlə birgə ardıcıl təsviri, bu epizodun çəkilişinə hər hansı kino mütəxəssislərin qoşulmasına ehtiyacın olması barədə məlumatı, kadr planlarını və kadr lövhəsini əks etdirən ssenari növü. Kino sənayesində rejissor ssenarisi həm də əmək bölgüsünün təşkilində əsas alət rolunu oynayır.

***Rejissor versiyası*** – filmin prokata çıxmayan, prokat (prodüsser) versiyasından fərqli olaraq rejissorun müəllif ideyasını əks etdirən versiyası. Bəzi hallarda rejissor versiyası sonradan məhv edilə bilər.

***Reklam filmi*** – reklam şüarının və/və ya məhsul nişanının potensial alıcıya təbliği üçün çəkilmiş rolik. Qısametrajlı (90 saniyədən çox) və dəqiqəlik filmlər (90 saniyəyə qədər) olmaqla iki növə ayrılır.

***Rekonstruksiya filmi*** – vizuallıq və obrazlılıq cəhətdən maksimum dərəcədə tarixi həqiqətlərə yaxınlaşan tarixi, həmçinin, retro film. İstənilən keyfiyyətli bayopik rekonstruksiya sayılır, bununla yanaşı sənədli dəqiqlik heç bir şəkildə bədiiliklə ziddiyyət təşkil etmir. XX əsrin ən yaxşı bədii oyun filmlərindən biri sayılan Teodor Dreyerin "Janna Darkın ehtirasları" (1927) filmi tarixi məhkəmə prosesinin protokollarını dəqiq şəkildə göstərir.

***Rekvizit*** – filmdə istifadə edilmək üçün xüsusi olaraq seçilib hazırlanmış (mebel, silah, zərgərlik əşyaları, geyimlər və s.), o cümlədən xüsusi effektləri yerinə yetirmək üçün lazım olan əşyalar.

***Rekvizitçi*** – kinoda və teatrda peşə: rekvizitlərin seçilməsi, saxlanılması və istifadəsinə cavabdeh olan şəxs.

***Reliz*** – premyeranın bir növü olub filmin kinoteatrda ilk ictimai nümayişi, rəsmi şəkildə prokata çıxması.

***Remeyk*** – daha öncə uğur qazanmış bir filmin ssenarisi əsasında çəkilmiş film. Bir qayda olaraq remeyk daha öncəki filmin maddi cəhətdən uğurunu təkrarlamaq üçün çəkilir.

***Reminisensiya*** (xatırlatma) – kinositatın bir növü; birbaşa asılılıqdan fərqli olaraq xatırlanan obrazın, ideyanın dolayı yolla təqlid edilməsi, eyni zamanda ani təəssüratın gözlənilməz dəqiqliklə göstərilməsidir. məsələn: Vladimir Motılın "Səhranın bəyaz günəşi" (1969) filmindəki "Şərq–incə məsələdir" aforizmi Redyard Kiplinqin "Şərq Şərqdir, Qərb isə Qərb" poetik aforizminin reminisensiyasıdır.

***Replika*** – personajın ssenaridə yazılmış və ya improvizə edilmiş, individual intonasiyaya və emosionallığa sahib bitmiş ifadəsi.

***Retro*** – 1. a) kinoda 1890-1950-ci illər mədəni reallığını, keçmişin janr, vizual kod, əşyavi işarələrini estetikləşdirən, keçmişin geri qayıtmayacağı haqda nostalji hisslər yaradan üslubi istiqamət. Retro kinematoqrafiyada neoqotika, stimpank, dizelpank, nyukpank kimi üslubların yaranmasına səbəb oldu; b) film janrının adının önündə işlənən və filmdəki hadisələrin iyirmi, otuz və daha çox illər öncə baş verdiyini göstərən sözönü - retrokomediya, retromelodram və s.

2) "müasirlik" kimi qəbul edilən xronoloji dövrdən əvvəl çəkilmiş kinoməhsul. Hal-hazırda belə filmlərə 1950-ci illərin sonlarına qədər çəkilmiş kinoməhsullar aid edilir. Retro və müasir kino arasındakı ənənəvi sərhəd Fransua Truffonun "400 zərbə" (1959) və Jan Lük Qodarın "Son nəfəsdə" (1960) filmi hesab olunur.

***Retrospektiv*** – 1. kinofestival prokatının bir forması olub bir rejissorun və ya müəyyən kino məkəbinin filmlərinin ikinci dəfə nümayiş edilməsi.
2. kinoda kompozisiya üsulu. Personajın yaddaşında qalan keçmişdə baş vermiş bir hadisəni ixtiyari ardıcıllıqla, həmin personajın daxili aləminə uyğun olaraq göstərilməsi ("Çiyələk talası" /İnqmar Berqman, 1957).

***Rəqəmsal kinematoqraf*** – təsvirin elektron cihazlarda siqnal və formatlar əsasında yazılışı və nümayişinin texniki forması (1 saniyədə 24 kadr əvəzinə 60 kadrın görüntüyə alınması). Rəqəmsal kinematoqrafda rəqəmsal siqnallar birbaşa rəqəmsal məlumat daşıyıcılarına yazılır. Bu zaman əldə edilmiş görüntüdə məhdudiyyətsiz dərəcədə dəyişiklik etmək mümkündür.

***Rəqəmsal montaj*** – qeyri-xətti montajın kompüter texnologiyası olub virtual məkanda montaj.

***Rəng korreksiyası*** – yenidən çəkilmiş və ya köhnə kinolentdəki görüntü üzərində parlaqlıq, kontrast, rəng dəyişilməsi üzrə kompleks əməliyyatlar.

***Rəngli film*** – ağ-qara filmdən fərli olaraq, bütünlükdə və ya müəyyən hissəsi rəngli kadrlardan ibarət olan kinematoqraf nümunəsi.

***Rirekran*** – kinotəchizatın bir növü olub rirproyeksiyanın tətbiqi zamanı istifadə edilən xüsusi ekran növü. Əks tərəfdən proyeksiya nəticəsində xarici tərəfində görüntü formalaşan yarışəffaf panel.

***Rip (Raster Image Processor)*** – hər hansı daşıyıcıdan audiovizual informasiyanı rəqəmsallaşdıraraq çoxaldan pirat film nüsxəsi.

***Rirproyeksiya*** – kombinə edilmiş çəkiliş növü olub, proyeksiyaların kombinasiyası metoduna əsaslanır. Canlı aktyor oyununun əvvəlcədən çəkilmiş təbiət səhnələrinin fonunda

çəkilməsi. Bu tipli “təbiətdə çəkiliş” daha yaxşı səs və işıq effekti əldə etməyə, iş qrafikləri uzunmüddətli təbiət çəkilişlərinə imkan verməyən aktyorların işini asanlaşdırmağa, arxivdə mövcud olan təbiət görüntülərindən istifadəyə kömək edir.

***Rol*** – aktyor tərəfindən oyun mahiyyəti daşıyaraq yerinə yetirilən hərəkətlər və səsləndirilən replikalar ardıcıllığı, eyni zamanda aktyor tərəfindən yaradılmış obraz–personaj. Həm ciddi şəkildə ssenariyə riayət etməklə, həm də improvizə yolu ilə yaradıla bilər. Ekranda olduğu müddətdən və filmdə daşıdığı əhəmiyyətdən asılı olaraq baş rollar, ikinci və üçüncü plan rollar, epizodik rollara və kütləvi səhnələrin iştirakçılarına ayrılır.

***Romantik komediya*** – sevgi hekayəsinin komediya variantı. Bu filmlərdə, adətən, komik effekt iki sevgili arasında məzəli və əyləncəli qarşıdurma hesabına əldə edilir. Melodramdan fərqli olaraq romantik komediyada qəhrəmanlar arasında kəskin konfliktdən qaçılır.

***Rus montajı*** – kəsmə montajın bir növü; 1918-1919-cu illərdə Lev Kuleşov tərəfindən qısa montaj fazalarıyla “hərəkətə uyğun” montaj prinsipi əsasında işlənmişdir. Rus montajında hərəkətlərin ardıcıllığı detalların nümayişi və təhkiyə (məsələn, lal kinoda izahedici intertitrlər) vasitəsilə yox, hərəkət və obrazların assosiativ təsrifi vasitəsilə həyata keçirilir.

## S

***Sabun operası*** – sonsuz süjet xətli çoxseriyalı televiziya serialı növü (“Santa Barbara”, “Peterburq sirləri”). Daha çox Latın Amerikası istehsalı olub kolliziyaların təkrarlanması, dramaturgiyanın qeyri-bədii məntiqinə və quruluşuna, həmçinin, xətti montaj prinsipinə əsaslanır. Sabun operası termini 1933-cü ildə Sinsinatti

radiosunda efirə çıxan səsli serialın gedişində, Procter&Gamble şirkətinin növbəti sabun növünü reklam etməsi zamanı ortaya çıxıb.

***Salon dramı*** – mənəvi çöküş dövründə elit təbəqənin və ya əyalət aristokratiyasının həyatını təsvir edən melodram. Bir qayda olaraq, XIX əsrin son otuz illiyi və ya XX əsrin ilk otuz illiyinə aid romanların ekranlaşdırılmasıdır (Helen Mnişekin povesti əsasında Yeji Hoffmanın 1976-cı ildə çəkdiyi "Cüzamlılar" filmi).

***Samuray filmi*** – yapon kinosunun janr kompleksi; çox vaxt boevik və Şimali Amerika vesternləri ilə müqayisə olunur. Samurayın qəhramanlığından və/və ya başına gələn fəlakətlərdən bəhs edən film. Janrın ən məşhur ulduzu Xirosi İnaqakinin filmlərində çəkilən Tosira Mifunedir ("Musasi Miyamoto" 1954, "İtidzedzi məbədində duel" 1955, "Qanru adasında duel" 1956). Akira Kurosavanın filmləri ("Yeddi samuray" 1954, "Gizli qalada üç əclaf" 1958, "Cangüdən" 1961) janrın klassikləri və eyni zamanda janrın sərhədlərini aşan filmlər hesab edilir.

***Sartov kadrı*** – lal kinoda kadr kompozisiyasının qurulmasında müxtəlif işıqlandırma üsullarından istifadə olunması; belə operator işinin adı Devid Uork Qriffitin filmlərində ("Millətin doğuluşu" 1915, "Səbirsizlik" 1916) işləmiş amerikalı kinooperator Hendrik Sartovun soyadından götürmüşdür.

***Saspens*** – tamaşaçı diqqətinin müəyyən bir qaçılmaz dəhşətə, faciəvi hadisəyə cəmlənməsi; bu zaman baş verəcək hadisəyə qəsdən müəyyən işarələr vurulsa da, ölüm təhlükəsində olan personaj bütün hadisələrdən xəbərsiz qalır. Ümumi mənada saspens tamaşaçını gərgin kuliminasiya gözləntisi həddinə çatdırmaqdır. Saspens üsullarından 1910-cu illərdə Devid Uork Qriffitin filmlərində ("Görünməz düşmən" 1912; "Dözülməzlik" 1916) istifadə edilsə də, Alfred Hiçkokun filmlərində ("Kəndir" 1946, "Psixo", "Başgicəllənmə" 1960, "Quşlar" 1963) saspensdən istifadə öz zirvəsinə çatır.

***Satira*** – kinoda komediyanın sosial cəhətdən kəskin növü. Personajın sosial davranışları vasitəsilə tragikomik effektlərin yaradılması. Böyük Britaniyada çəkilmiş, qrotesk və absurd elementlərdən istifadə olunan "Həkim Streyndclav və ya mən necə atom bombasından qorxmamağa başladım və onu sevdim" (Stenli Kubrik 1964), "İdarə edən sinif" (Piter Medak 1972), "Tommi"( Ken Rassel 1975) filmləri cəmiyyətdə böyük rezonansa səbəb olmuş sosial-satirik filmlərdəndir.

***Saundtrek*** – 1. filmin səs sırası
2. dar mənada: filmin səs sırasının musiqi hissəsi, film boyu səslənən musiqilər.

***Senzura*** – filmin çəkilişi mərhələsində və ya nümayişindən sonra müəllif ideyalarına edilmiş dəyişiklik, yaxud filmə bütövlükdə və ya bir hissəsinə qadağa qoyulması.

***Senzura orqanı*** – qanunvericilik və ya başqa tənzimedici əsaslara görə senzuranın tələblərinə uyğun olaraq kinoməhsulun prokatına məhdudiyyətlər qoya bilən ictimai, peşəkar və ya dövlət orqanı.

***Serial*** – istehsalın süjet-kompozisiya sxemi olub filmin hissələrlə nümayiş etdirilməsi; eyni zamanda, istənilən növ bədii və sənədli filmin çoxseriyalılığı bildirmək üçün istifadə edilən termin.
1. hər biri ayrı-ayrılıqda müstəqil kino nümunəsi sayılan eyni tipli filmlər seriyası. Süjet fərdiliyinə malik olsa da, digər filmlər ilə mövzu və üslub, ümumi personajlar sistemi və materialın ümumi ötürülməsi sxeminə malik filmlər ("Dostlar" 1994-2004, "Doktor Haus" 2004-2008);
2. rahat baxılması üçün hissələrə ayrılmış vahid süjet xətli, bir-birinin davamı sayılan hissələrdən ibarət film ("Baharın on yeddi anı"/Tatyana Lioznova, 1973, "Görüş yerini dəyişmək olmaz" və "Kapitan Qrantın axtarışında" Stanislav Qovoruxin 1979; 1985).

***Seriya*** – serialın müəyyən xronometraja uyğun olaraq ayrı-ayrı nümayiş olunan hissələri.

***Seyfzona*** – televiziyanın texniki termini olub teleçərçivənin təhrifindən uzaq, tamaşaçılara aydın görünən kadrın mərkəzi hissəsini bildirir. Kinoda uyğun olaraq təmiz apertura terminindən istifadə edilir.

***Seytrafer*** – kinoavadanlıq növü; hərəkətsiz obyekti eyni zaman aralığı ilə kadr-kadr çəkməkdən ötrü lazımi mexanizm. Seytrafer çəkiliş növü ilə çəkilmiş filmi seyr edərkən çəkilmiş obyektin və ya onun əhatəsində olanların sürətləndirilmiş hərəkəti effekti yaranır. Adətən sənədli filmlərdə bitki və ya sualtı aləmin çəkiliş zamanı istifadə edilir – gülün açılması, yarpağın böyüməsi, dölün böyüməsi və s.

***Sezar*** – Fransız Kinematoqrafiya Akademiyasının milli kinomükafatı olub 1975-ci ildən təqdim edilir.

***Səhnə*** – film dramaturgiyasının elementi. Ardıcıl olaraq montaj edilmiş, eyni zamanda və eyni məkanda baş verən hadisələrin təsvir olunduğu kadrlar qrupu. Paralel və ya kəsişən montaj zamanı bir səhnənin kadrları başqa bir səhnənin kadrları ilə növbələşə bilər.

***Sənədli kino*** – ətraf aləmdə baş verən təbii hadisə və proseslərin elmi və bədii dərkinə əsaslanan kino sənəti növlərindəndir. İlk sənədli filmlər olan Lümyer qardaşlarının 1895-ci ildə çəkdikləri "Qatarın La Syot vağzalına çatması", "İşçilərin Lionda fabrikdən çıxması" filmləri həm də ilk kinematoqraf nümunələri sayılır. Sənədli kinonun ən görkəmli nümayəndələri və inkişaf yollarını müəyyənləşdirənlərdən Robert Flaerti və Dziqa Vertovun adını çəkmək olar.
Hal-hazırda sənədli kino əsasən televiziya məhsulu kimi inkişaf edir. Sənədli kino sənətinin marginal sahəsi snaff adlanır.

***Sənədli-oyun kinosu*** – aktyor və ya müəllif-operatorun təhrikedici davranışlarına insanların və heyvanların təbii reaksiyalarının çəkilişini özündə birləşdirən sənədli kino növü.

***Sərbəst kino*** – 1950-ci illərdə gənc ingilis sənədli film nümayəndələrinin hərəkatı. Onların "poetik naturalizm"i təbliğ edən kinematoqrafı italyan neorealizminin bədii təcrübəsini və ideologiyasının əsasında inkişaf edirdi (Ah, möcüzələr diyarı" /Lindsey Anderson, 1953, "Ana icazə vermir" /Toni Riçardson, Karl Reyşa, 1955). Bədii oyun kinematoqrafında sərbəst kino "qəzəbli gənclər" axınının əsası və müjdəçisidir.

***Səs operatoru*** – musiqi, insan səsi, səs-küyün seçimi və sınaq yazılışlarını, həmçinin, texniki emalını həyata keçirən mütəxəssis.

***Səs rejissoru*** – səsin mikrofonçu və səs operatoru tərəfindən yazıya alınmasına nəzarət edən və filmin son fonoqramını montaj edən mütəxəssis.

***Səs sırası*** – müəyyən film üçün işlənmiş və fonoqramla çoxaldılmış və ya improvizə olunmuş səs müşayiəti.

***Səs xətti*** – filmin fonoqramını yazmaqdan ötrü kinolentin kənarındakı maqnit və ya optik xətt (sahə).

***Səs-görüntü kontrapunktu*** – təsvir və səs sırasının kombinasiyası, bir-birini tamamlaması və ziddiyyətlərinin qarşılıqlı izahına əsaslanan film kompozisiyası. Termin Sergey Eyzenşteyn tərəfindən 1927-ci ildə "Səs-görüntü kontrapunktu" nəzəri proqramında işlədilib. Səs-görüntü kontrapunktunun növləri vertikal montaj, görüntü və səs obrazlarının orkestr kontrapunktu sayılır.

***Səsli kino*** – kino sənətinin bir mərhələsi və inkişaf forması. Fonoqramla tirajlanan və özünəməxsus səs sırası ilə müşayiət olunan film. İlk səsli filmlər 1926-1927-ci illərdə ABŞ-da çəkilib ("Caz ifaçısı" /Alan Kroslend, 1927).

***Sikvel*** – köməkçi süjet-kompozisiya termini. Hər hansı bir bədii filmin davamı olaraq çəkilmiş yeni film (Ridli Skottun 2001-ci ildə çəkdiyi "Hannibal" filmi "Conatan Demminin "Quzuların sükutu" (1991) filminin sikvelidir). Az sayda olsa da müəllif filmində də rast gəlinir.

***Silinmiş səhnə*** – bütünlükdə filmin çəkiliş və montaj mərhələlərini keçmiş, lakin hazır filmə senzura və ya xronometraj səbəbiylə daxil olmayan səhnə. Adətən tamaşaçılara dopun tərkibində təqdim olunur.

***Simplifilm*** – kombinə edilmiş çəkiliş metodu. Anri Mae tərəfindən 1940-cı ildə perspektiv uyğunlaşdırma metodu əsasında hazırlanıb. Bu zaman aktyorların çəkilişi böyük olmayan məsafədən, natura və ya dekorasiya şəkli yapışdırılmış kristal şəffaf şüşə obyektivdən aparılır.

***Sinefillik*** – kinomanlıq; tamaşaçının fərdi ekran mədəniyyətinin inkişafı forması. Daxili tələbatı ödəmək üçün müntəzəm olaraq kinofilmlərə baxmağa xüsusi ehtiras.

***Sinemateka –*** 1. yüksək səviyyəli dövlət, cəmiyyət, şəxsi və ya ev kinokolleksiyası; cəmiyyətin istifadəsi üçün yaradılmış, öz regionu üçün mədəni-maarif və arxiv əhəmiyyəti olan kolleksiya. Sinematekanın yaradılması ideyasını ilk dəfə 1998-ci ildə polyak fotojurnalisti Boleslav Matuşevski irəli sürmüşdür.
2. kinokolleksiya ətrafında tamaşaçı birliklərinin ənənəvi adı.

***Sinerama*** – xüsusi cəlbedici filmin eksperimental çəkiliş forması və bir neçə kinokamera və bir neçə kinoproektorla nümayişi; adətən 3 kinokamerayla monumental vestern çəkilir ("Qərb necə fəth edilib" /Con Ford, Henri Hetauey, Corc Marşall və Riçard Torp 1962).

***Sinxronlaşdırma*** – filmin qavranılması zamanı hərəkətin ritm və səslə uyğunluğu; eyni zamanda, musiqinin başlanğıc anının aid olduğu səhnənin başlanğıc anıyla uyğunlaşması. Sinxronlaşdırma səhvi asinxron adlanır. Montaj və proyeksiya sinxronlaşdırması olaraq iki növə ayrılır.

***Sinxron tərcümə*** – 1. filmin kinofestivallarda istifadə edilən təksəsli tərcüməsi. Kinoseansda iştirak edən tərcüməçi tərəfindən birbaşa nümayiş zamanı edilən tərcümə.

1. dublyajın bütün tələblərinə uyğun hazırlanmış peşəkar tərcümə; kinostudiyanın yazılı materialları əsasında yox, dinlədikdən sonra birbaşa aparılan tərcümə prosesi.

***Sinxron tərcümə müəllifi*** – dublyajın özünəməxsus tələblərini nəzərə alaraq filmin ədəbi tərcümə mətnini tərtib edən mütəxəssis.

***Sinopsis*** – kinoda reklamın bir forması; Kinomailiyyələşdirmə və kinoistehsal əlaqələrinin inkişafı üçün hazırlanmış, çəkiliş mərhələsində olan və ya hazır filmin original süjet gedişlərini açan qısa məzmunu.

***Sitkom*** – "situasiya komediyası"nın qısaldılması. 1. vəziyyət komediyası.
2. dar mənada: televiziya vəziyyət komediyasının bir növü, televiziya komediya seriallarının məşhur janrı. Belə serialların xarakterik cəhətləri: ailə serialı olması, dramatik konfliktin, sosial-siyasi tənqidin olmaması, dialoqlarda çox sayda süjetlə əlaqəsi olmayan zarafatlardan istifadə, pavilyonda frontal çəkilişlər. Sitkom teleseriallarin yaradılmasının texnoloji şərtləri məkan və zaman vahidliyi prinsipini tələb edir. Bu səbəbdən, adətən, sitkomların süjetini bir ailənin və ya ofis işçilərinin gündəlik həyatı təşkil edir ("Dostlar", "Alf" və s.).

***Siyasi film*** – yeni və ya keçmişdə baş vermiş, qəhrəmanları hələ də sağ olan siyasi hadisələrin materiallarından istifadə edərək rəsmi sənədlər əsasında çəkilən tarixi film janrı ( "Qəsd" /İv Buasse, 1972; "Mərmər adam" /Ancey Vayda, 1976; "Möhtəşəm" /Paolo Sorrentino, 2008).

***Skrinşot (screen shot)*** – reklam yaxud da film haqqında məlumat vermək məqsədiylə kinofilmin və ya televerilişin internetdə yerləşdirilən rəqəmsal kadrları. Skrinşotun dəyəri təsvirin texniki keyfiyyəti, filmin nadirliyi, təsvirin bədii dəyəri və görüntünün tamlığı ilə ölçülür. Kadrların seçimi, hazırlanması və yayımı tamaşaçı fəaliyyətinin bir formasıdır.

***Snaff*** – 1. həvəskar kinonun marginal növlərindən biri. Real və ya quraşdırma (reallıq kimi təqdim edilən) qətl hadisəsi əsasında azğın davranışları (heyvanlar üzərində zorakılıq, döyülmə, təcavüz, qətl, özünə işgəncə) ekranlaşdıran film. Snaff filmlərin çəkilişi, yayılması və nümayişi cinayət məsuliyyəti ilə tənzimlənir.
2. Bəzən snaffa real və qanuni, ancaq cəmiyyətin əxlaq normaları və estetik görüşləri baxımından ictimai nümayiş üçün arzuolunmaz sayılan hadisələrin (cərrahi əməliyyatların, heyvanların ətlik üçün doğranması və içalatının ayrılması, doğuş prosesi və s.) çəkilişini də daxil edirlər.

***Sosial dram*** – kinoda altjanr; qəhramanın daxili aləmiylə onun varlığının sosial şərtləri arasındakı konfliktdən bəhs edən film ("Velosiped oğruları"/Vittorio De Sika/1948, "Muşet" Rober Bresson 1967).

***Sosrealizm*** – kinoda sovet meynstriminin üslub dominantı və forma konsepsiyası. Sosial realizm metodu hər şeydən öncə qəhrəmanın daxili aləmiylə sosial təcrübəsinin uyğunlaşdırılmasından ibarət idi ("Zareç küçəsində bahar" /Marlen Xusiev və Feliks Mironer, 1956). Sosrealizmin xarakterik xüsusiyyəti qəhrəmanın hərtərəfli inkişaf etmiş, sosial həyatda aktiv olmasıdır.

***Sözsüz rol*** **–** rolun bir növü; aktyorun səhnə hərəkətini tənzimləyən epizodik rol. Bəzən plastika və mimika üzrə xüsusi professionallıq tələb olunur.

***Spagetti-vestern*** – vestern janrının italyan versiyası. Subjanr Serco Leonenin ("Yaxşı, Pis, Qəzəbli" 1967, "Bir dəfə Amerikada" 1983), Serco Korbuççinin ("Canqo"1966), Serco Sollimanın, Enso Barboninin, Tonino Valerinin, Enso Kastellarinin rejissorluq nümunələrində işlənib hazılanmışdır.

***Spoyler*** – tamaşaçının filmin seyrinə marağını azaldacaq süjetin detalları barədə informasiya. Məsələn, detektivdə cinayətkarın kimliyinin açıqlanması spoyler sayıla bilər.

***Stanislavksi sistemi*** – 1919-ci ildən Rusiyada aktyorun peşəkar ustalığını kamilləşdirməkdən ötrü tətbiq edilən müntəzəm psixofiziki məşq metodları kompleksi.

***Statist*** – kütləvi çəkilişdə individual olmayan rol növü; kadrda olan aktyorun standart, baş rolların ifaçılarının oyunları ilə əlaqəsi olmayan hərəkəti. Məsələn, sakit şəkildə nahar edən restoran müştərisi və ya kassada növbə gözləyən insan.

***Staxanov montajı*** – 1930-cu ilin ikinci yarısında Almaniya, Fransa və ABŞ-da kəsmə montaja verilmiş ironik ad. Bu istehzalar montaj kinosundan estetik imtinanın əsasını qoydu.

***Stedikam*** – "asılan ştativ"; 1973-cü ildə kəşf olunmuş, ştativin dayaq nöqtəsini operator arabasından operatorun bədəninə keçirən avadanlıq kompleksi. Bu avadanlıq əllə çəkiliş zamanı görüntünün stabilliyini saxlamağa kömək edir. Çəkiliş prosesinin daha ucuz başa gəlməsinə imkan verdiyi üçün müasir peşəkar və həvəskar kinoda geniş istifadə olunur. Rəvan panoramlaşdırmaya imkan verən stedikam vasitəsiylə aparılan əllə videoçəkiliş stedikam çəkilişi adlanır.

***Stereoskopik çəkiliş*** – kinoda ifadə vasitələrindən biri olan çəkiliş növü. Obyektin formasını və məkandakı vəziyyətini təsbit edə bilmək üçün onu iki cüzi fərqli rakurslardan (iki gözlə) izləyən insanın normal binokulyar baxışını təqlid edən çəkiliş növü. Eyni obyektin iki fərqli çəkiliş nöqtəsindən çəkilməsi.

***Stereoskopik format*** – xüsusi nümayiş vasitələriylə təsvirin üçölçülülüyünü canlandırmaq.

***Stereoskopik kino*** – stereoeffektlər əldə etməkdən ötrü stereoskopik çəkiliş və xüsusi kinoproeksiya apparatından istifadə

edən kinematoqrafın texniki növü. Stereoskopik filmlərin yaradıcısı Andre de Tot (1950-ci illər) hesab edilir. Alfred Hiçkokun "Qətl zamanı M-i yığın"(1953) trilleri stereoskopik kino formatında çəkilmişdir.

***Stop-kadr*** – kinokameranın pauzasından əvvəl və sonra çəkilən təsvirin köhnə versiyasının son, yeni versiyasının ilk kadrı. "Əvvəlki" və "sonrakı" görüntünün kadrlarının arası.

***Stop-kamera*** – bədii oyun kinosunda birbaşa çəkiliş zamanı kadrlararası montaj üsulu. Montaj yapışdırması olmadan görüntü kadrına düşən detalların dəyişdirilməsi üçün çəkiliş prosesinin dayandırıldığı zaman istifadə edilir. Daha çox televiziyada kadrda müxtəlif predmetlərin sehirli şəkildə peyda olmasını, aparıcının geyiminin dəyişdirilməsini göstərmək üçün istifadə olunur. Kinoda stop-kadrdan ilk dəfə Jorj Meles "Faust və Marqarita" (1897) filmində istifadə etmişdir.

***Stop-motion*** – canlı aktyorların iştirakı ilə kadrbakadr çəkiliş texnikası. Bu zaman hərəkətlər qeyri-rəvan və bir-birindən təcrid olunmuş şəkildə, qırıq-qırıq görünür.

***Stroboskopik effekt*** – tamaşaçıda müşahidə olunan görüntünün davamlılığı, kəsilməzliyi (kadrların ardıcıllığı) illüziyası yaradan effekt. Stroboskopik effektin fizioloji əsası – gözün tor qişasının obyekt itdikdən bir neçə saniyə sonra da görüntünü saxlaması xüsusiyyətidir. Əgər yeni kadr görmə orqanına (tamaşaçının gözünə) əvvəlki kadrın gözün tor qişasında itməsindən əvvəl daxil olursa, o, kadrların dəyişildiyini hiss etmir, görüntü isə sanki fasiləsiz imiş kimi görünür. Kadrların dəyişməsi üzrə beynəlxalq standart saniyədə 24 kadrdır. Bu standart yalnız unikal görmə qabiliyyəti olan və kadrları diskret şəkildə görə bilən avstraliyalı aborigenlər üçün yarasızdır.

***Subtitr*** – kadrdaxili titrlər; kadrın aşağı hissəsində yerləşən və kadrdakı mətni, personajların replikalarını, xarici dilli tamaşaçılar

üçün original titrləri sinxron olaraq göstərən yazılar. Eyni zamanda, eşitmə problemi olan insanlara səsli film nümayiş etdirilərkən istifadə olunur. Kustar üsulla hazırlanmış subtitr fansab adlanır. Filmin ayrılmaz hissəsi olan subtitr isə tikilmiş titr adlanır.

***Subyektiv kamera*** – çəkiliş nöqtəsinin müxtəlifliyi olub kinematoqrafın ifadə vasitələrindən biri sayılır. Personajlardan birinin baxış istiqamətinin kamera vasitəsiylə təkrarı. Hərəkət edən personajın baxış bucağından olan trayektor çəkiliş ("Unudulmuş əcdadların kölgələri" /Sergey Paracanov, 1964). Bu üsul ilk dəfə Fridrix Vilhelm Murnau tərəfindən 1924-cü ildə "Sonuncu insan" filmində istifadə edilib. Robert Montqomerinin "Göldəki qadın" filmi (1947) bütünlüklə əsas qəhrəman-təhkiyəçinin baxış bucağından çəkilib.

***Superqəhrəman*** – 1. XX əsr kütləvi şüurun fenomeni; cəmiyyətin sadə, mötəbər üzvünün xüsusiyyətləri ilə fantastik gücləri özündə birləşdirən personaj (Supermen, Betmen, Halk və s.)
2. öz istedadı və texniki imkalarını sayəsiydə hər cür rəqibə qalib gələn təhkiyə sənətləri üçün ənənəvi personaj (Robin Qud, Tarzan, Zorro, Ceyms Bond, İndiana Cons və s.).

***Surdotərcümə*** – eşitmə problemli insanlar üçün filmin jestlərin dili ilə "səsləndirilməsi". Surdotərcüməçinin olduğu proporsional olaraq kiçildilmiş kadr filmin üst hissəsində yerləşdirilir.

***Ssenari*** – sənədli və bədii oyun kinosunda məzmunu təfsilatı ilə şərh edən, gələcək filmin bütün səhnələrinin, video və səs sırasının ardıcıllığının təsvir olunduğu mətn. Ssenari vizuallaşdırma vasitələrinin kinematoqrafik təbiətinin nəzərə alınması yolu ilə yazılır.

***Ssenari müəllifi*** – kinoda peşə; filmin ssenarisini yazan şəxs.

***Ssenarili kadr*** – çəkilən kadrın onun bütün vizual xüsusiyyətləri və planlaşdırılan səs ardıcıllığı ilə birgə tam təsvirini özündə cəmləyən rejissor ssenarisinin bütöv bir fraqmenti.

***Ssenari ideyası*** **–** ssenarinin əsasında duran orijinal kolliziya. Ssenarinin müəllifliyi dövlətin mövcud qanunvericiliyi tərəfindən qorunur və ideya müəllifinin adı kino məhsulunun titrlərində yazılır.

***Süjet*** – filmin dramatik məzmunu olub hadisələr və personajlar arasındakı daxili qarşılıqlı əlaqənin personajların davranışı və konfliktin çözülməsi zəminində açılması. Əlaqəli təhkiyədə verilmiş ekran fəaliyyəti.

***Sürrealizm*** – 1920-ci illin əvvəllərində Fransada meydana gələn, kinotəhkiyənin altşüur məntiqi və yuxu əsasında formalaşan üslubi istiqaməti. Sürrealizmin xarakterik xüsusiyyəti irrasionallıq, qəribəlik, xəstə əhval-ruhiyyə, sayıqlamalar, qarabasmalardır. Bu üslubda çəkilmiş filmlərdə hadisələrin gedişatı şüuraltı və yuxu məntiqi vasitəsiylə formalaşır, instinktlər şüurdan üstün tutulur ("Əndəlus köpəyi" /Luis Bunüel, 1927, "Orfey" /Jan Kokto, 1950, Aleksandr Xodorovskinin, Yan Şvankmayerin filmləri).
Sürrealist filmlərin müəllifləri, bir qayda olaraq, qorxu, tənhalıq, mənliyin tapdanmasından qaynaqlanan ekzistensial vəziyyətləri araşdırırlar. Bunula yanaşı, ənənəvi təhkiyə quruluşuna meydan oxuyaraq dünyanı yuxu və reallıq sərhəddində qavrayırlar. Qeyri-məntiqi montaj sıçrayışları, xəyali təsvir motivlərinin şüursuz təkrarı, iri planlar və montaj fasilələrindən istifadə sürrealist kinonu həddindən artıq metaforikləşdirir.

## Ş

***Şok-art*** **–** XX əsr təsviri incəsənətində pop-art və konseptualizmi qabaqlayan sarcıdıcı, qalmaqallı üslubi istiqamət. Əsası fransız rəssamı, şahmatçısı və kinoaktyoru Marsel Düşamp tərəfindən qoyulub. Bu üslub "art-kino"da geniş istifadə edilir və hazırlıqsız tamaşaçı üçün təhlükəli hesab edilir. Belə ki, onun məqsədi insan

şüurunun təbii psixoloji mühafizə sistemini vizual obrazlar vasitəsilə məhv etməkdir.

***Şüfftan prosesi (Güzgü metodu)*** – Fris Lanqın "Metropolis" (1925) filminin çəkiliş meydanında fransız operatoru Oyhen Şüfftan tərəfindən işlənmiş kombinə edilmiş çəkiliş metodu. Kino kameranın 25-30 sm-lik məsafəsində kameranın optik oxuna $45^0$ bucaq altında güzgü bərkidilir. Bu üsul nəticəsində kameranın optik oxuna $90^0$ bucaq altında olan predmetlər də kadra düşür.

## T

***Tağalaq (bobina)*** – kinolentin saxlanması üçün çarx və ya silindr formalı sadə cihaz.

***Tamaşaçı kinosu*** – müasir prodüsser kinematoqrafında yüksək baxış sayı olan meynstrim məhsulu.

***Tammetrajlı film*** – kinofilm formatlarından biri; Amerika Kino Sənəti Akademiyası, Milli Kino sənəti İnstitutu, Britaniya Film İnstitutu 40 dəqiqə və daha çox davam edən filmləri tammetrajlı film hesab edirlər.

***Müşayiətçi*** – kinoda peşə; kinoteatrda səssiz filmin nümayişi zamanı görüntünü musiqi ilə müşayiət edən pianoçu.

***Tarixi film*** – bədii oyun kinosu və sənədli kino janrı. Təsvir edilən dövrün üslub və vizual xüsusiyyətlərini saxlamaqla həqiqi və ya uydurma tarixi süjet əsasında çəkilmiş film. Tarixi filmin bir çox altjanrları var: hərbi film, tarixi macəra filmi, tarixi komediya, tarixi fantaziya, siyasi film, retro və s. Tarixi film təkcə tarixi təfərrüata yox, konkret epoxada ümumbəşəri problem və konfliktlərə də həsr edilə bilər.

***Texniki montaj*** – montaj yapışıdırılması prosesinin mexaniki tərəfi. Filmin qaralama yığımı zamanı kinolentin parçalarının yapışdırılması.

***Texnikolor*** – müasir anlamda rəngli kinonun tarixən ilk sistemi. Görüntünün hidrotip metodla çapına əsaslanan, rəngli – yaşıl, mavi və qırmızı filtrlərlə ağ-qara lentə çəkilməsi. İlk dəfə Uolt Disney "Güllər və ağaclar" (1932) filmində tətbiq etmişdir.

***Texnonuar*** – ingilis kinoşünaslıq termini olub antiutopiyanın bir növü sayılır ("Terminator" /Ceyms Kameron, 1984; "Ekzistensiya" /Devid Kronenberq, 1999).

***Teqlayn*** – kinoməhsulun reklamı üsulu; janrın özünəməxsus xüsusiyyətini və ya filmin orijinal ideyasını aforistik formada çatdıran reklam şüarı (Silvester Stallonenin "Rembo–4" filmində (2008) "Cəhənnəmə və geri").

***Teleçərçivə*** – kadrın kənarlarındakı (enindən və uzunundan təxminən 5%) görüntünün pis seçildiyi hissə. Teleçərçivədə subtitr yerləşdirmək olmaz. Telegörüntü kadrının əsas mərkəzi hissəsi seyfzona adlanır.

***Televiziya premyerası*** – filmin ilk televiziya nümayişi.

***Televiziya filmi*** – bədii xüsusiyyətlərin televiziya nümayişinin texniki imkanlarıyla uyğunlaşdığı film formatı. 1970-ci illərin ortalarında maqnit lentə çəkilən telefilmin formatı özündə həm də videofilm estetikasını birləşdirir. Rəqəmsal texnologiyanın inkişafıyla tədricən kinonümayişlə telenümayiş arasındakı fərq aradan qalxır.

***Test baxışı*** – rəsmi premyeradan əvvəl keçirilən nümayiş; tamaşaçı senzurasının növü olub kinoda və kino sənayesində sosial araşdırmanın bir forması sayılır. Filmin fokus qrupa nümayişindən sonra səs korreksiyası, montaj və optimal final seçimi üçün anket-sorğu keçirilir.

***Təbiət obyektləri rəssamı*** – kinoda peşə; təbiət çəkilişləri üçün seçilmiş əlavə dekorativ məkanlara cavabdeh, dekorasiyanın təbii mənzərəyə uyğunlaşdırılmasını təmin edən rəssam.

***Təhkiyə*** – birbaşa mətnlə – nitqlə ifadə olunan fabula hadisələrinin, həmçinin təhkiyəli filmdə təhkiyə qatının filmin canına daxil edilməsi. Filmin xüsusi yozum tələb etmədən birbaşa ifadə olunan anlamı və obrazları. Təhkiyənin əsas xüsusiyyətləri hər bir elementin ümumi məna ilə qarşılıqlı əlaqəsi, hekayəçi-təhkiyəçinin hadisənin düyün nöqtəsi, əsas hissəsi və sonunu bilməsi ilə xarakterizə edilir. Təhkiyəlilik, film dramaturgiyasının daxili və xarici strukturunun üst-üstə düşməsi meynstrimin əsas fərqləndirici xüsusiyyətlərindəndir.

***Təhkiyəçi*** – hadisələrdə iştirak etməyən, sadəcə onu şərh edən və müəllif mövqeyindən çıxış edən film personajı. Təhkiyəçi ədəbiyyat və teatr üçün səciyyəvi olub öz kökünü qədim yunan faciəsi xorundan götürüb. Kinoda şərhi həm görünməyən şərti personaj, həm kadrda görünən və birbaşa tamaşaçılara və ya digər film personajlarına müraciət edən hadisələrin şahidi verə bilər. Bu üsul kompozisiya quruluşunun, ekspozisiya formasının tərtibində rol oynayır.

***Təhkiyə filmi*** – film dramaturgiyasının anlayışlarından olub meynstrimin klassik modelidir. Təhkiyə filmində hadisələr ardıcıl danışılır və qarşılıqlı əlaqədə olaraq bir hadisədən digəri törəyir. Təhkiyə filmlərinə aşağıdakı cəhətlər xasdır:

- məntiqilik, qəfil süjet gedişatının sonda aydınlaşması;
- zavyazka, əsas hissə, kuliminasiya və razvyazkadan ibarət klassik kompozisiya;
- happy-end, personaj-tipaj kimi dramaturji kanonlardan istifadə.

***Təmiz apertura*** – kadrın "kənar artefaktlar"dan azad və tamaşaçılar tərəfindən aydın görünən mərkəzi hissəsini bildirən texniki kino termini. Televiziyada bu terminə analoq olaraq seyfzona termini istifadə edilir.

***Təmiz kino*** – 1920-ci illərin ikinci yarısında fransız kinematoqrafiyasında avanqardın bir növü olan axın. Təmiz kino istiqamətində çəkilən filmlərdə məna təsvirlərin öz anlamlarından, onların montaj və ritmik uyğunlaşdırılmasından meydana çıxır (kubist rəssam Fernan Lejenin "Mexaniki balet" (1924) süjetsiz lenti və Rene Klerin "Fasilə" (1924) filminin birinci hissəsi).

***Tifloşərh*** – zəif görənlər və korlar üçün təsvirə kadrarxası səsli şərh. Kinoda peşə olub mənzərəni, geyimləri, hərəkətin detallarını təsvir edən kadrarxası şərhçi peşəsi isə tifloşərhçi adlanır.

***Tikilmiş titrlər (caption)*** – lentə çəkilmiş kinoda dublyaj zamanı saxlanılan və kinosənədin pozitivində filmin vizual düzümünə aid olan subtitrlər.

***Tipaj*** – aktyor/kastinq kateqoriyası olub rolu ifa edənin psixofiziki və sosial kulturoloji tipi. Tipaj anlamına, həmçinin, tarixən konkret olan qadınlıq və kişilik, gözəllik, xarizmatiklik kimi dəyişkən məfhumlar da daxildir.

***Titr*** – filmdə ayrıca kadrla verilən informativ yazı və ya kadra əlavə olunmuş izahedici mətn. Titrlər funksiyalarına görə fərqlənirlər:
1. filmin kinosənəd kimi təqdimetmə məlumatları olan titrlər. Giriş titrlərində filmin adı və yaradıcı heyətin – kinostudiya, rejissor, ssenarist, operator, bəstəkar, baş rolların ifaçılarının adları olur. Yekun titrlər film haqqında tam məlumat olub hüquqi münasibətlər sitemində yerini təyin edir və özündə aşağıdakı məlumatları əks etdirir:

- filmin çəkilişi zamanı qanunlara riayət olunması haqqında məlumat ("heç bir heyvan zərər görməyib", "iştirak edən personajlar təxəyyül məhsuludur")
- filmin çəkilişində iştirak etmiş, bütün filmin və ya ayrı-ayrı hissələrinin müəllif hüququna malik hüquqi və fiziki şəxslərin siyahısı. Eyni zamanda, filmin ərsəyə gəlməsində rolu olan bütün şəxslərin və təşkilatların adı ("minnətdarlıqlar", "...... xatirəsinə ithaf edilir").

2. səssiz filmdən səsli filmə keçmiş, film sonluğunu ayrıca titrlə bildirən intertitrlər (“Fin”, “The end”).
3. subtitrlər.
4. İzah titrləri – təsvir edilən obyekti izah edən, adlandıran titrlər.

***Tizer*** – kinoda reklamın bir növü; tamaşaçının diqqətini çəkiliş mərhələsində olan filmə cəlb edən və filmin reklam kompaniyasına daxil olan qısa treyler. Reklam olunan filmin kadrlarından ibarət olan 15-30 saniyəlik dinamik klipdə filmin süjeti barədə məlumat verilmir, sadəcə onun reklam obrazı yaradılır.

***Tonatelye*** – səsyazma pavilyonu. Kinostudiyada və ya telemərkəzdə, filmin səsləndirilməsi, yaxud da fonoqramın yenidən yazılması üçün kənar səslərdən təcrid olunmuş, səs rejissoru və səs operatorunun xüsusi yeri; səsləndirən aktyorların səslərinin yazılması üçün apparatura olan, ekran səsinin görüntüylə sinxronlaşdırılmasına nəzarət edilən məkan.

***Tonlaşdırma*** – film surəti fraqmentinin müəyyən rəngə boyanması. Nəticədə ağ və açıq boz rənglər bu rənglərin çalarlarına çevrilir. İkirəngli təsvir effekti almaqdan ötrü tonlaşdırmanı virajlama ilə birgə tətbiq etmək olar.

***Toronto Beynəlxalq Kino Festivalı*** – 1976-cı ildə əsası qoyulmuş və hər il sentyabr ayında Kanadada keçirilən kinofestival.

***Tragikomediya*** – komik vəziyyətləri faciəvi pafosla birləşdirən dramatik kino janrı (“Cəllad” /Luisa Qarsiya Berlanq, 1964; “Səmaya toxunmaq” /Tomas Yan, 1996 ).

***Transfokator*** – hərəkətsiz qalaraq kinokameraya yaxınlaşma və ondan uzaqlaşmanı təqlid etməyə imkan verən, fokus məsafəsi dəyişən obyektiv.

***Trayektor çəkiliş*** – panoramlaşdırılmış və trevellinqlə yanaşı hərəkətli çəkiliş növü. Trevellinq və panoramlaşdırmadan fərqli olaraq çəkiliş üçün operator kranı və ya başqa xüsusi texnika tələb

olunur. Trayektor çəkiliş kadrdaxili montajın ən effektli üsullarından biri hesab edilir. Məsələn: kameranın 4 dəqiqə inək sürüsünü müşahidə etməsi ("Şən uşaqlar" /Q.Aleksandr, 1934), kameranın silahlı adamın nərdivan sistemiylə və dəhlizlə irəliləməsini göstərməsi ("Cənab Lanjın cinayəti" /J.Renuar, 1935) kameranın 5 dəqiqəlik şəhər səyahəti ("Mən – Kuba" /Mixayil Kalatozov, 1964)

***Trevellinq*** – panorama və trayektor çəkilişlə yanaşı kino və ya teleçəkiliş üsulu. Kinokameranın çəkilən obyektlə paralel hərəkəti; bu zaman obyektivin optik oxu ilə obyektin hərəkət səthi arasındakı bucaq dəyişməz qalır. Vizual olaraq piyada gedən adam və ya hərəkət edən nəqliyyatın pəncərəsindən hərəkətsiz müşahidə aparan sərnişinin təəssüratına uyğun gəlir. Trevellinqin geniş istifadə olunan növləri: yaxınlaşma, uzaqlaşma, şaquli və üfüqi trevellinq.

***Treyler*** – 1. 2-3 dəqiqəlik çarx-anons və ya dinamik klipdən ibarət kino reklamı növü. Reklam olunan filmin süjeti və ya sərbəst ardıcıllıqlı kadrlar əsasında, çəkilişin ilkin mərhələsində hazırlanmış promo aksiya aparılması üçün tizer formasında olan çarx. Treyler tamaşaçılara filmin kinoteatrda nümayişindən öncə və sonra, televiziyada reklam fasiləsində nümayiş olunur və ya internetdə yerləşdirilir. Reklam növü kimi tamaşaçıların diqqətini cəlb etmək üçün feyk-treylerlər yaranıb.
2. kinoda janr – feyk-treylerdən yaranmış postmodernist qısametrajlı bədii oyun film janrı. Çəkilib tamamlanmamış filmin açılış və ya kuliminasiya səhnəsini göstərən rolik.

***Trəş*** – marketinq termini olub aşağıdakı mənalarda işlənir:
1. montaj və mizan nəzəriyyəsini nəzərə almadan aşağı səviyyəli görüntü nümayiş etdirən yarıkustar kiç kino janr kompleksi.
2. qadağan olunmuş mövzulara bayağı üslubda qrotesk-parodiya və yüngül münasibət sərgiləyən oyun filminin bədii quruluş prinsipi ("Çəhrayı flaminqo" /Con Uoters, 1972).

***Trikvel*** – köməkçi süjet-kompozisiya termini. Sikvelin bir növü olub film seriyasında sırasına görə üçüncü film.

***Triller*** – tamaşaçıda gərgin narahatlıq hissini birbaşa ölüm təhlükəsinin mənbəyini göstərmədən yaradan kino janrı. (“Psixo” /Alfred Hiçkok, 1960; “Bankdakı qız” /Yan Nasfeter, 1963; “Gəlin qara paltarda idi” /Fransua Trüffo, 1968). Triller və klassik dəhşət filmləri hər ikisi gündəlik həyat ritmini gözlənti və dəhşətli yaşantılarla pozmağa istiqamətlənsələr də, trillerdə qorxu mənbəyi öz adi xarakterini, şüurlu izahını saxlayır, dəhşət filmlərində isə təhlükə mənbəyi qəhrəman üçün qaçılmaz dəhşətli varlıqlar (bədheybət, manyak, yadplanetli) şəklində üzə çıxır.

***Tryukmaşın*** – kombinə edilmiş çəkiliş üçün olan kinotəchizat növü: bir optik oxda müxtəlif təsvirlər yaradan bir neçə kinoproyektor. Onun sayəsində kinokamera bu görüntüləri birlikdə bir-birinin üzərinə qoyulmuş şəkildə çəkə bilir.

***Tryuk kinosu*** – bir filmdə oyun kinosu, rəsm və kukla animasiyasının birləşdirilməsi (“Tarixdən əvvəlki dövrə səyahət” 1953, “Baron Münhauzen”, 1961/ Karel Zeman).

***Tutqunlaşma*** – kinematoqrafın ifadə vasitələrindən olub ardıcıl gedən, ancaq xronoloji və coğrafi baxımdan uzaq səhnələr arasında montaj keçidi formasıdır. Təsvirin tədricən qaranlığa çevrilməsi və ya əksinə, tutqunluqdan işığa çıxması yolu ilə meydana gəlir. Filmin və ya ayrı-ayrı səhnələrinin əvvəli və sonunu bildirən üsul hesab edilir. Subyektiv kamera ilə çəkiliş zamanı qəhrəmanın ürəkgetməsi və ya ayılmağını göstərmək üçün də tutqunlaşdırma metodundan istifadə olunur.

## U

***Uşaq kinosu*** – uşaq və yeniyetmələrə ünvanlanmış kino və teleməhsul olub, kino sənayesinin xüsusi sahəsidir. Uşaq kinosunu ümumi kino məhsullarından ayıran əsas cəhət uşaq qavrayışının tələb etdiyi bədii ifadəliliyə malik olmasında və senzura tələblərinin

mövcudluğundadır. Uşaq kinosunun auditoriyası və məhsulları yaş psixologiyasına uyğun olaraq bölünür.

***Uzaq plan*** **–** kinematoqrafik planın növlərindən biri. Uzaq plan insanı tam uzunluğu ilə kadr dərinliyində ətraf mühitdən təcrid etmədən təqdim edir. Bununla belə, insanın fiquru və üzü aydın seçilir ki, konkret personajı tanımaq olsun.

***Uzun plan*** **–** uzun çəkiliş kadrı; çoxlu sayda kadrların (100-150 metr kinolent) ardıcıl olaraq çəkilişi; montaj keçidlərsiz epizod. Yapon kinosunda uzun plan mizankadrların fasiləsiz əvəzlənməsi kimi işlənib. (“Doğulmaqdırsa, doğulmuşam /Yasudziro Odzu, 1932; Gion bacıları” /Kendzi Midzoquti, 1934). Avropa və ABŞ kinematoqrafında isə əksinə, kadrdaxili montaj və trayektor çəkilişə vurğu vurulub (“Oyun qaydaları” /Jan Renuar, 1939; “Vətəndaş Keyn” /Orson Uelles, 1941; Andrey Tarkovskinin filmləri).

## Ü

***Ümumi plan*** **–** kinematoqrafik planın növlərindən biri olub insanın bütün uzunluğu boyu kadr dərinliyində ön planda təsviridir.

## V

***Variant*** **–** kadrın yeni detallarla, fərqli mizan səhnə ilə yenidən çəkilmiş növü.

***Varioekran*** **–** Rolan Bıkov tərəfindən işlənmiş kadrdaxili montaj üsulu. Bu zaman kinotəsvirin səthi qəfildən kadrın “dərinliyinə” gedir, personajlar isə məhz bu “dərin ekran”dan  çıxmış kimi görsənirlər.

***Vertikal montaj*** – təsvirlə səsin montajı; dar mənada Sergey Eyzenşteyn tərəfindən işlənmiş bu metod təsvir sırasının səs sırasının strukturu ilə elə harmonik ahəngliyidir ki, bu zaman hər ikisinin təhkiyə mahiyyəti və kuliminasiya məqamları tamamilə üst-üstə düşür və bir-birini gücləndirir. Vertikal montaj metodunun ən parlaq istifadə məqamı Fred Sinnemanın "Düz günortaçağında" (1952) filmindədir.

***Vestern*** – Amerika macəra kinosunun istiqamətlərindən biri. Hadisələr əsasən vəhşi Qərbdə cərəyan edir. Vesternin əsas cəhətləri hadisələrin sürətlə, templə cərəyan etməsi, duellərdən və mütləq "xoşbəxt sonluq"lardan istifadə edilməsidir. Spagetti-vestern (italyan vesterni; "Yaxşı, pis, qəzəbli", "Bir dəfə vəhşi Qərbdə" /Sercio Leone), istern (Şərqi Avropa, Sovet vesterni; "Səhranın bəyaz günəşi" /Vladimir Motıl), norstern (island saqalarının ekranlaşdırılması; Xrafn Hunnlauqsonun "Qarğalar uçanda", "Qarğa kölgəsində", "Ağ vikinq" trilogiyası), müasir vestern ("Bir dəfə Meksikada" /Robert Rodrigez; "Qapını döyməmiş girin" /Vim Venders) kimi növləri var.

***Videoməhsul*** – ticarət şəbəkəsində satışı nəzərdə tutulan tirajlanmış videofilm.

***Videopoeziya*** – klipin altjanrı olub şeirə çəkilmiş klip, poeziya klipi mənasını verir.

***Videorolik*** – 30 saniyədən 60 saniyəyə qədər davam edən, klip montajı ilə işlənmiş kompüter, cizgi filmi və oyun roliki.

***Videosıra*** – müəyyən bir məqsədlə səssiz və ya səs sırasına əhəmiyyət vermədən izlənən hər hansı film hissəsi.

***Videoteka*** – videofilmlərin nizamlı kolleksiyası.

***Vinyetka*** – bədii oyun kinosunda bilavasitə təhkiyəvi əhəmiyyət daşımayan, film qəhrəmanının ruh yüksəkliyi, həyəcan və ya kədərini təsvir edən mənzərə kadrı.

*Vizual sıra* – müəyyən janr, mövzu, tarixi dövrü xarakterizə edən predmet və rekvizitlərin, interyer, peyzaj və vizual obrazların məcmusu.

## Y

*Yaxınlaşdırma* – çəkiliş üsulu olub kinematoqrafik planın yoxolma tərəfə rəvan əvəzlənməsi üçün geriyə hərəkətdir. Obyektin yoxolmasına nail olmaqdan ötrü yaxınlaşdırma effektini, həmçinin, fokus məsafəsinin azaldılması nəticəsində də əldə etmək olar. Ancaq bu zaman kinokameradan müxtəlif məsafələrdə yox olan predmetlərin miqyası eyni cür dəyişir.

*Yarıorta plan* – kinematoqrafik planın aralıq növü olub ümumi və orta plan arasındakı keçid plan.

*Yarısənədli film* – sənədli film üslubi manerasına yaxın tərzdə çəkilən bədii oyun filmi ("Oxuyan bir qaratoyuq vardı" /Otar İoseliani 1970; "Dəmir adam" /Anjey Vayda, 1981).

*Yengəc* – rejissor Vinsent Minelli tərəfindən kəşf edilmiş operator arabası növü ("vals edən kamera"). Diyircəkli üçayaq ştativ kinokameranın maksimal sərbəst hərəkətinə imkan verir. Bu üsulla "Madam Bovari" (1949), "Amerikalı Parisdə" (1951) filmləri çəkilmişdir.

*Yeni alman kinosu* – 1960-1970-ci illər alman kinematoqrafında kommersiya kinosuna qarşı yaranan müəllif kinosu. Nümayəndələri: Rayner Veyner Fasbinder ("Qorxu ürəyi yeyir", 1974; "Mariya Braunun evliliyi", 1979; "Berlin, Aleksandrplas", 1980; "Veronika Fossun iztirabları", 1982), Verener Hersoq ("Karliklər də azdan başlayır", 1970; Ahirre – tanrının qəzəbi", 1972; "Hərə öz tərəfində, Tanrı isə hamıya zidd", 1974; "Şüşə ürək", 1976), Vim Venders ("Onbirmetrəlik cərimə zərbəsi qarşısında qapıçının qorxusu", 1972; "Paris, Texas", 1984; "Berlin üzərində səma",

1987), Folker Şlöndorf ("Katarina Blümun təhqiredilmiş şərəfi", 1975; "Tənəkə təbil", 1979; "Svanın sevgisi", 1983) və b.

***Yeni dalğa*** – inqilabi ideyanın bədii əhəmiyyət daşıdığı istiqamət. Xarakterik cəhətləri cəmiyyətin aşağı təbəqəsinin həyatından bəhs edən mövzulara toxunması, qeyri-professional aktyorların çəkilişi, sənaye şəhəri naturasından və təbii işıqlandırmadan geniş istifadə, müəllif subyektivizmi və lirizm, 1950-ci illərdən başlayaraq antimontajdan istifadə (mizan səhnələrin çoxmənalılığına əsaslanaraq) hesab edilir.

***Yerdəyişmə*** – kinematoqrafın ifadə vasitələrindən olub, montaj keçidi üsuludur. Bu zaman bir montaj fazası digərini elə kadrda əvəz edir. Kadrın tədricən birincini əvəz edən ikinci təsvirlə doldurulması tryuk maşınında olan xüsusi pərdədən istifadə nəticəsində mümkün olur.

***Yerləşdirmə*** – vertikal montajda səsin təsvirdən əvvəl və ya sonra başlamasını təmin edən montaj keçidi üsuludur. Bu üsul kino nümunəsində ritmdənçıxmadan qaçmağa imkan verir.

***Yol kinosu (road movie)*** – janr istiqamətinin sərt qanunları olmayan və süjeti qəhrəmanların səyahət zamanı təəssüratları və macəraları üzərində qurulan filmlər. Bir qayda olaraq, belə səyahətlərin məqsədi aydın olmur və hərəkətə qəhrəmanın daxili mühakimələri və fikirləri stimul verir ("Alisa şəhərlərdə" /Vim Venders, 1974, "Mənim şəxsi ştatım Aydaho" /Qas van Sent, 1991, "Müddətsiz məzuniyyət" /Cim Carmuş, 1980).

## İstifadə edilmiş mənbələr


1. http://movieglossary.ru/
2. Базен А. Что такое кино. М., Исскуство, 1972
3. Кино: Энциклопедический словарь. Юткевич С.И. (гл.ред.), М., 1986
4. Строение фильма: некоторые проблемы анализа произведений экрана (составитель: К. Разлогов). М., Радуга, 1984
5. Фелдман Дж. и Г. Динамика фильма. М., Исскуство, 1959


## Xüsusi təşəkkürlər:


***Fil.e.d., prof. Bədirxan Əhmədov***
***Fil.f.d. Aytən Kazımova***
***Fil.f.d. Firudin Qurbansoy***

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 30.10.2014.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 7,25 ç.v. Tiraj: 200. Sifariş № 204.
Qiyməti müqavilə ilə.

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ**

---

**Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru**

www.mutercim.az